RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 10 (10030) 17 yanvar 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Paytaxtın sənaye yükü azalır, bölgələrdə həyat daha da canlanır

## Prezidentin fərmanı ilə yaradılacaq Qərb Sənaye Parkı bu prosesi sürətləndirəcək

Ölkəmizdə sənaye parklarının yaradılmasının xronikasına ötəri bir nəzər salmaq da yerinə düşər. Belə ki, 2011-ci il dekabrın 21-də dövlət başçısının müvafiq fərmanı ilə Sumqayıt Sənaye Parkı yaradılıb. Bu parkın ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların (işlərin, xidmətlərin) istehsalı və emalı müəssisələri açılıb. Ölkəmizin və ümumilikdə regionun ən böyük sənaye zonası olan Sumqayıt Sənaye Parkında indiyədək onlarla müəssisəyə rezident statusu verilib.

Elə həmin il yaradılmasına fərman verilmiş Balaxanı Sənaye Parkının fəaliyyətinin isə başlıca hədəfi təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şəraitin təmin edilməsidir. Balaxanı Sənaye Parkının idarəedici təşkilatı "Təmiz Şəhər" ASC-dir.

Prezident İlham Əliyevin Bakı şəhərinin Qaradağ rayonu ərazisində Qaradağ Sənaye Parkı yaradılması haqqında sərəncamı 2015-ci il iyunun 3-də verilib. "Bakı Gəmiqayırma Zavodu" MMC bu parkın rezidentidir.

Mingəçevir Sənaye Parkı da 2015-ci ildə yaradıldı. Bu barədə dövlət başçısı fevralın 26-da sərəncam imzaladı. Növbəti il sentyabrın 14-də isə ölkəmizdə əsasən əczaçılıq sənayesinin inkişaf etdirilməsi məqsədilə 30 hektar ərazidə Pirallahı Sənaye Parkı yaradılması haqqında sərəncam verildi. Hazırda bu parklarda da rezident kimi qeydiyyatdan keçmiş və fəaliyyətə başlamış müəssisələr var.

Qarabağın dirçəldilməsi, sənaye potensialının inkişaf etdirilməsi məqsədilə dövlət başçısının 28 may 2021-ci il tarixli fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Parkın prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyev keçən ay Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak etdi.

Bu parkda ümumi investisiyalarının həcmi 312 milyon manatdan çox olan 32 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən sənaye parkına 142 milyon manat sərmayə yatırılıb, 970-ə yaxın daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Sənaye parkının rezidentləri tərəfindən istehsal olunmuş 945 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

12



# Azərbaycanın xarici siyasəti dünyadakı reallığın diktəsi fonunda

## Prezident İlham ƏLİYEV: "Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də güclü olmalıyıq"

Prezident İlham Əliyev ötən ilin noyabrında Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət görüşündəki çıxışında qeyd etmişdir ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır: "Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik".

Xarici səfərlər və beynəlxalq tədbirlər də Azərbaycanın qlobal səviyyədə rolunu gücləndirir. Ötən il dövlətimizin başçısının çoxsaylı xarici səfəri olub. Bir çox beynəlxalq forum və zirvə görüşü isə Azərbaycanda keçirilib. Xüsusilə Şuşa, Ağdam və Xankəndidə təşkil olunan forumlar həm diplomatik, həm iqtisadi, həm də mədəni əlaqələrin inkişafına xidmət göstərir.

Türk Dövlətləri Təşkilatının Zirvə görüşləri də regionda Azərbaycanın liderliyini göstərir. Qəbələdə keçirilən rəsmi və Şuşada təşkil olunan qeyri-rəsmi zirvə görüşləri türk dünyasının birliyini möhkəmləndirir və Azərbaycan tərəfindən irəli sürülən təşəbbüsün əhəmiyyətini ortaya qoyur. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu addımlar yalnız diplomatik rəmz deyil, həm də regionda strateji təsirin artırılması məqsədini daşıyır.

Nəticə etibarilə Mərkəzi Asiya və regional diplomatik təşəbbüslər, nəqliyyat və logistika layihələri Azərbaycanın xarici siyasətində strateji prioritetlərdən biri kimi çıxış edir. Prezident İlham Əliyev müsahibəsində qeyd etdiyi kimi, bu yanaşma Azərbaycanı regional lider və etibarlı tərəfdaş kimi möhkəmləndirir, ölkəmizin iqtisadi potensialını artırır və beynəlxalq səviyyədə nüfuzunu genişləndirir.

11

# Ötən il Azərbaycan üzərindən yüklərin daşınmasında rekord göstərici qeydə alınıb

## Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə daha yüksək göstəricilərin əldə edilməsinə imkan yaranacaq




Ötən il Orta dəhlizlə Azərbaycan üzərindən aşırılan yüklərin həcmində 2024-cü illə müqayisədə yüksək artım qeydə alınıb. AZCON Holding şirkətlərindən biri olan "Azərbaycan Dəmir Yolları" QSC (ADY) tərəfindən Bakı Beynəlxalq Dəniz Limanında ötən il 100 min TEU konteynerdən çox yük aşırılaraq limanın tarixində rekord göstəriciyə imza atılıb. ADY-dən verilən məlumata görə, 2024-cü illə müqayisədə limanın quruma inteqrasiya edildiyi 2025-ci ildə müvafiq göstəricidə 40 faizə yaxın artım olub.

Ötən il həmçinin Qazaxıstanın "KazMunayQaz" milli şirkətinin (KMQ) törəməsi "Kazmortransflot" Aktau-Bakı-Aktau fider xətti üzrə 20 futluq ekvivalentdə (TEU) 59,4 min konteyner daşınıb. Məlumata görə, daşımaların həcmi 2024-cü illə müqayisədə 15 faizdən çox (51,4 min TEU) artıb. Müsbət dinamika Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzrə daşımalarına tələbin artması ilə şərtlənir.

12

# 20 Yanvar - qanla yazılmış qəhrəmanlıq səhifəsi



Paytaxtımız Bakı 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verən dəhşətli hadisələrin şahidi oldu. Sovet ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərinin iştirakı ilə xüsusi amansızlıqla Bakıda qətliam törədildi.

İmperiya cəlladlarının qəddarlığının, vəhşiliyinin hüdudu yox idi. Uşaqları, gəncləri, qocaları amansızlıqla atəşə tutur, tankları onların üzərinə sürürdülər. Yalın əllə onların zirehli hərbi texnikalarının qarşısına çıxıb: "Atəş açmayın, camaat silahsızdır", - deyənlər də dərhal güllələrə tuş gəlirdi. Çünki xüsusi təlim keçmiş sovet əsgərlərinin aldıqları tapşırıq belə idi. Onlar onsuz da dinc, silahsız insanları öldürdüklərini bilirdilər.

Yaralıların xəstəxanalara çatdırılmaması üçün təcili yardım maşınlarını atəşə tutur, güllələbaran edirdilər.

8

# Azərbaycan Avstriya və Almaniyaya qaz nəqlinə başlayıb

**SOCAR "Cənub qaz dəhlizi"nin Avropa seqmenti olan TAP vasitəsilə nəql edilən əhəmiyyətli həcmdə qazın Cənubi və Mərkəzi Avropa bazarlarına satışını həyata keçirərək, Azərbaycanın qaz ixracında növbəti mühüm mərhələyə başlayıb.**



SOCAR-dan AZƏRTAC-a bildirilib ki, 2026-cı ilin yanvar ayından etibarən Azərbaycan qazı digər ölkələrlə yanaşı, Avstriya və Almaniyadan olan alıcılara təchiz edilir.

İtaliya üzərindən Avstriya və Almaniyaya həyata keçirilən qaz təchizatı Azərbaycan qazının Avropadakı coğrafi əhatəsini daha da genişləndirir. Beləliklə, Azərbaycan qazını alan ölkələrin sayı 16-ya çatıb.

SOCAR Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə formalaşdırılmış qaz strategiyasına uyğun olaraq, Avropa və Yaxın Şərq regionlarında qaz marketinqi fəaliyyətini davamlı şəkildə genişləndirir, müxtəlif ölkələrdən olan alıcılarla əməkdaşlıq portfelini artırır və Azərbaycanın etibarlı enerji təchizatçısı kimi mövqeyini daha da möhkəmləndirir.

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 5-ci, 7-ci, 11-ci, 15-ci, 16-cı və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulanın ikinci hissəsinin dördüncü abzasından və 2-ci maddənin 1-ci hissəsindən "hakimiyyəti" sözü çıxarılsın;

1.2. 3-cü maddə üzrə:

1.2.1. 1-ci hissəyə "mülkiyyətçinin" sözündən əvvəl "dövlət və ya bələdiyyə orqanı(qurumu)," sözləri əlavə edilsin;

1.2.2. aşağıdakı məzmunda 2-2-ci hissə əlavə edilsin:

"2-2. **Ailə vəzifələri olan işçi** - tibbi rəyə əsasən qulluğa və ya köməyə ehtiyacı olan ailə üzvünə (ərinə (arvadına), valideynlərinə, övladlığa götürənlərə, uşaqlarına, o cümlədən övladlığa götürülən uşaqlara) və qəyyumluğunda (himayəsində) olan digər şəxslərə, habelə himayədar ailə (valideyn) olaraq ona verilmiş uşağa qulluq (köməklik) göstərilməsi ilə əlaqədar əmək fəaliyyətinə başlamaq, əmək funksiyasını yerinə yetirmək və ya işdə irəli çəkilmək imkanları məhdudlaşan işçi.";

1.2.3. 3-cü hissəyə "habelə" sözündən sonra "hüquqi şəxs yaratmadan sahibkarlıq və ya qeyri-sahibkarlıq fəaliyyətini (xüsusi notarius, vəkillik və mediator fəaliyyətini) həyata keçirən vergi ödəyicisi olan" sözləri əlavə edilsin;

1.2.4. 7-ci hissəyə birinci halda "və" sözündən sonra "(və ya)" sözləri əlavə edilsin;

1.2.5. aşağıdakı məzmunda 9-1-ci və 9-2-ci hissələr əlavə edilsin:

"9-1. **Ezamiyyət** - işəgötürənin əmri (sərəncamı, qərarı) ilə işçinin müəyyən olunmuş müddətə iş yerindən başqa yerə işəgötürənin qanunauyğun tapşırığını yerinə yetirmək üçün getməsi.

9-2. **Məsafədən (distant) iş** - əmək funksiyasının məsafədən icrasına imkan verən vasitələrlə (elektron, proqram-texniki, telekommunikasiya vasitələri və s.) müəssisədən və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerlərindən kənarda (işlərin görülməsi (xidmətlərin göstərilməsi) üçün münasib olan digər yerdə) yerinə yetirilməsi.";

1.3. 4-cü maddə üzrə:

1.3.1. 2-ci hissəyə "evində" sözündən sonra ", habelə məsafədən (distant) iş formasında" sözləri əlavə edilsin;

1.3.2. 3-cü hissədə "təşkilatlar" sözü "təşkilatların" sözü ilə, "müəssisələrinə" sözü "müəssisələrinin elmi və pedaqoji işçilərinə" sözləri ilə əvəz edilsin;

1.4. 5-ci maddənin 2-ci hissəsinin ikinci cümləsində "qulluqçuların" sözü "şəxslərin" sözü ilə əvəz edilsin;

1.5. 6-cı maddənin "ç" bəndindən "fəaliyyət göstərən müəssisədə (filialda, nümayəndəlikdə)" sözləri çıxarılsın;

1.6. 9-cu maddənin birinci hissəsi üzrə:

1.6.1. "b" bəndində "şərtlərini dəyişdirmək və ya onu ləğv etmək" sözləri "şərtlərinin dəyişdirilməsi və ya ona xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.6.2. "o" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda "ö" bəndi əlavə edilsin:

"ö) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş ezamiyyə xərcləri normalarından az olmayan məbləğdə ezamiyyə xərclərini almaq.";

1.7. 10-cu maddənin birinci hissəsi üzrə:

1.7.1. "b" bəndində "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.7.2. "d" bəndində "sirrini, habelə işəgötürənin kommersiya" sözləri", kommersiya və vergi" sözləri ilə əvəz edilsin;

1.7.3. "f" bəndi "g" bəndi hesab edilsin və aşağıdakı məzmunda "f" bəndi əlavə edilsin:

"f) bu Məcəllədə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla, işəgötürənin tapşırığı ilə ezamiyyətə getmək;";

1.8. aşağıdakı məzmunda 10-1.7-ci maddə əlavə edilsin:

"10-1.7. Bu Məcəllənin 10-1.2-ci və ya 10-1.3-cü maddələrinə əsasən çalışma müddətinin uzadılması işəgötürənin əmri (qərarı, sərəncamı) ilə rəsmiləşdirilir. Bu halda, işçinin əmək müqaviləsinə bu Məcəllənin 70-ci maddəsinin "e" bəndinə əsasən xitam verilməsinə və uzadılan müddətə müddətli əmək müqaviləsinin bağlanılmasına yol verilmir.";

1.9. 11-ci maddənin 1-ci hissəsi üzrə:

1.9.1. "b" bəndində "müqavilələrini ləğv etmək" sözləri "müqavilələrinə xitam vermək" sözləri ilə əvəz edilsin;

1.9.2. "d" bəndində "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.9.3. "ğ" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda "h" bəndi əlavə edilsin:

"h) bu Məcəllədə müəyyən edilmiş məhdudiyyətlər nəzərə alınmaqla, işçiləri ezamiyyətə göndərmək.";

1.10. 12-ci maddənin 1-ci hissəsinin "c" bəndində "müqavilələrini" sözü "müqavilələrinə" sözü ilə, "pozmaq" sözü "xitam vermək" sözləri ilə əvəz edilsin;

1.11. 14-cü maddə üzrə:

1.11.1. adından "hakimiyyəti" sözü çıxarılsın;

1.11.2. 3-cü hissə üzrə:

1.11.2.1. birinci abzasın ikinci cümləsində "Həmin" sözü "Müvafiq" sözü ilə əvəz edilsin;

1.11.2.2. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"əmək münasibətlərinin tənzimlənməsi məqsədilə müvafiq normativ hüquqi aktlar qəbul edir;";

1.12. 16-cı maddə üzrə:

1.12.1. 1-ci hissənin birinci abzası üzrə:

1.12.1.1. "milliyyətinə" sözü "etnik mənsubiyyətinə" sözləri ilə əvəz edilsin;

1.12.1.2. "ictimai-sosial" sözləri çıxarılsın;

1.12.1.3. "ailə vəziyyətinə" sözlərindən sonra "və ailə vəzifələrinə" sözləri, "hər hansı" sözlərindən sonra "birbaşa və ya dolayı" sözləri əlavə edilsin;

1.12.2. 2-ci hissəyə "əlilliyi olan şəxslərə," sözlərindən sonra "ailə vəzifələri olan işçilərə," sözləri əlavə edilsin;

1.13. 17-ci maddənin 1-ci hissəsinin birinci cümləsinə "xitam veriləcəyi" sözlərindən sonra ", əmək müqaviləsində və ya kollektiv müqavilədə nəzərdə tutulmuş güzəşt və imtiyazlardan məhrum ediləcəyi" sözləri əlavə edilsin;

1.14. 21-ci maddə üzrə:

1.14.1. adına və 1-ci hissəyə "Müəssisələrdə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində" sözləri əlavə edilsin;

1.14.2. 2-ci hissədə "Müəssisənin mülkiyyətçisi (işəgötürəni)" sözləri "İşəgötürən" sözü ilə əvəz edilsin;

1.14.3. 3-cü hissəyə "Müəssisələrdə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində" sözləri əlavə edilsin;

1.14.4. "Qeyd" hissəsində "sədrlər (direktorlar)" sözləri "himayəçilik" sözü ilə əvəz edilsin;

1.15. 25-ci maddə üzrə:

1.15.1. 1-ci hissədən "səlahiyyətləri daxilində" sözləri çıxarılsın;

1.15.2. 3-cü hissəyə "müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

1.15.3. 4-cü hissədə "müəssisə daxilində" sözləri "müəssisədə və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri ilə əvəz edilsin;

1.16. 26-cı maddənin 4-cü hissəsinin ikinci cümləsində "və ya kommersiya" sözləri ", kommersiya və (və ya) vergi" sözləri ilə əvəz edilsin;

1.17. 27-ci maddənin 1-ci hissəsinin birinci cümləsindən "aylıq" sözü çıxarılsın;

1.18. 28-ci maddə üzrə:

1.18.1. 2-ci hissəyə "Müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

1.18.2. 3-cü hissəsinin birinci cümləsinə "bölmələrində" sözündən sonra ", habelə fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

1.19. 29-cu maddənin ikinci cümləsinə "Müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

1.20. 31-ci maddə üzrə:

1.20.1. 2-ci hissə üzrə:

1.20.1.1. birinci abzasdan ", bir qayda olaraq," sözləri çıxarılsın;

1.20.1.2. "a" bəndində "müəssisənin istehsal" sözləri "istehsalatın" sözü ilə, "fəaliyyətinin" sözü "fəaliyyətin" sözü ilə əvəz edilsin;

1.20.1.3. "ı" bəndində "müqaviləsi ləğv edilərkən" sözləri "müqaviləsinə xitam verilərkən" sözləri ilə əvəz edilsin;

1.20.1.4. "j" bəndindən "müəssisənin" sözü çıxarılsın;

1.20.2. 3-cü hissəyə "müəssisənin" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin" sözləri əlavə edilsin;

1.21. 32-ci maddə üzrə:

1.21.1. 4-cü hissədə "hallardan başqa müəssisədə" sözləri ", eləcə də fiziki şəxs olan işəgötürənin vergi uçotundan çıxarıldığı hallar istisna olmaqla, işəgötürən tərəfindən" sözləri ilə əvəz edilsin;

1.21.2. 7-ci hissəyə "müəssisənin" sözündən sonra "və fiziki şəxs olan işəgötürənin" sözləri əlavə edilsin;

1.22. 36-cı maddə üzrə:

1.22.1. 1-ci hissənin "a" bəndi aşağıdakı redaksiyada verilsin:

"a) Baş kollektiv saziş - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), həmkarlar ittifaqlarının və işəgötürənlərin ümumrespublika (respublika) birlikləri arasında;";

1.22.2. 2-ci hissədən "Baş," sözü çıxarılsın və həmin hissədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.23. 38-ci maddənin 2-ci hissəsi üzrə:

1.23.1. "a" bəndində "və müəssisələrin" sözləri ", müəssisələrin və fiziki şəxs olan işəgötürənlərin" sözləri ilə əvəz edilsin;

1.23.2. "g" bəndinə "müəssisələrdə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində" sözləri əlavə edilsin;

1.23.3. "i" bəndinə "müəssisələrə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənlərə" sözləri əlavə edilsin;

1.24. 40-cı maddənin 2-ci hissəsinə "işəgötürənlərinin" sözündən sonra ", fiziki şəxs olan işəgötürənlərin" sözləri əlavə edilsin;

1.25. aşağıdakı məzmunda 41-1-ci maddə əlavə edilsin:

**"Maddə 41-1. Əmək və sosial məsələlər üzrə üçtərəfli komissiya**

Azərbaycan Respublikasında sosial-əmək münasibətlərinin tənzimlənməsinə dəstək vermək, sosial sabitliyi qorumaq, kollektiv danışıqların aparılması və Baş kollektiv sazişin layihəsinin hazırlanması üzrə işləri əlaqələndirmək, sosial təminat sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanması ilə bağlı məsləhətləşmələr aparmaq və tərəflərin mövqelərini razılaşdırmaq məqsədilə tərəflərin hüquq bərabərliyi prinsipi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), həmkarlar ittifaqlarının və işəgötürənlərin ümumrespublika (respublika) birliklərinin birgə qərarı ilə bərabər sayda səlahiyyətli nümayəndələrindən ibarət daimi fəaliyyət göstərən əmək və sosial məsələlər üzrə üçtərəfli komissiya yaradılır.";

1.26. 43-cü maddənin 2-ci hissəsinin "b" bəndinə "dövlət" sözündən sonra "və ya bələdiyyə" sözləri əlavə edilsin;

1.27. 46-cı maddə üzrə:

1.27.1. 4-cü hissənin üçüncü cümləsində "qəyyumlarından" sözü "himayəçilərindən" sözü ilə əvəz edilsin;

1.27.2. 5-ci hissənin birinci cümləsində "müqaviləsi" sözü "müqaviləsinin" sözü ilə əvəz edilsin və həmin cümlədən "etibarsız hesab edilə və ya" sözləri çıxarılsın;

1.28. 47-ci maddənin birinci hissəsi üzrə:

1.28.1. birinci abzasda "müqaviləsi" sözü "müqaviləsinin" sözü ilə, "bağlanıla bilər" sözləri "bağlanılmasına yol verilir" sözləri ilə əvəz edilsin;

1.28.2. "a" bəndində "işçi" sözü "şəxs" sözü ilə əvəz edilsin;

1.28.3. "ğ" bəndi "x" bəndi hesab edilsin və aşağıdakı məzmunda "ğ" və "h" bəndləri əlavə edilsin:

"ğ) təhsilalanların istehsalat təlimi və təcrübəsi keçdiyi hallarda;

h) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər iş icazəsi əsasında Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətinə cəlb olunduqda;";

1.29. 48-ci maddə üzrə:

1.29.1. 3-cü hissədə "müqaviləsi bağlanıla bilər" sözləri "müqaviləsinin bağlanılmasına yol verilir" sözləri ilə əvəz edilsin;

1.29.2. aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilsin:

"5-1. İşçinin əmək və sosial hüquqları ilə bağlı təminatlarının və güzəştlərinin təmin edilməsi məqsədilə əmək münasibətləri ilə əlaqəli digər sənədlər (himayəsində olan ailə üzvlərinin sayı, əlilliyi olan şəxs olması, müharibə veteranı, məcburi köçkün statusu və s. barədə) işçi tərəfindən könüllü olaraq təqdim olunur.";

1.30. 50-ci maddənin 1-ci və 4-cü hissələri aşağıdakı redaksiyada verilsin:

"1. Yerinə yetiriləsi işin, əmək funksiyasının xarakteri ilə əlaqədar olaraq müəyyən vəzifələri (peşələri) tutmaq üçün işəgötürən müsabiqə elan edə bilər. Müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrumetmə cəzası almış şəxslər cəzasının müddətinin bitməsinə bir ay qalmış müsabiqəyə çıxarılan həmin vəzifə (peşə) üzrə müsabiqədə iştirak edə bilərlər.";

"4. Müsabiqənin keçirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla işəgötürən tərəfindən bu Məcəllənin 2-ci maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş prinsiplərə zidd olmamaqla müəyyən edilir.";

1.31. 53-cü maddə üzrə:

1.31.1. 3-cü hissə ləğv edilsin;

1.31.2. 4-cü hissəyə "müqaviləsinə" sözündən sonra "həmin müddət ərzində" sözləri, "sərəncamı" sözündən sonra ", qərarı" sözü əlavə edilsin;

1.32. 55-ci maddə üzrə:

1.32.1. mətni 1-ci hissə hesab edilsin və həmin hissənin birinci cümləsindən birinci halda "əlavə" sözü çıxarılsın;

1.32.2. aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Əmək funksiyalarının məsafədən (distant) iş formasında yerinə yetirilməsi ilə əlaqədar əmək şəraitinin əlavə şərtləri tərəflərin qarşılıqlı razılığı ilə əmək müqaviləsi ilə müəyyən edilir.";

1.33. 56-cı maddə üzrə:

1.33.1. 2-ci hissənin birinci cümləsinə "sərəncamı" sözündən sonra ", qərarı" sözü əlavə edilsin;

1.33.2. 4-cü hissə üzrə:

1.33.2.1. birinci cümləyə "müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

1.33.2.2. ikinci cümlədə "görə bilər" sözləri "görür" sözü ilə əvəz edilsin;

1.34. 58-ci maddə üzrə:

1.34.1. 6-cı hissədə "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

1.34.2. 7-ci hissədən "hakimiyyəti" sözü çıxarılsın;

1.35. 59-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 59. Başqa işə keçirmə**

1. İşçinin başqa işə keçirilməsinə onun razılığı ilə əmək müqaviləsinə dəyişiklik edilməklə və ya yeni əmək müqaviləsi bağlanılmaqla yol verilir.

2. İşçinin başqa işə keçirilməsi dedikdə, işçi tərəfindən əmək müqaviləsində nəzərdə tutulmayan başqa peşə, ixtisas və vəzifə üzrə əmək funksiyasının yerinə yetirilməsi başa düşülür.";

1.36. 61-ci maddə üzrə:

1.36.1. 2-ci hissə üzrə:

1.36.1.1. birinci cümlədə "Boş" sözü "Vakant" sözü ilə əvəz edilsin;

1.36.1.2. ikinci cümlədə hər iki halda "boş" sözü "vakant" sözü ilə, "əlavə əmək haqqı" sözləri "əməkhaqqına əlavə" sözləri ilə əvəz edilsin;

1.36.2. 3-cü hissə üzrə:

1.36.2.1. birinci cümlədə "Boş" sözü "Vakant" sözü ilə əvəz edilsin;

1.36.2.2. ikinci cümlədə "boş" sözü "vakant" sözü ilə əvəz edilsin;

1.36.3. 4-cü hissə üzrə:

1.36.3.1. birinci cümlədə hər dörd halda "boş" sözü "vakant" sözü ilə əvəz edilsin;

1.36.3.2. ikinci cümlədə "boş" sözü "vakant" sözü ilə, "əlavə əməkhaqqı" sözləri "əməkhaqqına əlavə" sözləri ilə əvəz edilsin;

1.37. 62-ci maddə üzrə:

1.37.1. 1-ci hissə üzrə:

1.37.1.1. "b" bəndinə "yetirmədikdə" sözündən sonra ", habelə icbari tibbi müayinə ilə bağlı verilmiş tibbi rəydə əmək funksiyalarının yerinə yetirilməsinə əks göstərişlər aşkar edildikdə" sözləri əlavə edilsin;

1.37.1.2. "ç" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda "d" və "e" bəndləri əlavə edilsin:

"d) müəyyən olunmuş qaydada əməyin mühafizəsi üzrə təlimdə iştirak etməkdən və biliyinin yoxlanılmasından boyun qaçırdıqda;

e) əmək vəzifələrinin pozulması halının araşdırılmasına maneçilik törətdikdə.";

1.37.2. 2-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İşəgötürən işçinin işdən kənar edilməsi üçün əsas olan hal aradan qaldırılanadək işçini işdən kənarlaşdıra bilər.";

1.37.3. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. İşçinin işdən kənarlaşdırıldığı müddət hər bir konkret halın xarakterinə, işçinin işdən kənarlaşdırıldığı müddətdə həmin halın aradan qalxmasına və ya davam etməsi ondan asılı olan hallarla bağlı işçinin etdiyi hərəkətlərə (hərəkətsizliklərə) uyğun olaraq işəgötürən tərəfindən müəyyən edilir. İşəgötürən işçinin işdən kənarlaşdırılması barədə əmrini (sərəncamını, qərarını) vaxtından əvvəl ləğv edə bilər.";

1.38. 63-cü maddə üzrə:

1.38.1. 1-ci hissənin ikinci cümləsində "müqavilələri" sözü "müqavilələrinə" sözü ilə, "ləğv edilə" sözləri "xitam verilə" sözləri ilə əvəz edilsin;

1.38.2. 3-cü hissənin birinci cümləsində "müqavilələrinin kütləvi şəkildə ləğv edilməsi" sözləri "müqavilələrinə kütləvi şəkildə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.38.3. "Qeyd" hissəsi üzrə:

1.38.3.1. birinci abzasda "müqavilələrinin" sözü "müqavilələrinə" sözü ilə, "ləğv edilməsi" sözləri "xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.38.3.2. dördüncü abzasda "müqavilələrinin ləğv edilməsi" sözləri "müqavilələrinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.39. 65-ci maddə üzrə:

1.39.1. 2-ci hissənin birinci cümləsi çıxarılsın;

1.39.2. 3-cü hissənin birinci cümləsinə "sərəncamı" sözündən sonra ", qərarı" sözü əlavə edilsin;

1.39.3. 4-cü hissənin ikinci cümləsinə "sərəncamla" sözündən sonra ", qərarla" sözü əlavə edilsin;

1.39.4. 5-ci hissənin birinci cümləsində "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

1.40. 67-ci maddə üzrə:

1.40.1. 1-ci hissədə "müqaviləsi" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilə" sözləri "xitam verilə" sözləri ilə əvəz edilsin;

1.40.2. 4-cü hissədə "müqavilələri ləğv edilə" sözləri "müqavilələrinə xitam verilə" sözləri ilə əvəz edilsin;

1.40.3. 6-cı hissədə "müqaviləsi ləğv edilən" sözləri "müqaviləsinə xitam verilən" sözləri ilə əvəz edilsin;

1.41. 67-1-ci maddənin 5-ci hissəsində və 67-2-ci maddənin 4-cü hissəsində "müqaviləsinin" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilməsi" sözləri "xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.42. 69-cu maddə üzrə:

1.42.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 69. Əmək müqaviləsinə işçinin təşəbbüsü ilə xitam verilməsi";**

1.42.2. 1-ci hissədə "müqaviləsini ləğv edə" sözləri "müqaviləsinə xitam verə" sözləri ilə əvəz edilsin;

1.42.3. 3-cü hissədən "və qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda" sözləri çıxarılsın və həmin hissədə "müqaviləsi ləğv edilə" sözləri "müqaviləsinə xitam verilə" sözləri ilə əvəz edilsin;

1.42.4. 3-1-ci hissədə "müqaviləsi ləğv edilə" sözləri "müqaviləsinə xitam verilə" sözləri ilə əvəz edilsin;

1.42.5. 4-cü hissə üzrə:

1.42.5.1. birinci cümlədə "müqaviləsini ləğv etmək" sözləri "müqaviləsinə xitam vermək" sözləri ilə əvəz edilsin və həmin cümləyə "ərizə vermiş" sözlərindən sonra "və ərizəsində əmək münasibətlərini dayandırmaq istədiyi günü göstərməyən" sözləri əlavə edilsin;

1.42.5.2. ikinci cümlədə "müqaviləsi ləğv edilə" sözləri "müqaviləsinə xitam verilə" sözləri ilə əvəz edilsin;

1.42.5.3. dördüncü cümlədə "müqaviləsi" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edildikdən" sözləri "xitam verildikdən" sözləri ilə əvəz edilsin;

1.42.6. 5-ci hissədə "müqaviləsinin ləğv edilməsinə" sözləri "müqaviləsinə xitam verilməsinə" sözləri ilə əvəz edilsin;

1.42.7. 6-cı hissənin birinci və ikinci cümlələrində "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.42.8. 7-ci hissədə "müqaviləsini ləğv etməyə" sözləri "müqaviləsinə xitam verməyə" sözləri ilə əvəz edilsin;

1.43. 70-ci maddə üzrə:

1.43.1. adında "müqaviləsinin ləğv edilməsinin" sözləri "müqaviləsinə xitam verilməsinin" sözləri ilə əvəz edilsin;

1.43.2. birinci abzasda "müqaviləsi" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilə" sözləri "xitam verilə" sözləri ilə əvəz edilsin;

1.43.3. "a" bəndinə "ləğv edildikdə" sözlərindən sonra "və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verildikdə" sözləri əlavə edilsin;

1.44. 71-ci maddə üzrə:

1.44.1. adında "müqaviləsi" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilərkən" sözləri "xitam verilərkən" sözləri ilə əvəz edilsin;

1.44.2. 2-ci hissədə "müqaviləsinin ləğv edilməsinə" sözləri "müqaviləsinə xitam verilməsinə" sözləri ilə əvəz edilsin;

1.44.3. 3-cü hissədə "müqaviləsinin ləğv edilməsinin" sözləri "müqaviləsinə xitam verilməsinin" sözləri ilə əvəz edilsin;

1.45. 72-ci maddənin birinci hissəsi üzrə:

1.45.1. "d" bəndində "qəsdən istehsal, kommersiya və ya dövlət" sözləri "dövlət, kommersiya və (və ya) vergi" sözləri ilə əvəz edilsin;

1.45.2. "f" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda "g" bəndi əlavə edilsin:

"g) "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən konfidensial hesab edilən xüsusi kateqoriyalı fərdi məlumatların yayılması.";

1.46. 73-cü maddənin adından "qaydası" sözü çıxarılsın;

1.47. 74-cü maddə üzrə:

1.47.1. 1-ci hissə üzrə:

1.47.1.1. "c" bəndi aşağıdakı redaksiyada verilsin:

"c) qanunla daha uzun müddət müəyyən edilməmişdirsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə davamlı itirilməsi ilə əlaqədar işçi əmək funksiyasını yerinə yetirə bilmədikdə və fərdi reabilitasiya proqramına uyğun olaraq iş yerinin uyğunlaşdırılması və ya yüngül işə keçirilməsi mümkün olmadıqda;";

1.47.1.2. "ə" bəndinə "müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

1.47.2. 2-ci hissə üzrə:

1.47.2.1. birinci cümlədə "Əgər qanunsuz" sözləri "Qanunsuz" sözü ilə əvəz edilsin;

1.47.2.2. ikinci cümlədə "Məcəllənin 71-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq araşdırmalar aparılmaqla" sözləri "maddənin 1-ci hissəsinin "b" bəndinə əsasən" sözləri ilə əvəz edilsin;

1.47.3. aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Bu maddənin birinci hissəsinin "c" bəndinə əsasən əmək müqaviləsinə xitam verilərkən, işəgötürən əlilliyi müəyyən edilmiş işçinin fərdi reabilitasiya proqramına uyğun olaraq iş yerinin uyğunlaşdırılmasının və ya yüngül işə keçirilməsinin mümkün olmamasını əsaslandırmalıdır.";

1.47.4. "Qeyd" hissəsi üzrə:

1.47.4.1. birinci və ikinci cümlələrdə "tam" sözü "davamlı" sözü ilə əvəz edilsin;

1.47.4.2. beşinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Əlillik müəyyən edilmədən orqanizmin funksiyaları qismən pozulmuş işçilərin əmək funksiyasını davam etdirməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi nəzərə alınır.";

1.48. 75-ci maddənin 2-ci hissəsinin "a" bəndi ləğv edilsin;

1.49. 76-cı maddə üzrə:

1.49.1. adında "müqaviləsinin ləğv edilməsini" sözləri "müqaviləsinə xitam verilməsini" sözləri ilə əvəz edilsin;

1.49.2. 2-ci hissədə "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.50. 77-ci maddə üzrə:

1.50.1. 1-ci hissənin birinci abzasında "müqaviləsi ləğv edilməzdən" sözləri "müqaviləsinə xitam verilməzdən" sözləri ilə əvəz edilsin;

1.50.2. 3-cü hissənin birinci abzasında "müqaviləsi" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilərkən" sözləri "xitam verilərkən" sözləri ilə əvəz edilsin;

1.50.3. 7-ci hissə üzrə:

1.50.3.1. birinci cümlədən "a" və" sözləri çıxarılsın;

1.50.3.2. üçüncü cümləyə "ç" bəndi" sözlərindən sonra "və 74-cü maddəsinin birinci hissəsinin "a" bəndi" sözləri əlavə edilsin;

1.50.4. 8-ci hissədə "iş yerlərinin" sözləri "işçilərin sayının azaldılması və ya ştatların" sözləri ilə, "həmin müəssisədə və ya digər müəssisədə işə düzəltmək" sözləri "işə düzəlməsi" sözləri ilə əvəz edilsin;

1.50.5. 9-cu hissə üzrə:

1.50.5.1. birinci cümləyə "ləğvi" sözündən sonra "və yafiziki şəxs olan işəgötürənin vergi uçotundan çıxarılması halları" sözləri əlavə edilsin və həmin cümlədə "mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisədə" sözləri "əvvəlki" sözü ilə əvəz edilsin;

1.50.5.2. ikinci cümləyə hər iki halda "müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

1.51. 78-ci maddənin 2-ci hissənin altıncı abzası ləğv edilsin;

1.52. 79-cu maddə üzrə:

1.52.1. adında "müqaviləsinin ləğv olunması" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.52.2. 1-ci hissə üzrə:

1.52.2.1. üçüncü abzasda "müəssisə" sözü "iş yeri" sözləri ilə əvəz edilsin;

1.52.2.2. səkkizinci abzasda "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

*Ardı 3-cü səh.*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

1.52.3. 2-ci hissədə "bəndi və 73-cü maddəsi" sözləri "və "e" bəndləri" sözləri ilə əvəz edilsin;

1.52.4. 3-cü hissəyə "edilməsi" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi" sözləri əlavə edilsin və həmin hissədə "müqaviləsinin işəgötürən tərəfindən ləğv edilməsinə" sözləri "müqaviləsinə işəgötürən tərəfindən xitam verilməsinə" sözləri ilə əvəz edilsin;

1.53. 80-ci maddə üzrə:

1.53.1. adında "müqaviləsinin" sözü "müqaviləsinə" sözü ilə, "ləğvi" sözü "xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.53.2. 1-ci hissədə "müqaviləsi müəssisədə fəaliyyət göstərən" sözləri "müqaviləsinə həmin" sözləri ilə, "ləğv edilir" sözləri "xitam verilir" sözləri ilə əvəz edilsin;

1.53.3. 2-ci hissəsinin birinci cümləsində "müqaviləsini" sözü "müqaviləsinə" sözü ilə, "ləğv etmək" sözləri "xitam vermək" sözləri ilə, "müəssisənin" sözü "müəssisədə və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində fəaliyyət göstərən" sözləri ilə əvəz edilsin;

1.53.4. 3-cü hissədə "müqaviləsi" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilərkən" sözləri "xitam verilərkən" sözləri ilə əvəz edilsin;

1.54. 83-cü maddənin 4-cü hissəsində "pul əvəzi" sözləri "kompensasiya" sözü ilə əvəz edilsin;

1.55. 84-cü maddə üzrə:

1.55.1. adına "əmrin" sözündən sonra "(sərəncamın, qərarın)" sözləri əlavə edilsin;

1.55.2. 1-ci hissə üzrə:

1.55.2.1. ikinci abzasa "dövlət" sözündən sonra "və ya bələdiyyə" sözləri əlavə edilsin;

1.55.2.2. beşinci abzasa "əsası" sözündən sonra "və həmin əsasın nəzərdə tutulduğu bu Məcəllənin müvafiq maddəsi, hissəsi və bəndi" sözləri əlavə edilsin;

1.55.2.3. altıncı abzas ləğv edilsin;

1.56. 86-cı maddə üzrə:

1.56.1. adına "əmrlərin" sözündən sonra "(sərəncamların, qərarların)" sözləri əlavə edilsin;

1.56.2. 3-cü hissədə "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.57. 90-cı maddənin 1-ci hissəsində "Bir qayda" sözləri "Normal iş vaxtına uyğun" sözləri ilə əvəz edilsin;

1.58. 94-cü maddənin 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"4. İşəgötürən vakant vəzifə (peşə) yarandıqda və əvvəllər natamam iş vaxtını yaradan zəruri amillər dəyişdikdə, natamam iş vaxtında çalışan işçinin tam iş vaxtında çalışması üçün tədbir görməlidir.";

1.59. 95-ci maddə üzrə:

1.59.1. 1-ci hissədə "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.59.2. 3-cü hissəyə "müəssisələrində" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində" sözləri əlavə edilsin;

1.60. 96-cı maddənin 2-ci hissəsindən "müəssisədə" sözü çıxarılsın;

1.61. 98-ci maddə üzrə:

1.61.1. adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 98. İşçilərin gecə vaxtı yerinə yetirilən işlərə cəlb edilməsinin xüsusiyyətləri";**

1.61.2. aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Növbəli iş vaxtı rejimi təşkil edilərkən və gecə növbəsinə işə təyin edilərkən, işçilərin xüsusi, o cümlədən ailə vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar ehtiyacları əsaslandırıldıqda və mümkün olduqda nəzərə alınmalıdır.";

1.62. 101-ci maddənin 1-ci hissəsi üzrə:

1.62.1. "b" bəndində "müəssisələrində" sözü "xidmət sahələrində" sözləri ilə əvəz edilsin;

1.62.2. "d" bəndində "əvəz edən işçinin işdə" sözləri "işçini əvəz edə biləcək başqa işçinin" sözləri ilə əvəz edilsin;

1.63. 103-cü maddə üzrə:

1.63.1. 2-ci hissədə "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.63.2. 5-ci hissənin ikinci cümləsində "edə bilər" sözləri "edir" sözü ilə əvəz edilsin;

1.64. 105-ci maddə üzrə:

1.64.1. 1-ci hissənin səkkizinci-on altıncı abzasları müvafiq olaraq doqquzuncu-on yeddinci abzaslar hesab edilsin və həmin hissəyə aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"Dövlət Suverenliyi Günü (sentyabrın 20-si);";

1.64.2. 3-cü hissədə "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

1.65. 107-ci maddənin mətnində "müəssisələri" sözü "sahələri" sözü ilə əvəz edilsin;

1.66. 108-ci maddə üzrə:

1.66.1. 1-ci hissədə "günü qabağı" sözləri "günündən bilavasitə əvvəl gələn" sözləri ilə əvəz edilsin;

1.66.2. 2-ci hissədə "müəssisələrdə" sözü "işçilər üçün" sözləri ilə əvəz edilsin;

1.67. 111-ci maddənin 1-ci hissəsinin birinci cümləsinə "hallarda" sözündən sonra ", sonuncu əməkhaqqından az olmamaqla," sözləri əlavə edilsin;

1.68. 114-cü maddə üzrə:

1.68.1. 3-cü hissənin "b" bəndi aşağıdakı redaksiyada verilsin:

"b) inzibati vəzifələrdə çalışan dövlət qulluqçularına, vahid tarif-ixtisas sorğu kitabçalarına uyğun olaraq rəhbər və mütəxəssis kateqoriyasına aid edilən işçilərə;";

1.68.2. 6-cı hissə aşağıdakı redaksiyada verilsin:

"6.Əmək məzuniyyəti dövrünə təsadüf edən iş günü hesab olunmayan bayram günləri, ümumxalq hüzn günü və səsvermə günü məzuniyyət günləri hesab edilmir və ödənilmir, lakin məzuniyyətin müddəti bu günlərin sayı qədər uzadılır. Bu halda, Qurban və Ramazan bayramları iş günü hesab olunmayan başqa bayram günü ilə üst-üstə düşdükdə və bu hal əmək məzuniyyəti dövrünə təsadüf etdikdə üst-üstə düşən günlər bir gün hesabı ilə nəzərə alınır.";

1.69. 117-ci maddənin 1-ci hissəsində "yaşda" sözü "yaşadək" sözü ilə ", həmçinin" sözü "və ya" sözləri ilə əvəz edilsin;

1.70. 120-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 120. Xüsusi xidmətləri olan işçilərin əmək məzuniyyətinin müddəti**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə, 1990-cı ilin 20 Yanvar hadisələri ilə, hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə və ya Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar səbəblərdən əlilliyi olan işçilərə, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış işçilərə, döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi qulluqçu olmuş işçilərə, Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda xəsarət (yaralanma, travma, kontuziya) almış işçilərə, Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanlarına, Azərbaycanın Milli Qəhrəmanlarına, Sovet İttifaqı Qəhrəmanlarına, Azərbaycan Respublikasının ən yüksək təltifi ilə, İstiqlal ordeni ilə, habelə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün müdafiəsi ilə bağlı digər dövlət təltifləri ilə təltif olunmuş işçilərə məzuniyyət 46 təqvim günündən az olmayaraq verilir.";

1.71. 122-ci maddə üzrə:

1.71.1. 1-ci hissədən ", həmçinin müəlliflərə dərsliklər və ya dərs vəsaiti yazmaq" sözləri çıxarılsın və həmin hissədə "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

1.71.2. 4-cü hissəyə "işçilərə" sözündən sonra "işəgötürənlə razılaşdırılmaqla" sözləri, "orqanının" sözündən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin və həmin hissədə "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

1.71.3. 6-cı hissə aşağıdakı redaksiyada verilsin:

"6. Yaradıcılıq məzuniyyəti müddətində işçiyə bu Məcəllənin 177-ci maddəsində nəzərdə tutulmuş qaydada müəyyən edilən orta əməkhaqqı ödənilir.";

1.72. 124-cü maddənin 8-ci hissəsində "oluna bilər" sözləri "olunur" sözü ilə əvəz edilsin;

1.73. 125-ci maddəyə aşağıdakı məzmunda 3-cü və 4-cü hissələr əlavə edilsin:

"3. Hamiləliyə və doğuşa görə məzuniyyətin doğuşdan əvvəlki hissəsinin müddəti doğuş gözlənilən gündən uşağın doğulduğu günədək ötən günlər qədər ödənişli olaraq uzadılır və bu halda məzuniyyətin doğuşdan sonrakı hissəsi qısaldılmır.

4. Uşağının doğulması ilə əlaqədar kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuşdan əvvəl və doğuşdan sonra olan dövrdə cəmi 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilir.";

1.74. 126-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"1. İki aylığadək yaşında uşağı övladlığa götürən qadınlar doğuşdan sonra müəyyən edilmiş 56 günlük ödənişli sosial məzuniyyətdən istifadə etmək hüququna malikdirlər.

2. Uşağı övladlığa götürən qadınlar bu Məcəllənin 117-ci maddəsi ilə müəyyən edilmiş əlavə və 127-ci maddəsində nəzərdə tutulmuş qismən ödənişli məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər.";

1.75. 130-cu maddə üzrə:

1.75.1. "b" və "x" bəndləri ləğv edilsin;

1.75.2. "ə" bəndində "valideynlərə" sözü "işçilərə" sözü ilə əvəz edilsin;

1.75.3. "ğ" bəndində "müəssisədən" sözü "iş yerindən" sözləri ilə əvəz edilsin;

1.75.4. "i" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda "j" və "k" bəndləri əlavə edilsin:

"j) əsas iş yerində ezamiyyətə gedən işçiyə - əlavə iş yerində əsas iş yeri üzrə ezamiyyə müddətində;

k) əlavə iş yerində ezamiyyətə gedən işçiyə - əsas iş yerində əlavə iş yeri üzrə ezamiyyə müddətində.";

1.76. 131-ci maddə üzrə:

1.76.1. 2-ci və 3-cü hissələrdə "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

1.76.2. 5-ci hissədə ", bir qayda olaraq, məktəblərdə yay tətili dövründə" sözləri "məktəblərdə yay tətili dövründə və ya işəgötürənin razılığı ilə tədris ili ərzində" sözləri ilə əvəz edilsin;

1.77. 132-ci maddə üzrə:

1.77.1. adında "Məzuniyyət" sözü "Əmək məzuniyyəti" sözləri ilə əvəz edilsin;

1.77.2. 2-ci hissədə ikinci halda "məzuniyyət" sözü "əmək məzuniyyəti" sözləri ilə əvəz edilsin;

1.78. 133-cü maddə üzrə:

1.78.1. 3-cü hissə üzrə:

1.78.1.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"3. Aşağıdakı işçilərə əmək məzuniyyəti onların arzusu ilə onlar üçün əlverişli vaxtda verilir:";

1.78.1.2. onuncu abzasdan "Azərbaycan xalqı qarşısında" sözləri çıxarılsın və həmin abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin;

1.78.1.3. aşağıdakı məzmunda on birinci və on ikinci abzaslar əlavə edilsin:

"əsas iş yerində məzuniyyətə çıxan əlavə iş yeri üzrə işləyən işçilərə;

əlavə iş yerində məzuniyyətə çıxan əsas iş yeri üzrə işləyən işçilərə.";

1.78.2. 4-cü hissədə "Müəssisədə işlədiyi" sözləri "İşlədiyi" sözü ilə əvəz edilsin;

1.79. 136-cı maddənin 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. İşçinin eyni vaxtda bu Məcəllənin 115-ci və 116-cı maddələrində nəzərdə tutulmuş əlavə məzuniyyət hüququ olduqda, hər iki maddənin hər biri üzrə əldə etdiyi əlavə məzuniyyət onun əsas məzuniyyətinə birləşdirilir.";

1.80. 137-ci maddənin 4-cü hissəsində "keçirilə bilər" sözləri "keçirilir" sözü ilə əvəz edilsin;

1.81. 138-ci maddə üzrə:

1.81.1. 1-ci hissənin birinci cümləsində "Bütün" sözü "Bu maddənin 2-1-ci hissəsində müəyyən edilmiş hal istisna olmaqla, bütün" sözləri ilə əvəz edilsin;

1.81.2. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. İşəgötürənin yazılı (kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə) xəbərdarlığından sonra işçi əmək məzuniyyətinin növbəlilik cədvəlinə və əmək məzuniyyətinin başqa vaxta keçirilməsi şərtləri və qaydasına riayət etməyərək əmək məzuniyyətindən istifadə etmək (tam, yaxud bir hissəsindən) üçün işəgötürənə ərizə ilə müraciət etmədikdə işəgötürənin əmri (sərəncamı, qərarı) ilə müvafiq iş ilinin əmək məzuniyyətinə göndərilir.";

1.82. 140-cı maddə üzrə:

1.82.1. 1-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məzuniyyət vaxtı üçün orta əməkhaqqı hesablanarkən qismən ödənişli sosial məzuniyyətdə və ya işçinin təşəbbüsü ilə olmayan ödənişsiz məzuniyyətdə olması, eləcə də işçinin təqsiri olmadan boşdayanma səbəblərindən işlənilməyən və ya tam işlənilməyən aylar yaxın tam işlənilən təqvim ayları ilə əvəz olunur.";

1.82.2. 2-ci hissədə "işləyib" sözü "əmək münasibətində olub" sözləri ilə, "faktik" sözü "faktiki" sözü ilə əvəz edilsin;

1.82.3. 4-cü hissədə "pul əvəzi" sözləri "kompensasiya" sözü ilə əvəz edilsin;

1.82.4. 5-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Əmək müqavilələrində və ya kollektiv müqavilədə, məzuniyyətə çıxan işçilər üçün növbəti əməkhaqqı (avans və ya qalan hissəsi) verilən gündən gec olmayaraq, məzuniyyət vaxtı üçün orta əməkhaqqının verilməsinin başqa müddətləri müəyyən edilə bilər.";

1.83. 141-ci maddənin 1-ci hissəsində "olmayan müəssisədə" sözləri "olmadıqda" sözü ilə əvəz edilsin və həmin hissəyə "müəssisənin" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin" sözləri əlavə edilsin;

1.84. 143-cü maddənin 2-ci hissəsində "pul əvəzi" sözləri "kompensasiya" sözü ilə əvəz edilsin;

1.85. 144-cü maddə üzrə:

1.85.1. adında "pul əvəzinin" sözləri "kompensasiyanın" sözü ilə əvəz edilsin;

1.85.2. 2-ci hissədə "pul əvəzi" sözləri "kompensasiya" sözü ilə əvəz edilsin;

1.85.3. 3-cü hissədə "115 və 116-cı" sözləri "115-117-ci və 118-1-ci" sözləri ilə, "pul əvəzi" sözləri "kompensasiya" sözü ilə əvəz edilsin;

1.86. 146-cı maddənin adında "Müəssisədə işin" sözləri "İşin" sözü ilə əvəz edilsin;

1.87. 148-ci maddənin 5-ci hissəsində "ümumölkə (ölkə)" sözləri "ümumrespublika (respublika)" sözləri ilə əvəz edilsin;

1.88. 150-ci maddənin 3-cü hissəsinin birinci cümləsində "müəssisənin" sözü "müəssisədə və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində fəaliyyət göstərən" sözləri ilə əvəz edilsin;

1.89. 155-ci maddənin 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Minimum əməkhaqqı - "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ixtisassız əməyə və xidmətə görə aylıq əməkhaqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativdir.";

1.90. 156-cı maddə üzrə:

1.90.1. 2-ci hissədə "tarif-ixtisas sorğu kitabçalarına" sözləri "müvafiq Vahid Tarif-İxtisas Sorğu Kitabçasına" sözləri ilə əvəz edilsin;

1.90.2. 6-cı hissədə "edilə bilər" sözləri "edilir" sözü ilə əvəz edilsin;

1.91. 164-cü maddənin 1-ci hissəsinin ikinci və dördüncü (hər iki halda) abzaslarına "gündəlik" sözündən sonra "(saatlıq)" sözü əlavə edilsin;

1.92. 171-ci maddənin mətninə "görə" sözündən sonra ", eləcə də tərəflərin razılığı ilə tam məbləğdə" sözləri əlavə edilsin;

1.93. 172-ci maddənin 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Əməkhaqqı işçilərə ayda bir dəfədən az olmayaraq verilməlidir. Tərəflərin qarşılıqlı razılığı ilə aylıq əməkhaqqı iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) on altı gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə verilə bilər.";

1.94. 173-cü maddə üzrə:

1.94.1. 3-cü hissədə "hər dəfə əməkhaqqı verilərkən işçiyə" sözləri "əməkhaqqı verilərkən işçinin tələbi ilə ona" sözləri ilə əvəz edilsin;

1.94.2. 4-cü hissənin üçüncü cümləsində "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

1.95. 174-cü maddə üzrə:

1.95.1. 1-ci hissə ləğv edilsin;

1.95.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Əməkhaqqı nağdsız verildikdə işçinin bank hesabına ödəniş alətləri vasitəsilə köçürülür. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.4.4-cü maddəsinə əsasən əməkhaqqı nağd ödənildiyi halda iş yerində verilir və ya işçinin istəyi ilə göndərilmə və ya köçürülmə xərci işçidən tutulmaqla müvafiq ünvana göndərilir və ya bank hesabına köçürülür.";

1.95.3. 3-cü hissəyə "müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

1.96. 175-ci maddə üzrə:

1.96.1. 1-ci hissədə "tutula bilər" sözləri "tutulur" sözü ilə əvəz edilsin;

1.96.2. 2-ci hissənin "g" bəndində "müəssisənin" sözü "müəssisədə və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində fəaliyyət göstərən" sözləri ilə əvəz edilsin;

1.97. 176-cı maddənin 3-cü hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Belə hallarda tutulmaların məbləği işçiyə verilməli olan əməkhaqqının 70 faizindən çox ola bilməz.";

1.98. 177-ci maddə üzrə:

1.98.1. 3-cü hissədən "aylıq" sözü çıxarılsın;

1.98.2. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1.Bu maddənin 2-ci və 3-cü hissələrində göstərilən hallarda hesablanmış bir günlük əməkhaqqı qismən ödənişli sosial məzuniyyətdə və işəgötürənin təşəbbüsü ilə ödənişsiz məzuniyyətdə olması, eləcə də işçinin təqsiri olmadan boşdayanma səbəblərindən işçinin sonuncu bir günlük əmək haqqından az olduğu halda sonuncu bir günlük əməkhaqqı tətbiq edilir.";

1.98.3. 5-ci hissədə "123" rəqəmləri "122, 123-cü maddələrində, 125-ci maddəsinin 4-cü hissəsində" sözləri ilə əvəz edilsin;

1.99. 178-ci maddə üzrə:

1.99.1. 2-ci hissə üzrə:

1.99.1.1. birinci cümləyə "edildiyi" və "dayandırıldığı" sözlərindən sonra ", fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verildiyi" sözləri əlavə edilsin və həmin cümlədə "pul əvəzi" sözləri "kompensasiya" sözü ilə əvəz edilsin;

1.99.1.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Müəssisənin və ya fiziki şəxs olan işəgötürənin müflisləşməsi nəticəsində iflasa uğradığı hallarda isə həmin ödənclər "Müflisləşmə və iflas haqqında"Azərbaycan Respublikasının Qanunu, banklar və sığorta təşkilatlarına münasibətdə "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş növbəliliyə uyğun olaraq ödənilir.";

1.99.2. 3-cü hissədə "satılmaqla" sözü ", fiziki şəxs olan işəgötürənə münasibətdə onun sahibkarlıq və ya qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlı mülkiyyətində olan əsas vəsaitlər hesabına" sözləri ilə əvəz edilsin;

1.100. 179-cu maddə üzrə:

1.100.1. 1-ci hissə ləğv edilsin;

1.100.2. 2-ci hissə üzrə:

1.100.2.1. "d" bəndindən "hakimiyyəti" sözü çıxarılsın;

1.100.2.2. "g" bəndində "və xüsusi toplanışlarda və səlahiyyətləri daxilində hərbi komissarlıqların cəlb etdiyi digər hərbi tədbirlərdə" sözləri "təlim, yoxlama, xüsusi toplanışlarda və fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) cəlb etdiyi digər tədbirlərdə (hərbi qeydiyyat, xüsusi hərbi ixtisaslar üzrə hazırlıq, çağırışçıların tibbi müayinəsi, hərbi vəziyyət rejiminin təmin edilməsinə yönəldilmiş tədbirlər və s.)" sözləri ilə əvəz edilsin;

1.100.2.3. "I" bəndində "qanunvericilikdə" sözü "qanunda" sözü ilə əvəz edilsin;

1.101. 180-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 180. İşçinin müəssisənin mənfəətindən pay almaq hüququ**

Kollektiv müqavilədə və ya əmək müqaviləsində nəzərdə tutulduğu halda işçilər səhmdar cəmiyyətlərin və ya məhdud məsuliyyətli cəmiyyətlərin nizamnamələrində nəzərdə tutulan qaydada və məbləğdə illik maliyyə hesabatlarının nəticələrinə görə müəyyən edilən mənfəətdən pay almaq hüququna malikdirlər.";

1.102. 182-ci maddə üzrə:

1.102.1. adında "Müəssisədaxili" sözü "Daxili" sözü ilə əvəz edilsin;

1.102.2. 1-ci hissədə "Müəssisələrdə" sözü "İşəgötürən" sözü ilə, "müəssisədaxili" sözü "daxili" sözü ilə, "edilə" sözü "edə" sözü ilə əvəz edilsin;

1.102.3. 2-ci hissədə "müəssisədaxili" sözü "daxili" sözü ilə, "icra" sözü "idarəetmə" sözü ilə əvəz edilsin;

1.102.4. 3-cü hissə üzrə:

1.102.4.1. birinci cümlədə "Müəssisədaxili" sözü "Daxili" sözü ilə əvəz edilsin;

1.102.4.2. ikinci cümlədə "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.103. 183-cü maddə üzrə:

1.103.1. adında "Müəssisədaxili" sözü "Daxili" sözü ilə əvəz edilsin;

1.103.2. 1-ci hissə üzrə:

1.103.2.1. birinci abzasda "Müəssisədaxili" sözü "Daxili" sözü ilə əvəz edilsin və həmin abzasdan ", bir qayda olaraq," sözləri çıxarılsın;

1.103.2.2. "a" bəndindən "təşkilati-hüquqi forması," sözləri çıxarılsın və həmin bəndə "ünvanı" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin soyadı, adı və atasının adı, fəaliyyət növü, ünvanı" sözləri əlavə edilsin;

1.103.2.3. "e" bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda "ə" bəndi əlavə edilsin:

"ə) bu Məcəllənin 2-ci maddəsinin 3-cü hissəsi ilə müəyyən edilmiş işçinin və işəgötürənin hüquqlarının təminatı prinsiplərinə zidd olmayan digər şərtlər və qaydalar.";

1.103.3. 2-ci hissədə "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.104. 185-ci maddənin 1-ci hissəsində "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.105. 186-cı maddə üzrə:

1.105.1. 1-ci hissədə "qanunvericilikdə" sözü "qanunda" sözü ilə əvəz edilsin;

1.105.2. 2-ci hissə üzrə:

1.105.2.1. birinci abzasda "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.105.2.2. "ç" bəndində "müqaviləsini" sözü "müqaviləsinə" sözü ilə, "ləğv etmək" sözləri "xitam vermək" sözləri ilə əvəz edilsin;

1.105.3. 4-cü hissə üzrə:

1.105.3.1. birinci cümlədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.105.3.2. ikinci cümlədə "qanunvericiliklə" sözü "qanunda" sözü ilə əvəz edilsin;

1.106. 187-ci maddə üzrə:

1.106.1. 2-ci hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"İşçinin əmək qabiliyyətini müvəqqəti itirdiyi, yaxud məzuniyyətdə olduğu vaxt, habelə bu Məcəllənin 179-cu maddəsində nəzərdə tutulan hallarda iş yeri və orta əməkhaqqının saxlanıldığı dövrlər həmin müddətə daxil edilmir.";

1.106.2. 3-cü hissənin ikinci cümləsinə "Müəssisənin" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin" sözləri əlavə edilsin;

1.107. 188-ci maddənin 3-cü hissəsi üzrə:

1.107.1. birinci cümlədə "savayı başqa" sözləri "başqa digər" sözləri ilə əvəz edilsin;

1.107.2. ikinci cümləyə "əmri" sözündən sonra "(sərəncamı, qərarı)" sözləri əlavə edilsin və həmin cümlədə "əmr" sözü "yararsız (əhəmiyyətsiz) əmr (sərəncam, qərar)" sözləri ilə əvəz edilsin;

1.108. 189-cu maddə üzrə:

1.108.1. 2-ci hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Məzuniyyətdə olduğu, əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə bu Məcəllənin 179-cu maddəsində nəzərdə tutulan hallarda iş yerində olmadığı müddətdə işçiyə intizam tənbehi verilə bilməz.";

1.108.2. 3-cü hissənin ikinci cümləsinə "əmrin" sözündən sonra "(sərəncamın, qərarın)" sözləri əlavə edilsin;

1.109. 190-cı maddə üzrə:

1.109.1. 1-ci hissəyə "tənbehi" sözündən sonra "(bu Məcəllənin 186-cı maddəsinin 2-ci hissəsinin "ç" bəndinə əsasən verilən intizam tənbehi istisna olmaqla)" sözləri əlavə edilsin;

*Ardı 4-cü səh.*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 3-cü səh.*

1.109.2. 2-ci və 4-cü hissələrdə "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin;

1.109.3. 195-ci maddənin "ə" bəndində "müqaviləsi ləğv edildikdən" sözləri "müqaviləsinə xitam verildikdən" sözləri ilə əvəz edilsin;

1.110. 196-cı maddə üzrə:

1.110.1. 1-ci hissəyə "müəssisənin" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin" sözləri əlavə edilsin və həmin hissədə "hökmü (qətnaməsi, qərarı)" sözləri "qərarı (hökmü, qətnaməsi)" sözləri ilə əvəz edilsin;

1.110.2. 4-cü hissədə "müəssisəyə" sözü "iş yerinə" sözləri ilə əvəz edilsin;

1.111. 199-cu maddənin "e" bəndi aşağıdakı redaksiyada verilsin:

"e)dövlət, kommersiya və (və ya) vergi sirrini yaydıqda;";

1.112. 200-cü maddənin 5-ci hissəsinə və 205-ci maddənin 1-ci hissəsinə "orta" sözündən sonra "aylıq" sözü əlavə edilsin;

1.113. 206-cı maddənin 2-ci hissəsində "işi başlayaraq qanunvericiliklə müəyyən olunmuş qaydada istintaqın aparılmasının" sözləri "işinin başlanılması" sözləri ilə əvəz edilsin;

1.114. 208-ci maddənin birinci hissəsi üzrə:

1.114.1. birinci abzasda "hökmən" sözü "mütləq" sözü ilə əvəz edilsin;

1.114.2. dördüncü abzasdan "müəssisələrdə" sözü çıxarılsın;

1.114.3. altıncı abzasa "şəxslərin" sözündən sonra ", eləcə də inzibati tənbeh və ya cəza növü kimi ictimai işləri yerinə yetirən şəxslərin" sözləri əlavə edilsin;

1.115. 209-cu maddənin birinci hissəsi üzrə:

1.115.1. birinci və ikinci abzaslardan "hakimiyyəti" sözü çıxarılsın;

1.115.2. üçüncü abzasda "istehsal" sözü "və ya fiziki şəxs olan işəgötürənin" sözləri ilə əvəz edilsin;

1.115.3. beşinci abzasdan "mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq" sözləri çıxarılsın və həmin abzasa "müəssisələr" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənlər" sözləri əlavə edilsin;

1.115.4. altıncı abzasda "müəssisələrdə" sözü "iş yerlərində" sözləri ilə əvəz edilsin;

1.115.5. səkkizinci abzasda "müəssisələrdə" sözü "iş yerlərində" sözləri ilə, "vergi siyasətinin" sözləri "iqtisadi və sosial siyasətin" sözləri ilə əvəz edilsin;

1.115.6. on beşinci abzasda ", müəssisələrin və ayrı-ayrı fiziki, hüquqi şəxslərin" sözləri "və işəgötürənlərin" sözləri ilə əvəz edilsin;

1.116. 210-cu maddənin ikinci cümləsindən "hakimiyyəti" sözü çıxarılsın;

1.117. 212-ci maddənin 2-ci hissəsi üzrə:

1.117.1. dördüncü abzasda "istehsalı sahəsində müəssisələrə dövlət sifarişini müəyyən edir" sözləri "istehsalının təşkili" sözləri ilə əvəz edilsin;

1.117.2. beşinci abzasa "əlaqələndirir," sözündən sonra "qüvvədə olan standartları, normaları və qaydaları rəsmi internet saytında yerləşdirir," sözləri əlavə edilsin;

1.118. 213-cü maddə üzrə:

1.118.1. adında "icra hakimiyyəti orqanlarının" sözləri "dövlət orqanlarının (qurumlarının), dövlətin adından yaradılan publik hüquqi şəxslərin və dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin;

1.118.2. birinci abzasda "habelə dövlət konsernləri, şirkətləri, assosiasiyaları və müəssisələrin birlikləri öz səlahiyyətləri daxilində" sözləri "dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

1.119. 218-ci maddənin 7-ci hissəsinin birinci cümləsində "müəssisələrin işi və ya istehsal vasitələrinin istismarı" sözləri "fiziki şəxs olan işəgötürənlərin, müəssisələrin və (və ya) onların struktur bölmələrinin, avadanlıq və qurğuların işi" sözləri ilə əvəz edilsin;

1.120. 219-cu maddə üzrə:

1.120.1. 3-cü hissəyə "İşəgötürənlər" sözündən sonra ", o cümlədən fiziki şəxs olan işəgötürənlərin" sözləri əlavə edilsin;

1.120.2. 5-ci hissənin ikinci cümləsi çıxarılsın;

1.120.3. aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Zərərli, ağır istehsalatlardakı iş yerlərində, peşələrdə (vəzifələrdə) və yüksək təhlükə mənbəyi olan maşın, mexanizm və avadanlıqlarda işləyən işçilər əmək şəraitinin xüsusiyyətlərindən asılı olaraq 3 ayda bir dəfədən, digər iş yerlərində isə ildə bir dəfədən az olmayaraq əməyin mühafizəsi üzrə təlimatlandırılmalıdırlar. Əmək şəraitinin xüsusiyyətlərindən asılı olaraq işçilərin əməyin mühafizəsi üzrə təlimatlandırılması vaxtı kollektiv müqavilələrlə, kollektiv müqavilənin bağlanmadığıhallarda əmək müqaviləsi ilə və ya işəgötürənlə həmkarlar ittifaqları təşkilatı (əmək kollektivi) arasında razılaşmalarla müəyyən edilir. İşəgötürən bu təlimatlandırmaların qeydiyyatını elektron informasiya sistemi vasitəsilə, bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə xüsusi jurnallarda aparmalıdır.";

1.121. 220-ci maddə üzrə:

1.121.1. 1-ci hissəyə "müəssisənin" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin" sözləri əlavə edilsin və həmin hissədən "gəliri" sözü çıxarılsın;

1.121.2. 4-cü hissəyə "miqdarı" sözündən sonra "bilavasitə məhsul istehsal edən və istehsalat sahələri olan müəssisələr və fiziki şəxs olan işəgötürənlər üçün" sözləri, "faizindən" sözündən sonra ", digər müəssisələr və fiziki şəxs olan işəgötürənlər üçün isə bir faizindən" sözləri əlavə edilsin;

1.122. 221-ci maddənin 5-ci hissəsində "edilə bilər" sözləri "edilir" sözü ilə əvəz edilsin;

1.123. 223-cü maddə üzrə:

1.123.1. 1-ci hissədə "sahələrinin müəssisələrində" sözləri "sahələrində işəgötürənlər" sözləri ilə, "yaradılmalıdır" sözü "yaratmalıdırlar" sözü ilə əvəz edilsin;

1.123.2. 2-ci hissəyə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin;

"Fiziki şəxs olan işəgötürənlərin yaratdıqları, işçilərin sayı əlli nəfərdən çox olan iş yerlərində əməyin mühafizəsi üzrə mühəndis vəzifəsi təsis edilir.";

1.123.3. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Müəssisələrdə və fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində işçilərin sayı 50 nəfərdən az olduqda əməyin mühafizəsi işinin təşkili işçinin razılığı ilə və əmək müqaviləsinə müvafiq dəyişiklik edilməklə əməyin mühafizəsi üzrə biliyi olan işçilərdən birinin əmək funksiyasına daxil edilir, bu mümkün olmadıqda isə işəgötürən tərəfindən əməyin mühafizəsi üzrə mütəxəssis vəzifəsi təsis edilir.";

1.124. 224-cü maddənin 3-cü hissəsinin ikinci cümləsinə "orta" sözündən sonra "aylıq" sözü əlavə edilsin;

1.125. 229-cu maddənin mətnində "istər işəgötürənin, istərsə də başqa vəzifəli şəxslərin, habelə müəssisələrin və" sözləri "işəgötürənlərin, müəssisələrin və (və ya)" sözləri ilə əvəz edilsin;

1.126. 230-cu maddənin 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. İşçilərin təqsiri olmadan əməyin mühafizəsi qaydalarının pozulması nəticəsində iş yerlərində işin dayandırıldığı müddətdə işçilərin iş yeri, vəzifəsi (peşəsi) və orta əmək haqqı saxlanılır.";

1.127. 245-ci maddənin 1-ci hissəsinin birinci cümləsindən "işlənmiş vaxta mütənasib əmək haqqı ödənilən" sözləri çıxarılsın;

1.128. 255-ci maddə üzrə:

1.128.1. adında "müqaviləsinin ləğv edilməsində" sözləri "müqaviləsinə xitam verilməsində" sözləri ilə əvəz edilsin;

1.128.2. mətnində "müqaviləsi ləğv edilə" sözləri "müqaviləsinə xitam verilə" sözləri ilə əvəz edilsin;

1.129. 256-cı maddənin 3-cü hissəsinə "müəssisələrdə" sözündən sonra "və fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində" sözləri əlavə edilsin;

1.130. 257-ci maddə üzrə:

1.130.1. adında "müəssisələrində" sözü "sahəsində" sözü ilə əvəz edilsin;

1.130.2. 1-ci hissə üzrə:

1.130.2.1. birinci cümlədə "müəssisələrində" sözü "sahəsində fəaliyyət göstərən müəssisələrdə və fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində" sözləri ilə, "nizamnamələri (əsasnamələri)" sözləri "iş vaxtının rejimi qaydaları" sözləri ilə əvəz edilsin;

1.130.2.2. ikinci cümlədə "müəssisələrdə" sözü "halda işəgötürənlər tərəfindən" sözləri ilə əvəz edilsin;

1.130.3. 2-ci hissənin birinci cümləsindən ", bir qayda olaraq," sözləri çıxarılsın;

1.131. 260-cı maddənin 2-ci hissəsində "müəssisələrin işəgötürənləri" sözləri "işəgötürənlər" sözü ilə əvəz edilsin;

1.132. 261-ci maddənin 2-ci hissəsində "Məcəllə ilə" sözləri "Məcəlləyə" sözü ilə, "aktlarla müəyyən edilmiş səlahiyyətləri daxilində" sözləri "aktlara uyğun olaraq" sözləri ilə əvəz edilsin;

1.133. 265-ci maddənin 5-ci hissəsində "Zəruri hallarda kollektiv" sözləri "Kollektiv" sözü əvəz edilsin;

1.134. 267-ci maddənin 3-cü hissəsinin birinci cümləsinə "müəssisənin" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin" sözləri əlavə edilsin;

1.135. 269-cu maddənin 2-ci hissəsində "barışdırıcı" sözü "razılaşdırıcı" sözü ilə əvəz edilsin;

1.136. 270-ci maddənin 7-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"7. Kollektiv əmək mübahisəsinin yaranması və tətil keçirilməsi ilə əlaqədar işçilərin işdən çıxarılması, sayının azaldılması və ya ştatların ixtisarı, habelə kollektiv əmək mübahisəsinin yarandığı müəssisənin (filialın, nümayəndəliyin) ləğvi və ya yenidən təşkili, fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi qadağandır.";

1.137. 274-cü maddənin 4-cü hissəsinin dördüncü abzasına "müəssisənin" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin əmək münasibətləri ilə bağlı" sözləri əlavə edilsin;

1.138. 275-ci maddənin 3-cü hissəsində "müəssisələrdə" sözü "sahələrdə" sözü ilə əvəz edilsin və həmin hissəyə "aparılması" sözündən sonra "işəgötürənlər tərəfindən" sözləri əlavə edilsin;

1.139. 277-ci maddənin 1-ci hissəsində "müəssisənin" sözü "iş yerinin" sözləri ilə əvəz edilsin;

1.140. 278-ci maddə üzrə:

1.140.1. 1-ci hissəyə "müəssisələrin" sözündən sonra "və fiziki şəxs olan işəgötürənlərin" sözləri əlavə edilsin;

1.140.2. 3-cü hissədə "oluna bilər" sözləri "olunur" sözü ilə əvəz edilsin;

1.141. 284-cü maddə üzrə:

1.141.1. 1-ci hissənin birinci abzasından "müəssisəni bağlayacağı barədə" sözləri çıxarılsın;

1.141.2. 3-cü hissədə "müəssisəni müvəqqəti bağlaya" sözləri "müəssisənin fəaliyyətini, fiziki şəxs olan işəgötürən isə öz fəaliyyətini müvəqqəti dayandıra" sözləri ilə əvəz edilsin;

1.141.3. "Qeyd" hissəsinə "yetirilməsi" sözündən sonra "müəssisənin və ya fiziki şəxs olan" sözləri, "fəaliyyətinin" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürən tərəfindən özfəaliyyətinin" sözləri əlavə edilsin və həmin hissədə "onun" sözü "işəgötürən" sözü ilə əvəz edilsin;

1.142. 288-ci maddənin "a" bəndində "ləğv edilməsi" sözləri "ona xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.143. 291-ci maddənin adından "hakimiyyəti" sözü çıxarılsın;

1.144. 294-cü maddənin 2-ci hissəsinin birinci cümləsinə "müəssisələrdə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində fəaliyyət göstərən" sözləri əlavə edilsin;

1.145. 295-ci maddənin 5-ci hissəsində "müqaviləsini ləğv edə" sözləri "müqaviləsinə xitam verə" sözləri ilə əvəz edilsin;

1.146. 300-cü maddə üzrə:

1.146.1. adında "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.146.2. 1-ci hissənin birinci cümləsində "müqaviləsinin" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilməsi" sözləri "xitam verilməsi" sözləri ilə əvəz edilsin;

1.147. 305-ci maddənin mətnindən "müəssisənin" sözü çıxarılsın;

1.148. 307-ci maddənin 2-ci hissəsinə "müəssisələrdə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində" sözləri əlavə edilsin;

1.149. 308-ci maddədən "öz səlahiyyətləri daxilində" sözləri çıxarılsın;

1.150. 315-ci maddə üzrə:

1.150.1. 1-ci hissədə ", sərəncamları" sözü "(sərəncamları, qərarları)" sözləri ilə əvəz edilsin;

1.150.2. 2-ci hissədə"müqavilələri" sözü "müqavilələrinə" sözü ilə, "ləğv edilə" sözləri "xitam verilə" sözləri ilə əvəz edilsin;

1.151. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 1-ci əlavə - "Əmək müqaviləsinin (kontraktının) nümunəvi forması" üzrə:

1.151.1. 1.1-ci bəndə "dövlət" sözündən sonra "və ya bələdiyyə" sözləri əlavə edilsin;

1.151.2. 4.25-ci bənddən "işəgötürənlə rəqabətdə olmayan müəssisədə" sözləri çıxarılsın;

1.151.3. 7.6-cı bənddə "işəgötürənin kommersiya və istehsal" sözləri "dövlət, kommersiya və (və ya) vergi" sözləri ilə əvəz edilsin;

1.151.4. 9-cu hissə üzrə:

1.151.4.1. 9.1-ci bənddə "müqaviləsi" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilə" sözləri "xitam verilə" sözləri ilə əvəz edilsin;

1.151.4.2. 9.2-ci bənddə "müqaviləsi ləğv edilərkən" sözləri "müqaviləsinə xitam verilərkən" sözləri ilə əvəz edilsin;

1.151.4.3. 9.3-cü bənddə "müqaviləsi ləğv edilməzdən" sözləri "müqaviləsinə xitam verilməzdən" sözləri ilə əvəz edilsin;

1.151.4.4. 9.4-cü bənddə "müqaviləsini ləğv etməyə" sözləri "müqaviləsinə xitam verməyə" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1,№ 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 46.1-ci maddənin birinci cümləsinə "dövlət orqanlarında," sözlərindən sonra "dövlətin adından yaradılan publik hüquqi şəxslərdə, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və" sözləri əlavə edilsin;

2.2. 164-cü maddənin dispozisiyasında "onunla əmək müqaviləsini əsassız ləğv etmə" sözləri "onun əmək müqaviləsinə əsassız xitam vermə" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddə 432, maddə 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 102.1.4-cü maddəsində "hüquqi şəxsin, onun filialı və ya nümayəndəliyinin, habelə fərdi sahibkarın fəaliyyətinin ləğvi" sözləri "müəssisənin ləğv edilməsi və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15, № 4 (I kitab), maddə 322, № 8, maddə 743, № 11, maddə 1011) 35.1-ci maddəsində "müəssisədaxili" sözü "daxili" sözü ilə əvəz edilsin.

**Maddə 5.** "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 235; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci maddənin ikinci hissəsinin beşinci abzasına "habelə" sözündən sonra "hüquqi şəxs yaratmadan sahibkarlıq və ya qeyri-sahibkarlıq fəaliyyətini (xüsusi notarius, vəkillik və mediator fəaliyyətini) həyata keçirən vergi ödəyicisi olan" sözləri əlavə edilsin;

5.2. 11-ci maddənin ikinci hissəsinə "edilməsi," sözündən sonra "fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi," sözləri əlavə edilsin;

5.3. 13-cü maddədə "Əməyin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "Azərbaycan Respublikası Əmək Məcəlləsinin" sözləri ilə əvəz edilsin;

5.4. 20-ci maddə üzrə:

5.4.1. ikinci hissədə "Mülkiyyət formasından asılı olmayaraq işəgötürən" sözləri "İşəgötürən" sözü ilə, "idarə, müəssisə və təşkilatın" sözləri "müəssisədə və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində fəaliyyət göstərən" sözləri ilə əvəz edilsin;

5.4.2. beşinci hissədə "müqaviləsi ləğv edilərkən" sözləri "müqaviləsinə xitam verilərkən" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 348 (Cild I); 2024, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddə 630, № 11, maddə 1182, № 12 (II kitab), maddə 1348; 2025, № 2, maddə 96, № 4 (I kitab), maddələr 307, 322, № 8, maddə 743; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 15-ci maddəsinin birinci hissəsinin dördüncü abzasına "ləğvi" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi" sözləri əlavə edilsin.

**Maddə 7.** "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 405 (Cild I); 2024, № 4, maddə 370, № 12 (I kitab), maddə 1279; 2025, № 7, maddə 618) 19-cu maddəsinin 3-cü hissəsinin 4-cü bəndində "tam" sözü "davamlı" sözü ilə əvəz edilsin və həmin bəndə "bilmədikdə" sözündən sonra "və fərdi reabilitasiya proqramına uyğun olaraq iş yerinin uyğunlaşdırılması mümkün olmadıqda" sözləri əlavə edilsin.

**Maddə 8.** "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477 (Cild I); 2024, № 5 (I kitab), maddə 501, № 12 (II kitab), maddə 1336; 2025, № 4 (I kitab), maddələr 310, 322, № 6, maddə 523, № 11, maddə 1004) 8-ci maddəsinin altıncı hissəsində "iş yerlərinin" sözləri "işçilərin sayının azaldılması və ya ştatların" sözləri ilə, "həmin müəssisədə və ya digər müəssisədə işə düzəltmək" sözləri "işə düzəlməsi" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 484 (Cild I) 14-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsində "tam" sözü "davamlı" sözü ilə əvəz edilsin.

**Maddə 10.** "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 577 (Cild I) 16.4-cü maddəsində "müqaviləsinin ləğv edilməsi" sözləri "müqaviləsinə xitam verilməsi" sözləri ilə əvəz edilsin.

**Maddə 11.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231 (Cild I) 8.5-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

11.1. birinci cümlədə "müəssisənin ləğvi" sözlərindən sonra "və ya fiziki şəxs olan işəgötürənin vergi uçotundan çıxarılması halları" sözləri əlavə edilsin və həmin cümlədə "mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisələrdə" sözləri "əvvəlki" sözü ilə əvəz edilsin;

11.2. ikinci cümləyə hər iki halda "müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin.

**Maddə 12.** "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 12, maddə 974 (Cild l); 2024, № 4, maddə 365; 2025, № 7, maddə 611) 1.0.8-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"1.0.8. minimum əmək haqqı - ölkədə iqtisadi inkişafın tələbləri, məhsuldarlıq, orta aylıq əməkhaqqı, pul vahidinin alıcılıq qabiliyyəti, sosial müavinətlərin məbləği, əsas sosial demoqrafik qruplar üzrə yaşayış minimumu səviyyəsi, məşğulluq səviyyəsinin yüksəldilməsi və saxlanılması nəzərə alınmaqla işçilərin və onların ailələrinin tələbatına uyğun ixtisassız əməyə və xidmətə görə aylıq əmək haqqının ən aşağı səviyyəsini müəyyən edən sosial normativ;".

**Maddə 13.** "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1005 (Cild I); 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322) 3-cü maddəsinin mətninə "ləğv edilməsi" sözlərindən sonra ", fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi" sözləri əlavə edilsin.

**Maddə 14.** "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 920 (Cild I); 2025, № 1, maddə 17) 12-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 12. Əmək müqaviləsinə xitam verilməsi**

Seksual qısnamaya məruz qalmış işçinin əmək müqaviləsinə ərizəsində göstərdiyi gün xitam verilir.".

**Maddə 15.** "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514 (Cild I); 2024, № 8, maddə 934, № 12 (II kitab), maddə 1348) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 2.0.14-cü maddəyə "habelə" sözündən sonra "hüquqi şəxs yaratmadan sahibkarlıq və ya qeyri-sahibkarlıq fəaliyyətini (xüsusi notarius, vəkillik və mediator fəaliyyətini) həyata keçirən vergi ödəyicisi olan" sözləri əlavə edilsin;

15.2. 13-cü maddə üzrə:

15.2.1. 13.1.1-ci maddəyə "edildikdə," sözündən sonra "fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verildikdə," sözləri əlavə edilsin;

15.2.2. 13.1.6-cı maddəyə "müəssisədə" sözündən sonra "və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində" sözləri əlavə edilsin;

15.2.3. 13.3-cü maddədən "müəssisədə" sözü çıxarılsın.

**Maddə 16.** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386 (Cild I); 2024, № 5 (I kitab), maddələr 501, 503; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

16.1. 21.4-cü maddəyə "ləğv edilməsi" sözlərindən sonra "və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi" sözləri əlavə edilsin və həmin maddədə "müqaviləsinin" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilməsinə" sözləri "xitam verilməsinə" sözləri ilə əvəz edilsin;

16.2. 24-cü maddə üzrə:

16.2.1. 24.3-cü maddə ləğv edilsin;

16.2.2. 24.4-cü maddəyə "ləğv edilməsi" sözlərindən sonra "və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi" sözləri əlavə edilsin, həmin maddədə"müqaviləsinin" sözü "müqaviləsinə" sözü ilə, "ləğv edilməsi" sözləri "xitam verilməsi" sözləri ilə əvəz edilsin.

**Maddə 17.** "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669 (Cild I); 2024, № 7, maddə 762, № 8, maddə 934; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322) aşağıdakı dəyişikliklər edilsin:

17.1. 1.1.19-cu maddəyə "olunması," sözündən sonra "fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi," sözləri əlavə edilsin;

17.2. 17.2-ci maddəyə birinci halda "edilməsi" sözündən sonra ", fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi" sözləri əlavə edilsin;

**Maddə 18.** "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820 (Cild I); 2024, № 12 (I kitab), maddə 1281) 17.1.5-ci maddəsində "tam" sözü "davamlı" sözü ilə əvəz edilsin və həmin maddəyə "bilmədikdə" sözündən sonra "və fərdi reabilitasiya proqramına uyğun olaraq iş yerinin uyğunlaşdırılması mümkün olmadıqda" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 901 (Cild I); 2025, № 1, maddə 10, № 5, maddə 431) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 4-1-ci maddə əlavə edilsin:

**"Maddə 4-1. Enerji effektivliyi informasiya sistemi**

4-1.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) enerji effektivliyi informasiya sistemi vasitəsilə enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarəti, enerji auditorlarının və enerji auditi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət, informasiya təminatı və maarifləndirmə, effektivlik potensialının qiymətləndirilməsi, binaların enerji effektivliyi üzrə pasportlaşdırılmasının təşkili, habelə məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının siyahısının, enerji effektivliyi üzrə xidmətlərin icraçılarının siyahısının və enerji effektivliyi üzrə xidmətlərin mövcud vəziyyətinə və inkişafına dair hesabatın yerləşdirilməsi təmin edilir.

4-1.2. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş əldə olunması məhdudlaşdırılan informasiya istisna olmaqla, bu Qanunun 4-1.1-ci maddəsində nəzərdə tutulan informasiya sisteminə daxil edilən məlumatlar ictimaiyyət üçün açıqdır və "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət sirri haqqında", "Fərdi məlumatlar haqqında" və "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla mühafizə və istifadə olunur.".

2. 6.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"6.3. Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektlərinin və qeyri-yaşayış binalarının siyahısı enerji effektivliyi informasiya sisteminə daxil edilən enerji istehlakçısına və illik enerji istehlakına dair məlumatlar (enerji istehlakçısı hüquqi şəxs olduqda adı, fiziki şəxs olduqda soyadı, adı, atasının adı, istehlakçı kodu, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı, fəaliyyət sahəsi, illik enerji istehlakının miqdarı) və ya tikinti sahəsinə və onun mülkiyyətçisinə dair məlumatlar (qeyri-yaşayış binasının təyinatı, mərtəbələrin sayı, tikinti sahəsinin və ümumi sahəsinin ölçüləri, mülkiyyətçisi hüquqi şəxs olduqda adı, fiziki şəxs olduqda soyadı, adı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, ünvanı), habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi meyarlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.".

3. 17.1.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 17.1.5-ci maddə əlavə edilsin:

"17.1.5. enerji effektivliyi informasiya sisteminin əsasnaməsini.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2025-ci il*

# "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 11-ci, 13-cü, 15-ci, 24-cü, 25-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, №11, maddə 1009; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 164.1.56-cı və 164.1.56-1-ci maddələrinə "ərazilərin" sözündən əvvəl "təhlükəli" sözü əlavə edilsin və həmin maddələrdə "partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497 (Cild I); 2024, № 6 (I kitab), maddələr 631, 639, № 12 (II kitab), maddələr 1332, 1350; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322, № 7, maddə 608) aşağıdakı məzmunda 19-1-ci maddə əlavə edilsin:

**"Maddə 19-1. Əhalinin sağlamlığının qorunması sahəsində minatəmizləmə fəaliyyəti ilə əlaqədar zərərçəkmişlərin hüquqları**

"Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zərərçəkmişlər dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımla dövlət büdcəsinin vəsaiti hesabına ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfində nəzərdə tutulduğu halda isə icbari tibbi sığorta vəsaitləri hesabına) təmin olunurlar.".

**Maddə 3.** "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365 (Cild I); 2024, № 5 (I kitab), maddə 499; 2025, № 6, maddə 530) 13-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında "və digər təsərrüfat işləri" sözləri ", təsərrüfat və digər işlər" sözləri ilə əvəz edilsin;

3.2. birinci hissə üzrə:

3.2.1. birinci cümlədə "və digər təsərrüfat işləri görülərkən" sözləri ", təsərrüfat və digər işlər görülərkən, o cümlədən minatəmizləmə fəaliyyəti həyata keçirilərkən" sözləri ilə əvəz edilsin;

3.2.2. ikinci cümlədə "və digər təsərrüfat işləri" sözləri ", təsərrüfat və digər işlər, o cümlədən minatəmizləmə fəaliyyəti" sözləri ilə əvəz edilsin;

3.3. ikinci hissə üzrə:

3.3.1. birinci cümlədə "və digər təsərrüfat işləri" sözləri ", təsərrüfat və digər işlər, o cümlədən minatəmizləmə fəaliyyəti" sözləri ilə əvəz edilsin;

3.3.2. ikinci cümləyə "işlər" sözündən sonra ", o cümlədən minatəmizləmə fəaliyyəti" sözləri əlavə edilsin;

3.4. üçüncü hissəyə hər iki halda "təmir" sözündən sonra ", minatəmizləmə fəaliyyəti" sözləri əlavə edilsin.

**Maddə4.** "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 470 (Cild I); 2024, № 4, maddə 365, № 11, maddə 1181, № 12 (II kitab), maddə 1331) 13-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci hissə üzrə:

4.1.1. birinci abzasda "qanunvericilik" sözü "normativ hüquqi" sözləri ilə əvəz edilsin;

4.1.2. yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"heyvanlardan minatəmizləmə fəaliyyətində partlayıcı sursatların aşkarlanması məqsədilə standart əməliyyat prosedurlarına uyğun istifadə edilməsi.";

4.2. ikinci hissədə "qanunvericiliyi" sözü "normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779 (Cild I); 2024, № 4, maddə 365, № 6 (I kitab), maddə 630, № 8, maddə 933, № 12 (II kitab), maddə 1349; 2025, №11, maddə 1009; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli Qanunu) 20.0.21-ci maddəsinə "ərazilərin" sözündən əvvəl "təhlükəli" sözü əlavə edilsin, həmin maddədə "partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan" sözləri "digər partlayıcı sursatlardan" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 7 (Cild I) 6.2.12-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.2.13-cü maddə əlavə edilsin:

"6.2.13. "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zərərçəkmişlərin.".

**Maddə 7.** "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə1175 (Cild I); 2025, № 6, maddə 522; Azərbaycan Respublikasının 2025-ci il 16 dekabr tarixli 313-VIIQD nömrəli Qanunu) 2.3-cü maddəsinə "uçotu," sözündən sonra "minatəmizləmə fəaliyyəti," sözləri əlavə edilsin.

**Maddə 8.** "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 562 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 4.2.3-cü maddədə "və şəhərsalma" sözləri ", şəhərsalma və minatəmizləmə" sözləri ilə əvəz edilsin;

8.2. 7-ci maddə üzrə:

8.2.1. adında "və şəhərsalma" sözləri ", şəhərsalma və minatəmizləmə" sözləri ilə əvəz edilsin;

8.2.2. 7.4-cü və 7.5-ci maddələrə "təmir" sözündən sonra ", minatəmizləmə fəaliyyəti" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəliQanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 4-1.1-ci və 6.3-cü (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6.3-cü maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4-1.1-ci və 6.3-cü (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 4-1.1-ci maddəsində nəzərdə tutulan enerji effektivliyi informasiya sisteminin (bundan sonra - Sistem) sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Energetika Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17.1.5-ci maddəsinə uyğun olaraq, enerji effektivliyi informasiya sisteminin əsasnaməsini altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Energetika Nazirliyi:

3.1. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikası Qanununun 4-1.1-ci maddəsinə uyğun olaraq, Sistemin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

3.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Sistemin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Sistemin "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

3.3. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 322-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 2.1-ci bəndi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

5. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 925 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə "2.1.13-cü," sözlərindən sonra "4-1.1-ci," sözləri əlavə edilsin;

5.2. 2.4-cü bəndə "tələblərinə" sözündən sonra ", enerji effektivliyi informasiya sisteminin əsasnaməsinə" sözləri əlavə edilsin;

5.3. 2.5-ci bəndə "Qanunun" sözündən sonra "4-1.1-ci," sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2215 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 940 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 dekabr tarixli 571 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3-cü bəndə "tərəfindən" sözündən sonra "enerji effektivliyi informasiya sistemi (bundan sonra - Sistem) vasitəsilə" sözləri əlavə edilsin;

6.2. 2.5-ci bənddə "rəsmi internet səhifəsində" sözləri "Sistemdə" sözü ilə əvəz edilsin;

6.3. 3-cü hissə üzrə:

6.3.1. 3.2-ci bənddə "təqdim etdikləri" sözləri "Sistemə daxil etdikləri" sözləri ilə əvəz edilsin;

6.3.2. 3.3.1-ci yarımbənddə "təqdim etdiyi" sözləri "Sistemə daxil etdiyi" sözləri ilə əvəz edilsin;

6.3.3. 3.5-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"3.5. Forması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi barədə hesabatı aşağıdakı nəzarət subyektləri hər hesabat ili üçün növbəti il yanvarın 31-dək Sistemə daxil edirlər:";

6.4. 4-cü hissə üzrə:

6.4.1. 4.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4.3. Nəzarət tədbirlərinin nəticələri barədə akt, həmin tədbirlərin bitmə tarixindən gec olmayaraq, Nazirlik tərəfindən 2 (iki) nüsxədə tərtib edilməli və 1 (bir) nüsxəsi barəsində akt tərtib edilmiş nəzarət subyektinə yerində təqdim olunmalı və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilməlidir. Tərtib edildiyi tarixdən 2 (iki) iş günü müddətində aktın surəti həmin nəzarət subyektinin Sistemdəki şəxsi kabinetində yerləşdirilməlidir.";

6.4.2. 4.4-cü bəndə "ehtiyatında," sözündən sonra "Sistemdə," sözü əlavə edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 mart tarixli 13 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 3, maddə 253; 2025, № 1, maddə 32) ilə təsdiq edilmiş "Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3-cü hissə üzrə:

7.1.1. 3.3-cü bəndə "əsaslandırılmasını" sözündən sonra "enerji effektivliyi informasiya sistemi (bundan sonra - Sistem) vasitəsilə" sözləri əlavə edilsin;

7.1.2. 3.4-cü bəndin ikinci cümləsinə ikinci halda "müddətində" sözündən sonra "Sistem vasitəsilə" sözləri əlavə edilsin;

7.1.3. 3.8-ci bəndə "səhifəsində" sözündən sonra ", Sistemdə" sözü əlavə edilsin;

7.2. 5.7-ci bəndə "müddətində" sözündən sonra "Sistem vasitəsilə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2026-cı il*

# Qərb Sənaye Parkının yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara və yerli resurslara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, habelə regionlarda iqtisadi fəallığın və məşğulluğun daha da artırılması məqsədilə **qərara alıram:**

1. Gəncə şəhərinin və Şəmkir rayonunun ərazisində Qərb Sənaye Parkı yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Qərb Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir;

2.2. Qərb Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra - Agentlik) həyata keçirir.

3. Qərb Sənaye Parkının fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. üç ay müddətində:

4.1.1.Qərb Sənaye Parkının fəaliyyəti üçün Gəncə şəhəri Yevlax şosesində yerləşən, Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş "Azəralüminium" MMC-nin istifadəsindəki dövlət mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 81.8 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini təmin etsin;

4.1.2. Şəmkir rayonunun Könüllü kəndi ərazisində yerləşən, bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı 100 hektar torpaq sahəsinin təyinatının dəyişdirilərək sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına keçirilməsi, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"yə və digər normativ hüquqi aktlara uyğun olaraq Qərb Sənaye Parkının fəaliyyətinə cəlb olunması ilə bağlı zəruri tədbirlər görülməsini təmin etsin;

4.2. bu Fərmanın 4.1.1-ci və 4.1.2-ci yarımbəndlərində nəzərdə tutulmuş tədbirlərin icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

5.1. Qərb Sənaye Parkında istehsal və emal olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. Qərb Sənaye Parkının ərazisində xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədilə Agentliyə kömək etsin;

5.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2026-cı il*

# "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 321-VIIQD nömrəli Qanununun tətbiqi və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 dekabr tarixli 321-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cümaddəsinin birinci və üçüncü cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 27.4-cü maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 27.4-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü maddəsinin üçüncü cümləsinə uyğun olaraq, müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak etmək üçün ödənişin məbləğini üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 863 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "27.3-cü maddələrində," sözlərindən sonra "27.4-cü maddəsinin birinci və üçüncü cümlələrində," sözləri əlavə edilsin;

3.2. 2.2-ci bəndə "27.2.4-cü maddələrində," sözlərindən sonra "27.4-cü maddəsinin üçüncü cümləsində," sözləri əlavə edilsin;

3.3. 2.4-cü bəndə "27.3-cü maddələrində" sözlərindən sonra ", 27.4-cü maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2026-cı il*

## Ə.S.Cəlilovun "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əfqan Süleyman oğlu Cəlilov "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2026-cı il*

## R.G.Vəliyevin "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rauf Göyüş oğlu Vəliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2026-cı il*

## N.V.İsmayılovanın"Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında jurnalistika sahəsində xüsusi xidmətlərinə görə Nadejda Vasilyevna İsmayılova "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2026-cı il*

## "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 fevral tarixli 19 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 17** **Bakı şəhəri, 16 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi barədə" 2010-cu il 13 dekabr tarixli 362 nömrəli və "Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 dekabr tarixli 362 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları haqqında Əsasnamə"də dəyişikliklər edilməsi və "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən kiçik xüsusi rütbəsi olan işçilərin xüsusi geyim formasının və fərqlənmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi barədə" 2013-cü il 7 may tarixli 891 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 434 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 fevral tarixli 19 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 149 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında, preambulada (hər iki halda) və 1-ci hissədə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində" sözləri "Miqrasiya orqanlarında" sözləri ilə əvəz edilsin.

2. 2-ci hissədə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində" sözləri "miqrasiya orqanlarında" sözləri ilə əvəz edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normaları" üzrə:

3.1. adında Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində" sözləri "Miqrasiya orqanlarında" sözləri ilə əvəz edilsin;

3.2. I hissə üzrə:

3.2.1. aşağıdakı məzmunda 1-1-ci və 11-1-ci bəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 1-1. | Tünd boz rəngli qış papağı | 1 ədəd | 1,5 il |

| | | | |
|---|---|---|---|
| 11-1. | Qara rəngli əlcək | 1 cüt | 2 il |

3.2.2. "Geyimin adı" sütunu üzrə:

3.2.2.1. 2-ci bənddə "isti" sözü "dəri" sözü ilə əvəz edilsin;

3.2.2.2. 3-cü bənddə "plaş" sözü "palto" sözü ilə əvəz edilsin;

3.2.2.3. 6-cı bənddən "(qadınlarda - yubka və şalvar qayışı)" sözləri çıxarılsın;

3.2.2.4. 11-ci bənddə "Açıq boz" sözləri "Qara" sözü ilə əvəz edilsin;

3.3. II hissəyə aşağıdakı məzmunda 1-1-ci bənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 1-1. | Tünd boz rəngli gödəkcə | 1 ədəd | 4 il |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi və "Azərbaycan Respublikası adından borc alınması və zəmanət verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 410 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli 1957 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 45 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bənddə "Azərbaycan Biznesinin İnkişafı Fondu" sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

2. həmin Fərmanla təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" üzrə:

2.1. 1-ci hissədə"kredit təşkilatlarından" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin;

2.2. 2-ci hissə üzrə:

2.2.1. 2.1.1-ci yarımbənddə "Azərbaycan Biznesinin İnkişafı Fondu" sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.2.2. 2.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.2. müvəkkil təşkilat - Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğun fəaliyyət göstərən, Fondun dəstək mexanizmləri üzrə sahibkarlıq subyektlərinin maliyyələşdirilməsinə vasitəçilik edən və Fondla əməkdaşlıq müqaviləsi bağlayan hüquqi şəxs (bank, bank olmayan kredit təşkilatı, lizinq, faktorinq və investisiya fəaliyyətini həyata keçirən kommersiya hüquqi şəxsləri);";

2.2.3. 2.1.4-cü və 2.1.5-ci yarımbəndlərdə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.2.4. 2.1.7-ci yarımbənddə "kredit təşkilatlarından" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin;

2.2.5. 2.1.10-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.10. "Elektron kredit və zəmanət" informasiya sistemi (bundan sonra - informasiya sistemi) - Fondun Nizamnaməsinə uyğun olaraq sahibkarlıq subyektlərinə müvəkkil təşkilatlar vasitəsilə təqdim olunan dəstək mexanizmlərinin həyata keçirilməsi ilə bağlı prosedurların elektron qaydada icra olunmasını təmin edən sistem;";

2.2.6. 2.1.11-ci yarımbənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.3. 3-cü hissə üzrə:

2.3.1. 3.1-ci bənddə "kredit təşkilatlarından" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin;

2.3.2. 3.3.1-ci yarımbənddə "kredit təşkilatından" sözləri "təşkilatdan" sözü ilə əvəz edilsin;

2.3.3. 3.3.3-cü yarımbənddə "kredit təşkilatı ilə" sözləri "müvəkkil təşkilatla" sözləri ilə əvəz edilsin;

2.3.4. 3.3.4-cü yarımbənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.3.5. 3.3.9-cu yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 3.3.10-cu yarımbənd ləğv edilsin;

2.4. 4.1.1-ci yarımbənddə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

2.5. 5-ci hissə üzrə:

2.5.1. adında "kredit təşkilatlarına" sözləri "təşkilatlara" sözü ilə əvəz edilsin;

2.5.2. 5.1-ci bənd üzrə:

2.5.2.1. birinci abzasın birinci cümləsində "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

2.5.2.2. 5.1.1-ci yarımbənddə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə əvəz edilsin;

2.5.3. 5.2-ci bənd üzrə:

2.5.3.1. birinci və üçüncü cümlələrdə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.5.3.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.6. 6-cı hissə üzrə:

2.6.1. 6.1-ci bənd üzrə:

2.6.1.1. 6.1.1-ci yarımbənddə "kredit təşkilatını" sözləri "təşkilatı" sözü ilə əvəz edilsin;

2.6.1.2. 6.1.2-ci yarımbəndin birinci cümləsindən ", 3.3.10-cu yarımbəndində nəzərdə tutulmuş halın mövcudluğu isə 4 (dörd) iş günü müddətində" sözləri çıxarılsın və həmin yarımbəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Qaydanın 3.3.5-3.3.9-cu yarımbəndlərində nəzərdə tutulmuş hallar müəyyən edildikdə dərhal bu barədə sahibkarlıq subyektinə informasiya sistemi vasitəsilə bildiriş göndərilir, müəyyən edilmədikdə isə eyni qaydada müraciət baxılmaq üçün sahibkarlıq subyektinin seçdiyi müvəkkil təşkilata göndərilir;";

2.6.1.3. 6.1.3-cü yarımbənddə"kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun və həmin yarımbəndə "etməklə" sözündən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.6.1.4. 6.1.4-cü yarımbənddə"kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatına" sözləri "təşkilata informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.6.2. 6.2-ci bənd üzrə:

2.6.2.1. birinci abzasda "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun və həmin abzasa "sənədləri" sözündən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.6.2.2. 6.2.1-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.6.2.3. 6.2.3-cü yarımbənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.6.3. 6.4-cü bəndin birinci və ikinci cümlələrində "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.6.4. 6.5-ci bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.6.5. 6.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"6.6. Müvəkkil təşkilatla sahibkarlıq subyekti arasında kredit müqaviləsi bağlanıldıqdan sonra bu müqavilə (ödəniş cədvəli də daxil olmaqla), girov (ipoteka) müqaviləsi və birdəfəlik zəmanət haqqının ödənilməsini təsdiq edən sənəd müvəkkil təşkilat tərəfindən 5 (beş) iş günü müddətində informasiya sistemi vasitəsilə elektron sənəd formasında Fonda təqdim edilir. Sənədlərin elektron formada təqdim edilməsi mümkün olmadıqda, həmin sənədlərin surətləri informasiya sistemi vasitəsilə göndərilir.";

2.6.6. 6.7-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.7. 7-ci hissə üzrə:

2.7.1. 7.1-ci bənddə və 7.2-ci bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.7.2. 7.3-cü bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.7.3. 7.4-cü bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun və həmin cümləyə "hesabatı" sözündən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.7.4. 7.5-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.8. 8-ci hissə üzrə:

2.8.1. 8.1-ci bənd üzrə:

2.8.1.1. birinci və dördüncü cümlələrdə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.8.1.2. üçüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.8.2. 8.2-ci bənd üzrə:

2.8.2.1. birinci abzasın birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "yazılı" sözü "informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.8.2.2. 8.2.1-ci yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.8.2.3. 8.2.2-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.8.2.4. 8.2.4-cü yarımbənddə "kredit təşkilatlarında" sözləri "təşkilatlarda" sözü ilə əvəz edilsin;

2.8.3. 8.4-cü bənd üzrə:

2.8.3.1. birinci cümlədə "kredit təşkilatına bu barədə" sözləri "təşkilata bu barədə informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.8.3.2. ikinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.8.4. 8.5-ci bənd üzrə:

2.8.4.1. birinci cümlədə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin və həmin cümlədən "təsdiq edilmiş" sözləri çıxarılsın;

2.8.4.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.9. 9-cu hissə üzrə:

2.9.1. 9.1-ci bəndin birinci cümləsində "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun, həmin cümlədən"və faiz subsidiyasının ödənilməsinə dair müraciəti" sözləri çıxarılsın və həmin cümləyə "müddətində" sözündən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.9.2. 9.2-ci bənddə "müraciət" sözü "hesabat" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.9.3. 9.4-cü bənddə hər iki halda "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.10. 10-cu hissə üzrə:

2.10.1. 10.1-ci bəndin birinci cümləsində hər üç halda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.10.2. 10.2-ci bənddə hər iki halda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.10.3. 10.3-cü bənd üzrə:

2.10.3.1. birinci abzasda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.10.3.2. 10.3.2-ci yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.10.4. 10.4-cü bənd üzrə:

2.10.4.1. 10.4.1-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.10.4.2. 10.4.3-cü yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.10.4.3. 10.4.7-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.10.5. 10.6-cı bənddə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə əvəz edilsin;

2.10.6. 10.7-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.11. 11-ci hissə üzrə:

2.11.1. 11.1-ci bənd üzrə:

2.11.1.1. 11.1.1-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatında" sözləri "təşkilatda" sözü ilə, "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə əvəz edilsin;

2.11.1.2. 11.1.2-ci yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.11.2. 11.2-ci bənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.11.3. 11.3-cü bənd üzrə:

2.11.3.1. 11.3.1-ci yarımbənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.11.3.2. 11.3.3-cü yarımbənddə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "yazılı" sözü "informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.11.4. 11.4-cü bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.12. 12-ci hissə üzrə:

2.12.1. 12.1-ci bənddə hər iki halda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.12.2. 12.2-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.12.3. 12.3-cü bənddə hər iki halda "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz olunsun və həmin bəndə "bu barədə" sözlərindən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.12.4. 12.5-ci bənddə "kredit təşkilatında" sözləri "təşkilatda" sözü ilə, "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.12.5. 12.7-ci bəndin birinci və ikinci cümlələrində, 12.8-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.13. 13-cü hissə üzrə:

2.13.1. 13.1-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz olunsun və həmin bəndə "bu barədə" sözlərindən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.13.2. 13.3-cü bənddə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə əvəz edilsin;

2.14. həmin Qaydaya Əlavə - "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" üzrə:

2.14.1. 1.2-ci bənddə "Azərbaycan Biznesinin İnkişafı Fondu" sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

2.14.2. 3.1.1-ci və 3.1.2-ci yarımbəndlərdə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.14.3. 4-cü hissə üzrə:

2.14.3.1. 4.1-ci bənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.14.3.2. 4.2-cibənddə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə, "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.14.4. 6-cı hissə üzrə:

2.14.4.1. 6.1-ci bənd üzrə:

2.14.4.1.1. birinci və dördüncü cümlələrdə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.14.4.1.2. üçüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.14.4.2. 6.2-ci bənd üzrə:

2.14.4.2.1. birinci cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə,"yazılı" sözü "informasiya sistemi vasitəsilə" sözləri ilə əvəz edilsin;

2.14.4.2.2. ikinci cümlədə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz olunsun və həmin cümləyə "bu barədə" sözlərindən sonra "informasiya sistemi vasitəsilə" sözləri əlavə edilsin;

2.14.4.2.3. üçüncü cümlədə "kredit təşkilatı" sözləri "təşkilat" sözü ilə əvəz edilsin;

2.14.4.3. 6.3-cü bənd üzrə:

2.14.4.3.1. birinci cümlədə "kredit təşkilatı ilə" sözləri "təşkilatla" sözü ilə, "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin və həmin cümlədən "təsdiq olunmuş" sözləri çıxarılsın;

2.14.4.3.2. ikinci cümlədə "kredit təşkilatının" sözləri "təşkilatın" sözü ilə əvəz edilsin;

2.14.4.4. 6.6-cı bənddə "kredit təşkilatına" sözləri "təşkilata" sözü ilə əvəz edilsin;

2.14.5. 8-ci hissədə "kredit təşkilatları" sözləri "təşkilatlar" sözü ilə əvəz edilsin;

2.14.6. 11-ci hissədə "Azərbaycan Biznesinin İnkişafı Fondu" sözləri "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2026-cı il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 332-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq,"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 332-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 9-cu maddəsinin birinci hissəsinin "ö" bəndində, 36-cı maddəsinin 1-ci hissəsinin "a" bəndində və 2-ci hissəsində, 41-1-ci maddəsində, 50-ci maddəsinin 4-cü hissəsində, 74-cü maddəsinin "Qeyd" hissəsinin beşinci cümləsində, 122-ci maddəsinin 4-cü hissəsində, 179-cu maddəsinin 2-ci hissəsinin "g" bəndində və 186-cı maddəsinin 4-cü hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 14-cü maddəsinin 3-cü hissəsinin birinci abzasının ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

1.3. həmin Məcəllənin 9-cu maddəsinin birinci hissəsinin "ö" bəndində, 36-cı maddəsinin 1-ci hissəsinin "a" bəndində və 41-1-ci maddəsində"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 36-cı maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə baş kollektiv sazişə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, sahə kollektiv sazişinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, ərazi kollektiv sazişinə münasibətdə yerli icra hakimiyyətləri nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 50-ci maddəsinin 4-cü hissəsində və 74-cü maddəsinin "Qeyd" hissəsinin beşinci cümləsində"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 122-ci maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 179-cu maddəsinin 2-ci hissəsinin "g" bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur;

1.8. həmin Məcəllənin 186-cı maddəsinin 4-cü hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 332-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231(CildI); 2024, № 6 (I kitab), maddə 654, № 8, maddə 943; 2025, № 2, maddə 124, № 7, maddə 641) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa "2-1-ci hissəsində," sözlərindən sonra "9-cu maddəsinin birinci hissəsinin "ö" bəndində, 36-cı maddəsinin 1 hissəsinin "a" bəndində və 2-ci hissəsində, 41-1-ci maddəsində," sözləri, "2-ci hissəsində," (birinci halda) sözlərindən sonra "50-ci maddəsinin 4-cü hissəsində," sözləri, "2-ci hissəsində" (ikinci halda) sözlərindən sonra "122-ci maddəsinin 4-cü hissəsində," sözləri,"6-cı hissəsində," sözlərindən sonra "179-cu maddəsinin 2-ci hissəsinin "g" bəndində, 186-cı maddəsinin 4-cü hissəsinin birinci cümləsində," sözləri əlavə edilsin;

3.2. dördüncü abzasdan "36-cı maddəsinin birinci hissəsinin "a" bəndində," və "50-ci maddəsinin dördüncü hissəsində," sözləri çıxarılsın;

3.3. beşinci abzasa "Məcəllənin" sözündən sonra "9-cu maddəsinin birinci hissəsinin "ö" bəndində, 36-cı maddəsinin 1-ci hissəsinin "a" bəndində, 41-1-ci maddəsində və" sözləri əlavə edilsin;

3.4. altıncı abzasda "üçüncü hissəsində" sözləri "3-cü hissəsinin birinci abzasının birinci və ikinci cümlələrində" sözləri ilə əvəz edilsin;

3.5. on ikinci abzasdan "186-cı maddəsinin dördüncü hissəsində,"sözləri çıxarılsın;

3.6. on altıncı abzasda "Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri və idarələri" sözləri "mərkəzi icra hakimiyyəti orqanları" sözləri ilə əvəz edilsin;

3.7. iyirmi beşinci abzasa "8-1-ci hissəsində," sözlərindən sonra "50-ci maddəsinin 4-cü hissəsində," sözləri əlavə edilsin;

3.8. iyirmi altıncı abzasdan "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində" sözləri çıxarılsın;

3.9. iyirmi yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda iyirmi səkkizinci - otuz birinci abzaslar əlavə edilsin:

"həmin Məcəllənin 36-cı maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə baş kollektiv sazişə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, sahə kollektiv sazişinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, ərazi kollektiv sazişinə münasibətdə yerli icra hakimiyyətləri nəzərdə tutulur;

həmin Məcəllənin 122-ci maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

həmin Məcəllənin 179-cu maddəsinin 2-ci hissəsinin "g" bəndində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti nəzərdə tutulur;

həmin Məcəllənin 186-cı maddəsinin 4-cü hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər nəzərdə tutulur.".

4. "Azərbaycan Respublikasında dəniz səviyyəsindən 1200 metrdən yüksəklikdə yerləşən müəssisə, idarə və təşkilatlarda çalışan işçilərin əməyinin stimullaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 sentyabr tarixli 461 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 739 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında, preambulada və 1-ci hissənin birinci abzasında "müəssisə, idarə və təşkilatlarda" sözləri "iş yerlərində" sözləri ilə əvəz edilsin;

4.2. 2-ci hissədən"müəssisə, idarə və" sözləri çıxarılsın və həmin hissədə "başqa müəssisə, idarə və təşkilatlarda" sözləri "digər iş yerlərində" sözləri ilə, "onların öz" sözləri "müəssisələrin və ya fiziki şəxs olan işəgötürənlərin" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I); 2024, № 3, maddə 254, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 12 (II kitab), maddə 1369) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3-cü hissəsi üzrə:

5.1.1. 3.1.4-cü yarımbənddə "müəssisələrdə" sözü "iş yerlərində" sözləri ilə, "işin və ya istehsal vasitələrinin istismarının" sözləri "fiziki şəxs olan işəgötürənlərin, müəssisələrin və (və ya) onların struktur bölmələrinin, avadanlıq və qurğuların işinin" sözləri ilə əvəz edilsin;

5.1.2. 3.1.17-ci yarımbənddə "mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatların işçiləri" sözləri "iş yerlərində işçilər" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə" üzrə:

5.2.1. 3-cü hissə üzrə:

5.2.1.1. 3.1.9-cu yarımbənddə "müəssisələrdə" sözü "iş yerlərində" sözləri ilə, "işi və ya istehsal vasitələrinin istismarını" sözləri "fiziki şəxs olan işəgötürənlərin, müəssisələrin və (və ya) onların struktur bölmələrinin, avadanlıq və qurğuların işini" sözləri ilə əvəz edilsin;

5.2.1.2. 3.1.11-ci yarımbənddə "müəssisə və təşkilatlarda" sözləri "iş yerlərində" sözləri ilə əvəz edilsin;

5.2.2. 4-cü hissə üzrə:

5.2.2.1. 4.1.7-ci yarımbənddə "müəssisə və təşkilatlarda" sözləri "iş yerlərində" sözləri ilə əvəz edilsin;

5.2.2.2. 4.1.8-ci yarımbənddə "müəssisələrdə" sözü "iş yerlərində" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529; 2025, № 5, maddə 459, № 8, maddə 763, № 11, maddə 1037; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 546 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.8.1-ci yarımbəndində "müəssisələrdə" sözü "iş yerlərində" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 9, maddə 1000, № 12 (II kitab), maddə 1383; 2025, № 3, maddə 226, № 11, maddə 1022) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nın 1.3-cü bəndində "müəssisə və təşkilatlarda" sözləri "iş yerlərində" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 yanvar 2026-cı il*

# "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 217-VIIQD nömrəli Qanununun tətbiqi və "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 437 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 12** **Bakı şəhəri, 14 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 217-VIIQD nömrəli Qanununun tətbiqi və "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli 170 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 437 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 622 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2567 (Cild I); 2024, № 4, maddə 479, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası"nın 2.1.2-ci yarımbəndində "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli qərarı ilə müəyyən edilmiş" sözləri "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 128 (Cild I) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin 2.1.6-cı yarımbəndinin beşinci abzasında "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı ilə müəyyən edilmiş" sözləri "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110, № 4, maddələr 478, 479, № 5 (II kitab), maddə 611, № 9, maddə 1067; 2025, № 9, maddə 870; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 dekabr tarixli 377 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.8.1-ci yarımbəndində "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin əqli geriliyi olan uşaqlar üçün internat evlərində vətəndaşların qida normaları"na" sözləri "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qida normalarına" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I); 2024, № 1, maddələr 75, 110, № 4, maddələr 478, 479, № 9, maddə 1067; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 dekabr tarixli 377 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.7.1-ci yarımbəndində "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin əqli geriliyi olan uşaqlar üçün internat evlərində vətəndaşların qida normaları"na" sözləri "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qida normalarına" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Azərbaycan Respublikası vətəndaşlarının pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi qaydası barədə" Azərbaycan Respublikası Milli Məclisinin qərarının həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 1 sentyabr tarixli 479 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 16** **Bakı şəhəri, 16 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 24 iyul tarixli 452 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 1 sentyabr tarixli 479 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 9, maddə 1067) ilə təsdiq edilmiş "İstehlak mallarının və xidmətlərin qiymət artımı ilə əlaqədar əhalinin pul gəlirlərinin indeksləşdirilməsi qaydası haqqında metodiki təlimat"ın VII hissəsinin beşinci abzasında "ali məktəb tələbələrinə, orta ixtisas məktəblərinin və texniki peşə məktəblərinin şagirdlərinə" sözləri "ali, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbələrinə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 358 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 14** **Bakı şəhəri, 14 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 358 nömrəli Fərmanının 2-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 28 dekabr tarixli 700 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 434 (Cild I); 2024, № 1, maddə 79; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hallarda əhalini mühafizənin Əsas Prinsipləri"nin 4.5-ci bəndinin üçüncü abzasına "onlar" sözündən sonra "hərbi qeydiyyatda olduğu" sözləri, "Xidmətinin" sözündən sonra ", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və ya Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 6 avqust tarixli 438 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Sülh və müharibə dövrlərindəki fövqəladə hallarda Azərbaycan Respublikasında əhalinin köçürülməsi haqqında Əsasnamə"nin 1.7-ci bəndinin ikinci cümləsinə "onlar" sözündən sonra "hərbi qeydiyyatda olduğu" sözləri, "bölmələrinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209 (Cild I); 2024, № 9, maddə 1061, № 12 (II kitab), maddə 1463; 2025, № 2, maddə 181; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən Əsas Müddəalar"ın 11-ci hissəsinə "bölməsinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 645 (Cild I); 2024, № 3, maddə 315, № 9, maddə 1090; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nın 25-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. birinci abzasa (birinci halda) "bölməsinə" sözündən sonra ", təhlükəsizlik orqanının və ya Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəliyə münasibətdə isə həmin orqana" sözləri əlavə edilsin;

4.2. ikinci abzasın ikinci cümləsinə "bölməsindən" sözündən sonra ", təhlükəsizlik orqanının və ya Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəliyə münasibətdə isə həmin orqandan" sözləri əlavə edilsin;

4.3. üçüncü abzasa "bölməsinə" sözündən sonra ", təhlükəsizlik orqanının və ya Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlara" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067, № 12 II kitab, maddələr 1439, 1463; 2025, № 1, maddə 86, № 2, maddələr 181, 187; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 1.17-ci bəndinə və 8.13-cü bəndinin birinci cümləsinə "bölməsinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin.

6. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 35 (Cild I); 2024, № 10, maddə 1167; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Qərarla təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, yerli özünü idarə orqanlarında və təşkilatlarda işləyən hərbi vəzifəlilərin səfərbərlik zamanı və müharibə dövründə bron edilməsi işinin təşkil olunması Qaydaları" üzrə:

6.1.1. 2.2-ci bəndə "bölmələrindən" sözündən sonra ", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlardan" sözləri əlavə edilsin;

6.1.2. 2.3-cü bəndin ikinci cümləsinə "bölməsinə" sözündən sonra ", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlara" sözləri əlavə edilsin;

6.1.3. 2.4-cü bənd üzrə:

6.1.3.1. ikinci-beşinci cümlələr müvafiq olaraq üçüncü-altıncı cümlələr hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və (və ya) Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti tərəfindən çağırışdan möhlət hüququ verilmiş hərbi vəzifəlilər həmin orqanlarda xüsusi hərbi uçota götürülürlər.";

6.1.3.2. altıncı cümləyə "yerli" sözündən sonra "baş idarə" sözləri, "bölmələrinin" sözündən sonra ", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və (və ya) Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin" sözləri, "əsasən" sözündən sonra "xüsusi hərbi uçotunda olan" sözləri əlavə edilsin;

6.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, yerli özünüidarə orqanlarında və təşkilatlarda işləyən hərbi vəzifəlilərin səfərbərlik zamanı və müharibə dövrü üçün bron edilməsinə aid hesabatın təqdim edilməsi Qaydası"nın 2.1-ci bəndinə və 2.3.1-ci yarımbəndinə "bölmələrinə" sözündən sonra ", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlara" sözləri əlavə edilsin;

6.3. həmin Qərarla təsdiq edilmiş "Müharibə dövrünün ştatlarında nəzərdə tutulmuş hərbi vəzifələrdə hərbi xidmətkeçmə məqsədilə hərbi hissələrə təhkim olunmuş (xüsusi birləşmələrə təyin edilmiş) vətəndaşların səfərbərlik üzrə hərbi xidmətə çağırılması qaydası, habelə Azərbaycan Ordusunun, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin və xüsusi birləşmələrin mülki heyət vəzifələrində vətəndaşların işləmək üçün göndərilməsi Qaydası" üzrə:

6.3.1. 1.1-ci bənddə "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" sözləri ilə əvəz edilsin;

6.3.2. 1.3-cü bənddə "Vətəndaşların" sözü "Bu Qaydanın 1.4-cü bəndi nəzərə alınmaqla, vətəndaşların" sözləri ilə əvəz edilsin;

6.3.3. aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

"1.4. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırışı və mülki heyət vəzifələrində işləmək üçün göndərilməsi həmin orqanlar tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilir.";

6.3.4. aşağıdakı məzmunda 2.7-ci və 3.16-cı bəndlər əlavə edilsin:

"2.7. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə bu Qaydanın 2.1-2.6-cı bəndlərində nəzərdə tutulan tədbirlər həmin orqanlar tərəfindən həyata keçirilir.";

"3.16. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə bu Qaydanın 3.1-ci, 3.4-cü, 3.6-cı, 3.9-cu, 3.10-cu və 3.11-ci bəndlərində nəzərdə tutulan tədbirlər həmin orqanlar tərəfindən həyata keçirilir.".

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246; 2025, № 5, maddə 504; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli, 3 dekabr tarixli 371 nömrəli və 25 dekabr tarixli 412 nömrəli qərarları) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

7.1. 6.1-ci bəndin birinci abzasına "təşkili" sözündən sonra "onların hərbi qeydiyyatda olduğu" sözləri, "bölmələrə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

7.2. 6.1-ci bəndin ikinci abzasına "Xidməti" sözündən sonra ", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlar" sözləri əlavə edilsin;

7.3. 6.1-ci bəndin dördüncü abzasına "bölmələri" sözündən sonra ", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlar" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 451 (Cild I); 2024, № 1, maddə 124; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 5.8-ci və 6.21-ci bəndlərə "Səfərbərlik" sözündən əvvəl "onların hərbi qeydiyyatda olduğu" sözləri, "bölməsinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

8.2. 2 nömrəli əlavədən "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin" və "idarəsində (şöbəsində, bölməsində)" sözləri çıxarılsın və həmin sətrin altına "(hərbi qeydiyyatda olduğu orqanın adı)" sözləri əlavə edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 939 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 3.2-ci və 3.4-cü bəndlərə "barədə" sözündən sonra "onların hərbi qeydiyyatda olduğu" sözləri, "bölmələrinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

9.2. 3.3-cü bəndə "çağırışçılara" sözündən əvvəl "hərbi vəzifəlilərə və" sözləri, "qeydiyyatda" sözündən əvvəl "hərbi" sözü, "bölmələrinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

9.3. 3.5-ci bəndə "bölmələrinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

9.4. 3.6-cı bəndə "bölmələrinə" sözündən sonra ", öz ehtiyatına keçirilmiş hərbi vəzifəlilərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

9.5. 4.3-cü bəndə "hərbi vəzifəlilər" sözlərindən sonra ", habelə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti tərəfindən çağırılmış hərbi vəzifəlilər" sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 may tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 565 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.2-ci bəndə "bölmələrinin" sözündən sonra ", Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (bundan sonra - Dövlət Təhlükəsizliyi Xidməti) və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin (bundan sonra - Xarici Kəşfiyyat Xidməti)" sözləri əlavə edilsin;

10.2. 1.6-cı bəndə "bölmələri" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlar" sözləri əlavə edilsin;

10.3. 2.3.7-ci və 2.4.7-ci yarımbəndlərdə "Hərbi qeydiyyat üzrə Xidmətin yerli baş idarəsinin, idarəsinin (şöbəsinin, bölməsinin)" sözləri "Hərbi qeydiyyatda olduğu dövlət orqanının" sözləri ilə əvəz edilsin və həmin yarımbəndlərə "bölməsinin" sözündən sonra "Dövlət Təhlükəsizliyi Xidmətinin və ya Xarici Kəşfiyyat Xidmətinin" sözləri əlavə edilsin;

10.4. 2.3.8-ci və 2.4.8-ci yarımbəndlərə "bölməsində" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətində və ya Xarici Kəşfiyyat Xidmətində" sözləri əlavə edilsin;

10.5. 2.3.10-cu və 2.4.10-cu yarımbəndlərə (ikinci halda) "bölməsi" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidməti və ya Xarici Kəşfiyyat Xidməti" sözləri əlavə edilsin;

10.6. 3.1.1-ci yarımbəndin ikinci cümləsinə "olmayaraq" sözündən sonra "çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatda olduğu" sözləri, "bölməsinə" sözündən sonra "Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

10.7. 3.1.2-ci və 3.1.4-cü yarımbəndlərə "barədə" sözündən sonra "onların hərbi qeydiyyatda olduğu" sözləri, "bölmələrinə" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

10.8. 3.1.3-cü yarımbəndə "çağırışçılara" sözündən əvvəl "hərbi vəzifəlilərə və" sözləri, "qeydiyyatda" sözündən əvvəl "hərbi" sözü, "bölmələrinə" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

10.9. 3.1.5-ci yarımbəndə "bölmələrinə" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

10.10. 3.1.6-cı yarımbəndə "bölməsində" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətinin və Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlarda" sözləri əlavə edilsin;

10.11. 3.1.9-cu, 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərə "Xidmətin" sözündən əvvəl "onların hərbi qeydiyyatda olduğu" sözləri, "bölməsinə" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

10.12. 3.1.13-cü yarımbəndə "bölmələri" sözündən sonra ", Dövlət Təhlükəsizliyi Xidmətinin və ya Xarici Kəşfiyyat Xidmətinin hərbi qeydiyyatında olan hərbi vəzifəlilərə münasibətdə isə həmin orqanlar" sözləri əlavə edilsin;

10.13. 1 nömrəli əlavənin 2.7-ci bəndində "Hərbi qeydiyyat üzrə Xidmətin yerli baş idarəsinin, idarəsinin (şöbəsinin, bölməsinin)" sözləri "Hərbi qeydiyyatda olduğu dövlət orqanının" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 211 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 dekabr tarixli 412 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 3.18-ci bəndə "bölmələrinə" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə" sözləri əlavə edilsin;

11.2. 3.19-cu bəndin birinci cümləsinə "bölmələri" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti" sözləri əlavə edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 noyabr tarixli 354 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1277 (Cild I); 2024, № 3, maddə 294) ilə təsdiq edilmiş "Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicəsi barədə məhkəmə qərarının tələblərinin yerinə yetirilməsinə icra məmuru tərəfindən nəzarət edilməsi Qaydası"nın 4.1.5-ci yarımbəndinə "Azərbaycan" sözündən əvvəl "şəxsin hərbi qeydiyyatda olduğu" sözləri əlavə edilsin və "şəxsin" sözü ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə onun" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# 20 Yanvar - qanla yazılmış qəhrəmanlıq səhifəsi

**Sovet imperiyası yetmiş il sonra növbəti dəfə qanlı əlini ölkəmizə uzatdı. Yenə Azərbaycan xalqının müstəqillik arzusunun yoluna sədd çəkmək niyyətində idilər. Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) rəhbərliyi bu məqsədlə qəddarlıqla qərar verdi. Azərbaycana göndərilən sovet qoşun hissələri 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə ölkəmizdə dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törətdilər....**

Hələ 1980-ci illərin sonlarında SSRİ-də gündən-gündə artan tənəzzül, baş verən siyasi proseslər, xüsusilə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, Dağlıq Qarabağ münaqişəsi və milli azadlıq hərəkatının güclənməsi respublikada vəziyyəti gərginləşdirmişdi. Azərbaycan xalqı öz hüquqlarını, ərazi bütövlüyünü və gələcəyini qorumaq üçün meydanlara çıxmışdı. Təəssüf ki, mərkəzi sovet hakimiyyəti bu haqlı tələblərə dialoqla deyil, silah gücü ilə cavab verdi.

O gecə zirehli hərbi texnikanın gurultusu, atəş səsləri paytaxtı bürüdü. İnsanlar çaşqınlıq içərisində nə baş verdiyini öyrənməyə çalışırdı. Cinayətkarlar televiziya stansiyasının enerji blokunu da partlatmış, televiziya yayımını kəsmişdilər.

"Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman barədə əhaliyə bilərəkdən xəbərdarlıq edilməmişdi. Halbuki "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın birinci bəndinə əsasən, fərman imzalandığı andan fövqəladə vəziyyətin tətbiqi və müddətləri barədə əhaliyə rəsmi xəbərdarlıq olunmalı idi.

Paytaxtımız Bakı 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş verən dəhşətli hadisələrin şahidi oldu. Sovet ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərinin iştirakı ilə xüsusi amansızlıqla Bakıda qətliam törədildi.

İmperiya cəlladlarının qəddarlığının, vəhşiliyinin hüdudu yox idi. Uşaqları, gəncləri, qocaları amansızlıqla atəşə tutur, tankları onların üzərinə sürürdülər. Yalın əllə onların zirehli hərbi texnikalarının qarşısına



çıxıb: "Atəş açmayın, camaat silahsızdır", - deyənlər də dərhal güllələrə tuş gəlirdi. Çünki xüsusi təlim keçmiş sovet əsgərlərinin aldıqları tapşırıq belə idi. Onlar onsuz da dinc, silahsız insanları öldürdüklərini bilirdilər.

Yaralıların xəstəxanalara çatdırılmaması üçün təcili yardım maşınlarını atəşə tutur, güllələbaran edirdilər. Hətta xəstəxanaların işıqlarını belə söndürürdülər ki, yaralıların müalicəyinə olunmalarına, cərrahiyyə əməliyyatı edilmələrinə maneə törətsinlər. O dəhşətli hadisələr zamanı tibb işçiləri də həlak oldular.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə 131 nəfər qətlə yetirildi. Onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar idi. 744 nəfər ağır xəsarət aldı. 4 nəfər itkin düşdü. 400 nəfər isə həbs edildi. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər öldürüldü. Fövqəladə vəziyyət elan edilməmiş Neftçala və Lənkəranda 25-26 nəfər qətlə yetirildi.

Azərbaycanda 1990-cı ilin yanvarında sovet qoşun hissələrinin cinayətləri yalnız Bakı şəhəri ilə məhdudlaşmadı. Bakıda törədilən 20 Yanvar hadisələri respublikamızın hər yerində etirazla qarşılandı. Etiraz səsləri ucaldanlar günahkarların, cinayətkarların cəzalanmalarını tələb edirdilər.

Azərbaycan xalqının gözünün odunu almaq, xof yaratmaq üçün azğınlaşmış sovet qoşun hissələri bir neçə gün sonra dinc əhaliyə divan tutmaq məqsədilə cənuba - Neftçala, Cəlilabad və Lənkərana doğru istiqamətləndi. Bakıda törədilən Qanlı Yanvar qırğınından sonra bu dəfə dəhşətli xəbərlər bölgələrdən gəlməyə başladı...

Respublikamızda azadlıq eşqini boğmağa çalışan sovet ordusu hissələri 1990-cı il yanvarın 24-də Cəlilabadda dinc insanlara divan tutdu. Şahidlərin sözlərinə görə, Cəlilabadda baş verən yanvar hadisələrində 100-dən çox sakin müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Ağır güllə yarası alanlardan 14 nəfəri əlil oldu.

Yanvarın 25-də sovet tankları Neftçalaya daxil oldu. Günün ikinci yarısında rayonun mərkəzinə yetişən sovet əsgərləri azadlıqları uğrunda mübarizəyə qalxan əliyalın insanları xəbərdarlıq etmədən atəşə tutdular.

1990-cı ilin yanvarında sovet qoşun hissələrinin Neftçalada törətdikləri faciələr zamanı 2 nəfər qətlə yetirildi. 50-yə yaxın insan isə həbs olundu. Onları Bankə qəsəbəsindəki hərbi hissənin hamamına apardılar. Günahsız insanlara xüsusi qəddarlıqla işgəncələr verdilər.

Yanvarın 26-da Lənkəranın mərkəzi meydanına toplaşmış minlərlə insan şəhidlərin matəm mitinqinə toplaşdı. Sovet qoşun dəstələri onları qorxutmaqla, vahiməyə salmaqla mitinqi dağıda bilmədilər. Ancaq gərginliyin azaldılması, ziyan çəkməməsi, qan tökülməməsi naminə fəallar dağətəyi ərazidə yerləşən Haftoni meşəliyinə çəkildilər. Sovet qoşun bölmələri dərhal meşəni mühasirəyə alaraq onlara atəş yağdırdılar.

Qanlı Yanvar hadisələri zamanı ümumilikdə 11 nəfər Lənkəran sakini şəhid oldu. Onlardan 5 nəfər yanvarın 19-dan 20-nə keçən gecədə Bakı şəhərində qətlə yetirilmişdi. 5 nəfər yanvarın 26-da Haftoni meşəliyində sovet ordusunun silahlı hücumu nəticəsində həlak olmuşdu. Bir nəfər isə hərbi helikopterdə aparılarkən məftillə boğularaq öldürülmüşdü.

Lənkəranda baş verən hadisələrin iştirakçılarının dediklərinə görə, Haftoni meşəliyində 46 nəfər tutularaq həbs olunmuşdu. Onlardan 16 nəfər Rusiya Federasiyasının Ulyanovsk şəhərindəki həbsxanaya, 30 nəfər isə Bakının Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki həbsxanaya aparılmışdı.

SSRİ rəhbərliyi təxribatlara, cinayətlərə əl atmaqla, günahsız insanlara hədə-qorxu gəlməklə, işgəncələr verməklə, qətllər törətməklə məqsədinə çatmadı. İmperiyanın ölkəmizə qarşı siyasəti uğursuzluqla nəticələndi və Qara Yanvar hadisələri Azərbaycan xalqının milli azadlıq hərəkatını sürətləndirdi. Bu faciə xalqımızn birliyini möhkəmləndirdi, milli şüuru gücləndirdi və müstəqillik ideyasını reallığa çevirdi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Əmək münasibətlərində hansı yeniliklər olacaq



**Milli Məclisin ötən il payız sessiyasında əmək münasibətləri ilə bağlı bir sıra qanunlara dəyişikliklər üçüncü oxunuşda təsdiq olunub. Bu dəyişikliklər əmək münasibətlərinin beynəlxalq əmək normalarına uyğunlaşdırılması, rəqəmsal və elektron sistemlərin tətbiqi, eləcə də illər ərzində qanunvericilikdə yaranmış boşluqların aradan qaldırılması məqsədi daşıyır. Dəyişikliklər birbaşa işçilərin sosial və əmək hüquqlarının daha etibarlı qorunmasına, eyni zamanda işəgötürən-işçi münasibətlərinin şəffaf və çevik mexanizmlərlə tənzimlənməsinə xidmət edir.**

Mövzu ilə bağlı Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, dəyişikliklər əmək bazarında baş verən müasir çağırışlara cavab olaraq ərsəyə gəlib: "Layihə əmək münasibətlərinin beynəlxalq əmək normaları nəzərə alınmaqla təkmilləşdirilməsi, elektron sistemlərin əmək münasibətlərində tətbiqi ilə əlaqədar yeni qaydaların təsbiti, eləcə də ötən dövrdə əmək qanunvericiliyində aşkar edilmiş boşluqların aradan qaldırılması məqsədilə hazırlanıb".

Beynəlxalq Əmək Təşkilatının son hesabatlarında da üzv dövlətlərə tövsiyə olunan əsas istiqamətlərdən biri məhz əmək münasibətlərində rəqəmsallaşmanın və çevik məşğulluq modellərinin hüquqi əsaslarının yaradılmasıdır. Azərbaycanın bu islahat paketi ilə həmin tövsiyələrə sistemli şəkildə cavab verdiyini görürük. Xüsusilə elektron əmək müqavilələri, rəqəmsal uçot mexanizmləri qeyri-formal məşğulluğun azalmasına real təsir göstərə biləcək alətlərdir.

Komitə sədri vurğulayıb ki, bu islahatlar təkcə hüquqi sənədlərin yenilənməsi yox, həmçinin əmək bazarında sosial ədalətin, bərabərliyin və inklüzivliyin gücləndirilməsinə yönəlib. Dəyişikliklər, xüsusilə ailə vəzifələri olan şəxslər, əlilliyi olan insanlar, gənclər və qadınlar üçün əlavə təminatlar yaradır.

Diqqətçəkən məqam ondan ibarətdir ki, son illər Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, məhz bu sosial qruplar əmək bazarında daha həssas kateqoriya kimi çıxış edirlər. Yeni dəyişikliklər həmin qrupların əmək bazarına inteqrasiyasını hüquqi mexanizmlərlə stimullaşdırmaqla yanaşı, işəgötürənlərin məsuliyyətini də artırır. Bu, sosial dövlət modelinin mühüm göstəricilərindən biridir.

Dəyişikliklər çərçivəsində Əmək Məcəlləsinə bir sıra yeni anlayışlar da daxil edilib. Bunlara ailə vəzifələri olan işçi, fiziki şəxs olan işəgötürən, mediator, xüsusi notarius, ezamiyyət, məsafədən (distant) iş kimi anlayışlar daxildir. Həmçinin 20 sentyabr - Dövlət Suverenliyi Günü rəsmi bayram günü kimi əmək qanunvericiliyində əksini tapıb.

Musa Quliyev diqqətə çatdırıb ki, xüsusilə distant iş forması ilə bağlı müddəaların qanuniləşdirilməsi müasir əmək bazarının tələblərindən irəli gəlir. Bu, pandemiyadan sonra formalaşan yeni iş modellərinin hüquqi əsaslarının yaradılması baxımından mühüm addımdır.

Əlavə olaraq vurğulamaq lazımdır ki, Avropa İttifaqı ölkələrində aparılan araşdırmalar distant iş rejiminin əmək məhsuldarlığını orta hesabla 10-15 faiz artırdığını göstərir. Azərbaycanın da bu modeli hüquqi çərçivəyə salması həm işçilərin vaxt və resurslarına qənaət etməsinə, həm də regionlarda məşğulluğun genişlənməsinə imkan yaradır.

Dəyişikliklərin diqqətçəkən məqamlarından biri də uşaq anadan olmasına görə atalara da 14 günlük ödənişli məzuniyyətin verilməsidir. Bu yanaşma ailə institutunun möhkəmləndirilməsi və valideyn məsuliyyətinin bölüşdürülməsi baxımından mühüm sosial yenilik kimi qiymətləndirilir.

Beynəlxalq təcrübə göstərir ki, ata məzuniyyətlərinin tətbiqi uşağın erkən inkişafında müsbət psixoloji nəticələr yaradır və ailədaxili sosial balansı gücləndirir. Məsələn, Skandinaviya ölkələrində bu model uzun illərdir tətbiq olunur və ailə rifahı göstəricilərinə birbaşa təsir edir. Azərbaycanın bu sahədə addım atması sosial siyasətin keyfiyyətcə yeni mərhələyə keçidindən xəbər verir.

Eyni zamanda hamiləliyə və doğuşa görə məzuniyyət şərtləri genişləndirilib, ailə vəzifələrinə görə işçilərə qarşı ayrı-seçkiliyin yolverilməzliyi ayrıca norma kimi təsbit olunub.

Yeni dəyişikliklərdə minimum əməkhaqqı anlayışı yeni redaksiyada təqdim olunur, məcburi əməyin qadağan olunması ilə bağlı müddəalar dəqiqləşdirilir. Ezamiyyət xərclərinin ödənilməsi qaydaları, əməkhaqqının verilmə mexanizmləri, əməyin mühafizəsi ilə bağlı tələblər də daha aydın və konkret formada müəyyən edilir.

Musa Quliyev qeyd edib ki, bu dəyişikliklər əmək münasibətlərində hüquqi qeyri-müəyyənlikləri aradan qaldırmaqla yanaşı, işçilərin əməkhaqqı və sosial təminatlarla bağlı hüquqlarının daha effektiv müdafiəsinə şərait yaradır. Statistik göstəricilər göstərir ki, əmək mübahisələrinin böyük hissəsi məhz əməkhaqqının ödənilməsi və iş vaxtı ilə bağlı yaranır. Yeni normalar bu riskləri minimuma endirməyə yönəlib.

Bundan əlavə, Əmək və sosial məsələlər üzrə üçtərəfli komissiyanın yaradılması, həmkarlar ittifaqlarının hüquqlarının genişləndirilməsi və fiziki şəxs olan işəgötürənlərə münasibətdə də tanınması əmək münasibətlərində sosial dialoqun gücləndirilməsinə xidmət edir.

Qanun paketində bir sıra dəqiqləşdirici və texniki xarakterli dəyişikliklər də yer alıb. Məsələn, 65 yaş həddi məhdudiyyətinin ali təhsil müəssisələrinin elmi və pedaqoji işçilərinə şamil edilməməsi, Baş Kollektiv Sazişdə işəgötürən birliklərinin tərəf kimi müəyyən edilməsi kimi mühüm məqamlar hüquqi dəqiqliyi artırır.

Ümumilikdə ekspertlərin fikrincə, bu dəyişikliklər Azərbaycanda əmək münasibətlərinin daha çevik, müasir və insan mərkəzli modelə keçidini təmin edir. Uzunmüddətli perspektivdə isə dəyişikliklər həm işçilərin, həm də işəgötürənlərin maraqlarına xidmət edəcək.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Milli Məclisin komitələrinin iclaslarında

**Yanvarın 16-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2026-cı ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Hicran Hüseynova yeni sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib və onlara fəaliyyətlərində uğurlar arzulayıb.**



Komitə sədri əvvəlcə regionda və dünyada baş verən ictimai-siyasi proseslərdən, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqımızın mənafeyi naminə dövlətimizin maraqlarının qorunması, regionda sülhün bərqərar olması istiqamətində görülən məqsədyönlü işlərdən danışıb.

Sonra Hicran Hüseynova iclasın gündəliyində duran məsələlər - 2025-ci ilin payız sessiyası dövründə Ailə, qadın və uşaq məsələləri komitəsində görülən işlər barədə hesabatı və komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsini təqdim edib. Diqqətə çatdırıb ki, 2025-ci ilin payız sessiyası ərzində Ailə, qadın və uşaq məsələləri komitəsinin 13 iclası keçirilib, 15 məsələyə baxılıb. Sessiya müddətində 5 qanun layihəsi, o cümlədən 1 qanun layihəsi bir oxunuşda, 4 qanun layihəsi üç oxunuşda müzakirə edilib.

Qeyd olunub ki, sessiya ərzində komitədə ölkəmizdə səfərdə olan xarici nümayəndə heyətləri ilə bir sıra görüşlər keçirilib. Bununla yanaşı, komitənin sədri və üzvləri "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilmiş respublika əhəmiyyətli və beynəlxalq səviyyəli forum, konfrans, simpozium, "dəyirmi masa" və digər tədbirlərdə təmsil olunublar. Həmçinin komitə üzvləri qəbul olunmuş qanunların əhəmiyyəti, ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığı ilə mübarizə, erkən nikahların qarşısının alınması və digər mövzularla bağlı mətbuatda, sosial mediada çıxış ediblər.

Nəzərə çatdırılıb ki, ötən sessiya dövründə vətəndaşlardan daxil olmuş ərizə və məktublara komitədə baxılıb və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti təşkilatlara göndərilib. Müraciətlərdə qaldırılan bir sıra məsələlərlə bağlı müvafiq icra strukturları ilə əlaqə saxlanılaraq həllinə nail olunub. Seçicilərlə həm Milli Məclisdə, həm də yerlərdə mütəmadi görüşlər keçirilib, lazımi izahatlar verilib.

Komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsini təqdim edən Hicran Hüseynova bildirib ki, bu sessiya müddətində ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsinin daha da gücləndirilməsi sahəsində aktual mövzularla bağlı ictimai dinləmələrin keçirilməsi planlaşdırılır. O, keçən ilin dekabr ayında "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"nın hazırlandığını söyləyərək, ölkədə gender bərabərliyinin təmin olunması istiqamətində əsaslı addımların atıldığını, o cümlədən normativ hüquqi bazanın formalaşdırıldığını, institusional mexanizmlərin yaradıldığını deyib. Komitə sədri bununla yanaşı, müasir çağırışlar fonunda bu sahədə mövcud qanunvericiliyin daha da təkmilləşdirilməsinə ehtiyac duyulduğunu bildirib. Həmçinin uşaq hüquqlarının müdafiəsi ilə bağlı məsələlərə dair müzakirələrin nəzərdə tutulduğunu qeyd edib.

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı komitənin sədr müavini Jalə Əliyeva, üzvləri İlham Məmmədov, Pərvin Kərimzadə, Sevinc Hüseynova, Mehriban Vəliyeva, Səbinə Xasayeva, Ülviyyə Ağayeva, Günay Ağamalı, Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər, öz fikir və qeydlərini açıqlayıblar.

İclasda komitənin 2025-ci ilin payız sessiyasında gördüyü işlər məqbul hesab olunub, 2026-cı ilin yaz sessiyası üçün nəzərdə tutulan iş planının layihəsi təsdiqlənib.

* * *

Yanvarın 16-da Milli Məclisin Regional məsələlər komitəsinin 2026-cı ilin yaz sessiyasının ilk iclası keçirilib. İclası açan komitə sədri Siyavuş Novruzov yaz sessiyasının başlaması münasibətilə komitə üzvlərini təbrik edib və onlara işlərində uğurlar arzulayıb.

Komitə sədri ilk növbədə ötən il dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə iqtisadi, siyasi, logistika, sosial, ordu quruculuğu və tikinti sahələrində, o cümlədən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı işlərdən bəhs edib, dövlətimizin beynəlxalq arenada daha da artan nüfuzunu vurğulayıb.

Daha sonra gündəliyə daxil olan məsələlər - 2025-ci ilin payız sessiyası dövründə Regional məsələlər komitəsində görülən işlər barədə hesabat və komitənin 2026-cı ilin yaz sessiyası üçün iş planının layihəsi təqdim edilib.

Bildirilib ki, 2025-ci ilin payız sessiyası ərzində Regional məsələlər komitəsinin 7 iclası keçirilib, müvafiq komitələrlə birlikdə "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirə olunub. O, sessiya müddətində komitənin müvafiq dövlət orqanları və Milli Məclis Aparatının müvafiq şöbələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində səmərəli fəaliyyət göstərdiyini qeyd edib.

Məlumat verilib ki, ötən sessiya dövründə ümumilikdə komitəyə vətəndaşlardan 1267 müraciət daxil olub, bunlardan bir qisminin icrası təmin edilib, digər qismi isə baxılması üçün aidiyyəti orqanlara göndərilib. Komitə sədri bildirib ki, seçicilərlə Milli Məclisdə və yerlərdə qəbullar keçirilib, müraciətlər dinlənilib və zəruri izahatlar verilib.

Regional məsələlər komitəsinin 2026-cı ilin yaz sessiyası üçün iş planı layihəsi barədə məlumat verən Siyavuş Novruzov qeyd edib ki, bu sessiyada qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələri müzakirə olunacaq, vətəndaşlarla mütəmadi görüşlər təşkil ediləcək və aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq davam etdiriləcək.

Müzakirələr zamanı Regional məsələlər komitəsinin üzvləri Aydın Mirzəzadə, Vasif Qafarov, Elman Məmmədov, Arzuxan Əlizadə, Kamran Bayramov, Elşən Musayev, Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Təmraz Tağıyev, Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov və ABMA-nın "Bələdiyyələrin Rəqəmsallaşma və İnnovasiya Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin direktoru Adil Əhmədov çıxış edərək məsələlərlə bağlı fikirlərini söyləyiblər, təkliflərini irəli sürüblər.

Tədbirdə komitənin 2025-ci ilin payız sessiyasında gördüyü işlər məqbul hesab olunub, 2026-cı ilin yaz sessiyası üçün nəzərdə tutulan iş planının layihəsi təsdiqlənib.

*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzurda sosial-iqtisadi fəallıq yüksəlir



**Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində bu gün Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı bərpa-quruculuq işləri planlı şəkildə və yüksək templə icra olunur. Dövlət başçısının şəxsi nəzarəti ilə həyata keçirilən layihələr çərçivəsində infrastrukturun yenidən qurulması, yaşayış məntəqələrinin müasir standartlara uyğun salınması və mühəndis-kommunikasiya sistemlərinin yaradılması sürətlə təmin edilir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz, mərhələli və ləyaqətli şəkildə qayıdışı üçün hərtərəfli şərait yaradılır.**

Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov qəzetimizə açıqlamasında bildirib ki, həyata keçirilən tədbirlər yalnız yolların, yaşayış məntəqələrinin inşası və kommunal şəbəkələrin bərpası ilə məhdudlaşmır. Bölgənin hərtərəfli inkişafı üçün kompleks yanaşma tətbiq olunur. Təhsil və səhiyyə müəssisələrinin inşası, sosial xidmətlərin təşkili, məşğulluq imkanlarının yaradılması və iqtisadi fəallığın stimullaşdırılması Qarabağ və Şərqi Zəngəzurun uzunmüddətli, dayanıqlı inkişafı üçün geniş imkanlar açır. "Bu günlərdə möhtərəm Prezidentin Ağdərəyə səfəri bu yanaşmanın əyanı təzahürüdür. Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri nəticəsində azad olunmuş digər ərazilərimiz kimi, Ağdərə də artıq inkişaf dövrünə qədəm qoyub. Burada həyata keçirilən quruculuq işləri zamanı bölgənin inkişaf perspektivləri nəzərə alınır, bütün proses sistemli şəkildə icra olunur. Əhalinin artımı, iqtisadi fəaliyyətin genişləndirilməsi və sosial ehtiyaclar öncədən planlaşdırılır. Dövlətin məqsədi bütün bölgələrdə olduğu kimi, işğaldan azad olunan torpaqlarımızda da müasir, rahat və funksional yaşayış mühitinin formalaşdırılmasıdır", - deyə o deyib.

Komitə sədri qeyd edib ki, bu gün Ağdərədə də kəndlərarası əlaqələr, mühəndis-kommunikasiya xətlərinin çəkilişi əsas prioritetlər sırasındadır. Yol infrastrukturunun yenilənməsi kəndlərin bir-biri ilə və regional mərkəzlərlə əlaqəsini təmin edir. Su, qaz, elektrik və rabitə şəbəkələri müasir standartlar əsasında qurulur. Eləcə də rəqəmsal idarəetmə, enerji səmərəliliyi, ekoloji yanaşmalar və sosial məkanların optimallaşdırılması müasir tələblərə uyğun formada həyata keçirilir.

Ş.İsmayılov dövlət başçısının Ağdərəyə səfəri çərçivəsində 14,7 meqavat gücündə olan "Qozlukörpü" Su-Elektrik Stansiyasının istifadəyə verildiyini xatırladaraq deyib ki, bu, "yaşıl enerji zonası"na çevrilən regionun enerji təhlükəsizliyinə, ekoloji cəhətdən təmiz enerji istehsalına mühüm töhfə verir: "Azad olunmuş ərazilərdə sənaye müəssisələrinin yaradılması istiqamətində də çoxşaxəli işlər həyata keçirilir. Bu xüsusda Ağdərə rayonunda "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyətə başlamasını xüsusi qeyd etmək istərdim. İşğaldan azad edilmiş ərazilərdə dağ-mədən sənayesi üzrə fəaliyyət göstərən ilk müəssisədə təxminən min nəfər daimi işlə təmin olunub. Bu cür layihələr həmçinin bölgədə yeni iqtisadi mərkəzlərin formalaşmasına, məşğulluğun artmasına yol açır".

Komitə sədri qeyd edib ki, bütün genişmiqyaslı və ardıcıl tədbirlərin nəticəsi olaraq bu gün işğaldan azad edilmiş torpaqlarda həyat tədricən bərpa olunur, sosial və iqtisadi fəallıq yüksəlir. Dövlətin yaratdığı təhlükəsiz və müasir yaşayış mühiti insanların doğma yurdlarına qayıdışını sürətləndirir, bölgədə dayanıqlı məskunlaşma təmin olunur. Görülən işlərin nəticəsidir ki, hazırda 73 min insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır ki, bu da həyata keçirilən siyasətin real nəticələr verdiyini aydın şəkildə nümayiş etdirir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sülh prosesi yeni və məhsuldar dönəmə qədəm qoyub

**Ötən il avqustun 8-də Vaşinqtonda sülh sazişi layihəsinin paraflanmasının ardınca regionda yaranan yeni geosiyasi şərait, daha doğrusu, Azərbaycan Prezidentinin təşəbbüsləri üzərində qurulmuş sülh prosesinin tamamilə yeni və məhsuldar dönəmə qədəm qoyması, o cümlədən proseslərin sonrakı axarının məhz ölkəmizin beynəlxalq hüquqa əsaslanan şərtlərində ehtiva olunan status-kvoda təmin olunması 2026-cı ilin real sülh ili olması üçün praqmatik bazis yaradıb.**

Bundan başqa, ötən ilin sonunda Azərbaycan və Ermənistan arasında tranzit məhdudiyyətlərinin aradan qaldırılması ilə bağlı razılaşma, habelə sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində komissiyaların fəaliyyətinin kəsintisiz davam etməsi, vətəndaş cəmiyyəti institutlarının xalqlar arasında etimad mühitinin formalaşdırılması istiqamətində səylərinə dövlətlər tərəfindən ciddi dəstəyin verilməsi, vətəndaş cəmiyyəti institutunun nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkil olunması 2025-ci ildən növbəti sülh üçün münbit mərhələyə çevriləcəyini demək üçün əsaslar yaradır.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, 2026-cı il başladıqdan sonra isə hər iki dövlətdən istər liderlər, istər xarici işlər nazirləri, istərsə də digər səviyyələrdə müsbət ritorikanın davam etdirilməsi, o cümlədən Azərbaycan Prezidentinin Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xalqa müraciətində, habelə yanvar ayının 5-də yerli televiziya kanallarına müsahibəsində sülhün əsas təminatçısı kimi Azərbaycanın hərbi gücünün və siyasi nüfuzunun daha da artmasını xüsusi qeyd etməsi, əslində, proseslərin sülhün əsas təşəbbüskarı olan ölkəmizin müəyyən etdiyi gündəlik formatında davam etdirilməsi üçün vacib olan iradəni bir daha göstərdi. Bu da cari il ərzində arzuolunan sülh sazişinin imzalanmasının perspektivlərini gücləndirir: "Azərbaycanın öz ərazisindən Ermənistana tranzit yüklərinə qoyduğu məhdudiyyəti ləğv etməsinin nəticəsi olaraq Ermənistanda daxili bazarda hiss olunan ciddi dəyişikliklər bu reallığın Ermənistan hakimiyyəti tərəfindən dəfələrlə dilə gətirilməsi və Azərbaycana təşəkkür edilməsi sülh və etimad quruculuğu istiqamətində 2026-cı il üzrə növbəti mərhələ kimi tarixə düşdü. Bundan başqa, cinayətləri məhkəmə qaydasında sübut olunmuş 4 erməni məhkumun Ermənistana təhvil verilməsi Azərbaycan dövlətinin cənab İlham Əliyevin təşəbbüsləri üzərində qurulmuş sülh, sabitlik, əməkdaşlıq mühiti, o cümlədən birbaşa dialoqa sədaqətinin göstəricisi kimi xüsusi qeyd edilməli və Bakı ilə İrəvan arasında etimad mühitinin formalaşmasında mühüm mərhələ hesab olunmalıdır.



Deputat qeyd edib ki, proseslərin gedişini Azərbaycan diktə edir, ölkəmizin təklif etdiyi gündəlik üzrə, ikitərəfli və vasitəçisiz dialoq fayda verir: "Üstəlik, müharibədən sonrakı dövrdə dəfələrlə sübut olunub ki, proseslərin hərəkətverici qüvvəsi kimi Azərbaycan dövlətinin bütün kompromis xarakterli addımları miqyasca daha böyük maraqlarımızın təmininə yönəlib və regional xarakterli nəticələrlə müşahidə olunub. Azərbaycanın sülh təşəbbüslərinin əsaslandığı vacib şərtlərdən olan kommunikasiyaların açılması, Naxçıvana maneəsiz gediş-gəlişin təmin olunması istiqamətində razılığın əldə olunması, bu istiqamətdə istər Vaşinqtonda, daha sonra isə Ermənistan Baş nazirinin bir neçə dəfə nitqində, o cümlədən hökumət komissiyasının fəaliyyətində müsbət və real impulsların müşahidə olunması xüsusi qeyd ediləcək məqamlardır. Təbii ki, 30 illik müharibə və Ermənistanın dövlət siyasəti çərçivəsində Azərbaycan dövlətinin və xalqının maraq və mənafelərinə qarşı çoxsaylı cinayətlər fonunda qısa müddətdə real sülh ab-havası barədə danışmaq sadəlövhlük olar. Lakin Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin bərqərar edilməsinə dair sazişin paraflanması və de-fakto sülhün de-yure prosesə çevrilməsi istiqamətində real addımlar, prosesi ləngidə biləcək amil kimi Ermənistandakı seçkiləri də nəzərə alsaq, ilin ikinci yarısından etibarən sülh gözləntilərinə olan inamı daha da artırmaqdadır".

B.Məhərrəmov deyib ki, Azərbaycan və Ermənistan arasında davam edən sülh prosesi ölkəmizin Vətən müharibəsi və antiterror tədbirlərində qazandığı böyük hərbi-siyasi zəfərlər və diplomatik qələbələrlə formalaşan reallığın və Prezident İlham Əliyevin təşəbbüsləri üzərində qurulmasına baxmayaraq, qlobal müstəvidə və regional səviyyədə yaşanan proseslərlə bu və ya digər formada əlaqəlidir. Yəni regionumuz beynəlxalq proseslərdən təcrid olunmadığı üçün bütövlükdə qlobal arxitekturada müşahidə olunan dəyişikliklər və hadisələrin inkişaf tendensiyaları Bakı və İrəvan arasında sülh prosesinə də təsirsiz ötüşə bilməz. "Təbii ki, Azərbaycan dövləti bu reallığın fərqindədir və əminliklə deyə bilərik ki, ölkəmiz proseslərin istənilən ssenari üzrə inkişafına bütün aspektlərdən hazırdır və heç bir geosiyasi kataklizm regionda cənab İlham Əliyevin liderliyində formalaşan status-kvonu məcrasından döndərə bilməz. Əksinə, regionda hadisələrin inkişaf tendensiyaları nəticəsində fərqli mənzərə meydana çıxarsa, Azərbaycan yeni geosiyasi arxitekturadan faydalanan azsaylı subyektlərdən biri olacaq", - deyə deputat əlavə edib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Dövlət Gömrük Komitəsinin sədri Cəlilabad şəhərində vətəndaşları qəbul edib



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbirlər görürlər.**

Yanvarın 16-da Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Cəlilabad rayon Heydər Əliyev Mərkəzində Cəlilabad, Masallı, Biləsuvar və Salyan rayonlarından olan vətəndaşları qəbul edib.

DGK sədri qəbuldan öncə Cəlilabad şəhərinin mərkəzində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Cəlilabad, Masallı, Biləsuvar və Salyan rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

# DGK sədri "Biləsuvar" gömrük postunda mövcud vəziyyətlə tanış olub

**Yanvarın 16-da Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov "Biləsuvar" gömrük postunda mövcud vəziyyətlə tanış olub.**



Gömrük nəzarətinin səmərəliliyinin artırılması, sərhədkeçmə və rəsmiləşdirmə proseslərinin asan və sürətli şəkildə həyata keçirilməsi, eləcə də nəqliyyat və yük axınlarının idarə edilməsi, xidmət səviyyəsinin yüksəldilməsi ilə bağlı tapşırıq və tövsiyələr verilib.

# Kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə Komissiyanın ötən ilin yekunlarına dair iclası keçirilib

**Kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair ümumi və xüsusi tələblərə riayət olunması vəziyyətinin yoxlanılmasını təşkil etmək üçün yaradılmış Komissiyanın 2025-ci ilin yekunlarına dair iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) əməkdaşlarından ibarət birgə Komissiyanın iclasında kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə cari vəziyyət, il ərzində aparılmış qiymətləndirmələrin nəticələri, habelə mövcud risklər müzakirə olunub, 2026-cı il üzrə əsas funksional hədəflər müəyyən edilib.

Bildirilib ki, DTX və XRİTDX əməkdaşlarının iştirakı ilə yerində aparılmış qiymətləndirmələr zamanı bəzi subyektlər tərəfindən təqdim edilən daxili audit hesabatlarında əks olunmuş vəziyyət ilə faktiki durum arasında uyğunsuzluqlar aşkarlanıb. Qeyd olunanlar əsas götürülərək kritik informasiya infrastrukturu obyektləri üzrə kibertəhlükəsizliyin möhkəmləndirilməsi üçün mərkəzləşmiş nəzarət mexanizmlərinin səmərəliliyinin artırılmasının vacibliyinə diqqət çəkilib.

İclasda həmçinin müvafiq hüquqi-normativ mexanizmlərin tətbiqi, həyata keçirilmiş tədbirlər, kibertəhdid məlumatlarının mübadiləsi və beynəlxalq əməkdaşlıq üzrə praktik nəticələr müzakirə edilib.

Eyni zamanda mövcud çağırışlar nəzərə alınaraq, kritik informasiya infrastrukturunun təhlükəsizliyi ilə bağlı hüquqi-normativ bazanın inkişaf etdirilməsi, xüsusilə təhlükəsizlik tələblərinin təkmilləşdirilməsi istiqamətində təkliflər müzakirə olunub.

İclasın yekununda kritik informasiya infrastrukturunun təhlükəsizliyinə dair hazırlanmış yekun hesabat qəbul edilib.

# Baş prokuror Şirvan şəhərində vətəndaşların müraciətlərini dinləyib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 16-da baş prokuror Kamran Əliyev Şirvan Şəhər Prokurorluğunun inzibati binasında Şirvan şəhərindən, Hacıqabul, Salyan, Neftçala və Biləsuvar rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rayonun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 28 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

# Türkiyə prokuror və hakimlərindən ibarət nümayəndə heyəti ölkəmizdə səfərdədir



**Yanvarın 16-da İstanbul şəhəri baş prokurorunun müavini Can Tuncayın rəhbərlik etdiyi prokuror və hakimlərdən ibarət nümayəndə heyətinin Azərbaycan Respublikasına, o cümlədən Bakı şəhərinə işgüzar səfəri reallaşdırılıb. Səfərin məqsədi prokurorluq orqanları arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi, institusional təcrübə mübadiləsinin aparılması və hüquqi sahədə əlaqələrin daha da möhkəmləndirilməsi olub.**

Səfər çərçivəsində qonaqlar Bakı Şəhər Prokurorluğunda olublar.

Qonaqları qəbul edən Bakı şəhər prokuroru Elşən Abbasov prokurorluq orqanlarının fəaliyyəti, idarəetmə sistemi, struktur quruluşu və səlahiyyət dairəsi, habelə istintaq, prosessual nəzarət və vətəndaş müraciətlərinə baxılması mexanizmləri barədə onlara ətraflı məlumat verib.

Görüşdə hər iki ölkənin prokurorluq orqanlarının fəaliyyətinə dair qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, hüquqi sahədə təcrübə mübadiləsinin institusional əməkdaşlığın inkişafında mühüm rol oynadığı vurğulanıb.

Nümayəndə heyətinə "Elektron Prokurorluq" İnformasiya Sisteminin fəaliyyəti, sistem çərçivəsində tətbiq edilən müasir rəqəmsal həllər, elektron xidmətlər, vətəndaş müraciətlərinin operativ, şəffaf və effektiv şəkildə icrasına imkan verən mexanizmlər barədə geniş təqdimat keçirilib. Sözügedən sistemin funksionallığı, məlumatların inteqrasiyası imkanları və innovativ yanaşmaları qonaqlarda xüsusi maraq doğurub, rəqəmsallaşma sahəsində təcrübə mübadiləsinin gələcək əməkdaşlıq baxımından faydalı olacağı qeyd edilib.

Səfər proqramına uyğun olaraq nümayəndə heyəti Azərbaycan Respublikasının baş prokuroru cənab Kamran Əliyev tərəfindən qəbul edilib. Görüş zamanı Azərbaycan və Türkiyə arasında mövcud olan strateji tərəfdaşlıq, dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə olması vurğulanıb, bu münasibətlərin hüquq-mühafizə orqanları, xüsusilə prokurorluq qurumları arasında əlaqələrin daha da dərinləşməsinə və qarşılıqlı fəaliyyətin genişləndirilməsinə əlverişli şərait yaratdığı bildirilib.

Baş prokuror həmçinin İstanbul Şəhər Prokurorluğu tərəfindən Qarabağ Universitetinin kitabxanasına hüquq sahəsinə dair xeyli sayda elmi və tədris vəsaitinin bağışlanmasını məmnunluq hissi ilə qeyd edib, bu təşəbbüsün gənc hüquqşünasların hazırlanması, elmi-tədqiqat fəaliyyətinin təşviqi və hüquqi biliklərin artırılması baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb, göstərilən diqqət və dəstəyə görə öz təşəkkürünü ifadə edib.

Tərəflər arasında hüquqi sahədə mövcud əlaqələrin daha da möhkəmləndirilməsinin, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsinin, peşəkar kadrların hazırlığı, təlim proqramlarının təşkili və institusional təcrübə mübadiləsinin intensivləşdirilməsinin vacibliyi vurğulanıb. Gələcək dövrdə əlaqələrin davam etdirilməsi, birgə təşəbbüslərin həyata keçirilməsi və əməkdaşlığın yeni formatlar üzrə inkişaf etdirilməsi barədə razılıq ifadə olunub.

# Bakı Hindistanda siqhlərə və digər azlıqlara qarşı zorakılıq mövzusunda beynəlxalq konfransa evsahibliyi edib

**Yanvarın 16-da ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş "Hindistanda siqhlərə və digər milli azlıqlara qarşı irqçilik və zorakılıq: mövcud reallıqlar" adlı beynəlxalq konfrans keçirilib.**




AZƏRTAC xəbər verir ki, konfransdan əvvəl 1984-cü ildə Hindistan hökuməti tərəfindən həyata keçirilmiş "Mavi Ulduz əməliyyatı"nda həlak olan siqhlərin xatirəsinə həsr edilmiş sərgi təşkil edilib. Sərgidə siqh xalqının inancında müqəddəs sayılan əşyalar nümayiş olunub. Daha sonra 2023-cü ildə Kanadada terror hücumu ilə qətlə yetirilmiş Hardip Singh Nijjar və Xalistan hərəkatının digər üzvlərinin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru Abbas Abbasov BTQ-nin müasir dövrdə müstəmləkəçiliyin müxtəlif formalarının təsirinə məruz qalan xalqlara davamlı dəstək verdiyini, həmin xalqların pozulmuş hüquqlarının müdafiəsi istiqamətində beynəlxalq fəaliyyətdən danışıb.

Təşkilatın beynəlxalq arenada qazandığı uğurları əks etdirən videoçarx nümayiş etdirilib.

Tədbirdə BTQ tərəfindən hazırlanmış Hindistan hökumətinin sıqhlərə qarşı törətdiyi hüquq pozuntuları və cinayətlər, eləcə də digər etnik azlıqların üzləşdiyi sistemli ayrı-seçkiliyə həsr edilmiş qısametrajlı film iştirakçılara təqdim edilib.

Dünyanın müxtəlif ölkələrini təmsil edən siqh icmasının nümayəndələri "Siqhlərə qarşı ayrı-seçkiliyin mənşəyi və siqh diasporunun azadlıq uğrunda mübarizəsi" mövzusunda geniş fikir mübadiləsi aparıblar. Hindistan hökumətinin repressiv siyasəti nəticəsində doğma vətənlərini tərk edərək, hazırda Kanada, ABŞ, Böyük Britaniya və digər ölkələrdə məskunlaşmış siqhlərin və digər azlıqların vəziyyəti, siqh fəallarına qarşı dövlət səviyyəsində terror aktları, eləcə də Hindistanda təzyiq və məhdudiyyətlərlə üzləşən siqh icmasının əsas siyasi, hüquqi və təhlükəsizlik problemləri müzakirə olunub. Hindistanın zorakılıq, hədə-qorxu siyasətinin yaratdığı regional və beynəlxalq təhlükəsizlik riskləri və bu hallara qarşı beynəlxalq hüquq mexanizmlərindən istifadə imkanları qeyd edilib.

Konfransda Hindistan hökumətinin BMT-nin "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt", "İrqçiliklə mübarizə üzrə beynəlxalq konvensiya" və "İşgəncələrə qarşı konvensiya" üzrə öhdəliklərinin etnik azlıqlara münasibətdə kobud şəkildə pozulması məsələləri müzakirə olunub. Real vəziyyətin beynəlxalq təşkilatların gündəliyində saxlanılması və müvafiq qərarların qəbul olunmasına çağırış edilib. BMT-nin İnsan Hüquqları Komitəsi tərəfindən Hindistanda etnik azlıqların pozulmuş hüquqlarının sənədləşdirilməsi və beynəlxalq monitorinqə çıxarılması imkanları ətrafında diskussiyalar aparılıb.

Beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarının və akademik çevrələrin bu prosesdə rolu, onların hazırladığı hesabatların, hüquqi rəylərin və tövsiyələrin beynəlxalq qərar qəbuletmə mexanizmlərinə təsiri imkanları da müzakirə mövzusu olub.

# WUF13 ərəfəsində Azərbaycan və BMT-nin Məskunlaşma Proqramı mühüm nailiyyətə imza atıb

**BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən təmsil olunan Birləşmiş Millətlər Təşkilatı (BMT) və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Memarlıq Komitəsi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti arasında Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə bağlı bütün təşkilati məsələləri ehtiva edən mühüm saziş imzalanıb.**

AZƏRTAC xəbər verir ki, Ev Sahibi Ölkə Sazişi əsasında hazırlanmış bu razılaşma BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Memarlıq Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev tərəfindən Cenevrədə imzalanıb.

Bu sənədin imzalanması 2026-cı il mayın 17-22-də Bakıda "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu altında keçiriləcək WUF13-ə hazırlıq prosesində mühüm mərhələni ifadə edir. Sözügedən saziş 2023-cü ilin dekabrında imzalanmış ev sahibliyinə dair Sazişin məntiqi davamı olmaqla, tədbirin hazırlanmasını praktiki mərhələyə keçirir.

Anar Quliyev UN-Habitat və Azərbaycan arasında səmərəli əməkdaşlığı və şəhərsalmanın inkişafı sahəsində birgə layihələri yüksək qiymətləndirdiyini bildirib. O, Qarabağ və Şərqi Zəngəzur bölgələrində üç Milli Şəhərsalma Forumunun təşkili, eləcə də Ümumdünya Məskunlaşma Günü münasibətilə 2023-cü ildə Bakıda keçirilmiş tədbirlərin bunu təsdiqlədiyini qeyd edib.

O əlavə edib: "Bu gün Azərbaycan insan mərkəzli "ağıllı şəhərlər" üzrə beynəlxalq təlimatların hazırlanmasına dair Qlobal Ekspert İşçi Qrupunda iştirakı və "Hər kəs üçün münasib mənzil" qətnaməsi üzrə Hökumətlərarası İşçi Qrupunda həmsədrlik etməsi vasitəsilə qlobal şəhərsalma gündəliyinin formalaşmasına fəal töhfə verir. UN-Habitat ilə tərəfdaşlığımızın ardıcıl şəkildə inkişaf etdirilməsi möhkəm zəmin yaradacaq və dayanıqlı, inklüziv və insanyönümlü şəhərlərin təşviqinə töhfə verəcək".

UN-Habitat-ın icraçı direktoru Anaklaudia Rossbax bu mühüm toplantıya evsahibliyi etdiyinə görə Azərbaycan Respublikası Hökumətinə təşəkkür edib: "Azərbaycanın liderliyi və tərəfdaşlığı Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) hazırlıq prosesinin mərkəzində dayanır və biz bu davamlı əməkdaşlığa görə öz minnətdarlığımızı bildiririk. Biz təqribən 3 milyard insanı, o cümlədən qeyri-rəsmi yaşayış məntəqələrində yaşayan 1,1 milyard insana təsir edən qlobal mənzil böhranını birlikdə həll etməliyik".

Bakı şəhərinin WUF13-ün ev sahibi elan edilməsindən sonra 2023-cü il dekabr ayında Azərbaycan və BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) arasında Ev Sahibi Ölkə Sazişi imzalanıb. Bu saziş qlobal konfransın ev sahibi ölkədə təşkili üçün hüquqi konsepsiyanı müəyyən etməklə yanaşı, həm təşkilati, həm də planlaşdırma məsələlərinin böyük əksəriyyəti üçün əsas olub.

Qeyd edək ki, 2001-ci ildə BMT tərəfindən yaradılmış Ümumdünya Şəhərsalma Forumu sürətli urbanizasiyanın şəhərlər, icmalar, ölkələr və iqlim dəyişmələrinə təsirlərini araşdırmaq məqsədilə təşkil olunan aparıcı qlobal konfransdır. Forum öz fəaliyyətinə 2002-ci ildə Keniyanın Nayrobi şəhərində keçirilən ilk sessiya ilə başlayıb və o vaxtdan bəri dünyanın müxtəlif şəhərlərində təşkil olunur.

**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin uğurlu mövqeyinin formalaşması zəngin, dinamik və tarazlı xarici siyasətdən daha çox asılıdır. Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirdiyi xarici siyasəti ölkəmizin milli maraqlarının qorunmasına, suverenliyinin möhkəmləndirilməsinə və beynəlxalq nüfuzunun artırılmasına yönəlib. Bu siyasət praqmatizm, çoxvektorlu yanaşma və qarşılıqlı fayda prinsipləri əsasında qurulub.**



# Azərbaycanın xarici siyasəti dünyadakı reallığın diktəsi fonunda

## Prezident İlham ƏLİYEV: "Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də güclü olmalıyıq"

Digər tərəfdən, ölkəmizin təkcə regionda deyil, onun hüdudlarından kənarda olan proseslərə də təsir və nüfuz edə bilən geosiyasi vahidə çevrilməsi dövlətimizə bir sıra qlobal hadisələrin vacib aktoru qismində çıxış etməyə imkan verir. Gündəmdəki proses və hədəflər rəsmi Bakının yiyələndiyi orta güc statusunun tələb və ünsiyyətindən irəli gələn gerçəkliyin diktə etdiyi formatdır.

Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəsində Azərbaycanın xarici siyasətinin strateji prioritetlərindən biri olan regional əlaqələrin gücləndirilməsi və tranzit imkanlarından maksimum istifadənin mühüm yer tutduğu qeyd olundu. Bu baxımdan, Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimiz önəmli nailiyyət kimi dəyərləndirildi: "Hesab edirəm ki, bu da nadir hadisə sayıla bilər. Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik". Eyni zamanda qeyd olundu ki, bu, hazırda təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün vacib şərt sayılır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi baxımdan birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır.

Ölkəmiz Mərkəzi Asiya ilə həm ikitərəfli, həm də çoxtərəfli layihələrdə fəal iştirak edir. Bu əməkdaşlıq sahələrindən əsası nəqliyyat və logistika sahəsidir. Mərkəzi Asiya dövlətləri ilə birgə reallaşdırılan layihələr, o cümlədən dəmir yollarının tikintisi, yükdaşımaların təşkili və infrastrukturun inkişafı Azərbaycanın regional tranzit mərkəzi kimi mövqeyini gücləndirir. Artıq Azərbaycan ərazisindən 100 min konteyner keçib və bu göstəricinin yaxın gələcəkdə dəfələrlə artacağı gözlənilir.

Zəngəzur dəhlizi (TRIPP) bu baxımdan strateji əhəmiyyət daşıyır. Dəhliz yalnız Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında əlaqə yaratmır, həm də beynəlxalq tranzit üçün açıq, etibarlı və rəqabətqabiliyyətli yol təqdim edir. Müsahibədə vurğulandığı kimi, dəmir yolu marşrutlarının istifadəyə verilməsi Azərbaycanın yükdaşımada rəqabət üstünlüyünü artırır, tranzit marşrutlarının inhisarlaşdırılmasının qarşısını alır və tariflərin rəqabətliyini təmin edir.

Energetika sahəsində Mərkəzi Asiya ilə əməkdaşlıq Azərbaycanın strateji mövqeyini daha da möhkəmləndirir. Məlum olduğu kimi, 2024-cü ilin noyabr ayında Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri Bakıda enerji kabelinin tikintisi ilə bağlı müqavilə imzalamışlar. Bu layihə, o cümlədən fiber-optik kabellərin Xəzər dənizinin dibi ilə çəkilməsi, regionda enerji və informasiya infrastrukturunun inteqrasiyasını gücləndirir. Prezidentin də vurğuladığı kimi, bu təşəbbüslər yalnız iqtisadi fayda gətirmir, həm də ölkəmizin regional lider mövqeyini təsdiqləyir.

Azərbaycanın Mərkəzi Asiya ilə əlaqələri yalnız iqtisadi və logistika sahəsi ilə məhdudlaşmır. Eyni zamanda siyasət, elm, təhsil, mədəniyyət və hərbi-texniki əməkdaşlıq sahələrini də əhatə edir. Qarşılıqlı təhlükəsizlik təşəbbüsləri isə Azərbaycanın regional gücünü və dayanıqlığını artırır, dövlətimizin beynəlxalq hüquq və regional sabitlik prinsiplərinə sadiqliyini göstərir.

Prezident İlham Əliyev ötən ilin noyabrında Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət görüşündəki çıxışında qeyd etmişdir ki, Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır: "Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik".

Xarici səfərlər və beynəlxalq tədbirlər də Azərbaycanın qlobal səviyyədə rolunu gücləndirir. Ötən il dövlətimizin başçısının çoxsaylı xarici səfəri olub. Bir çox beynəlxalq forum və zirvə görüşü isə Azərbaycanda keçirilib. Xüsusilə Şuşa, Ağdam və Xankəndidə təşkil olunan forumlar həm diplomatik, həm iqtisadi, həm də mədəni əlaqələrin inkişafına xidmət göstərir.

Türk Dövlətləri Təşkilatının Zirvə görüşləri də regionda Azərbaycanın liderliyini göstərir. Qəbələdə keçirilən rəsmi və Şuşada təşkil olunan qeyri-rəsmi zirvə görüşləri türk dünyasının birliyini möhkəmləndirir və Azərbaycan tərəfindən irəli sürülən təşəbbüsün əhəmiyyətini ortaya qoyur. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu addımlar yalnız diplomatik rəmz deyil, həm də regionda strateji təsirin artırılması məqsədini daşıyır.

Nəticə etibarilə Mərkəzi Asiya və regional diplomatik təşəbbüslər, nəqliyyat və logistika layihələri Azərbaycanın xarici siyasətində strateji prioritetlərdən biri kimi çıxış edir. Prezident İlham Əliyev müsahibəsində qeyd etdiyi kimi, bu yanaşma Azərbaycanı regional lider və etibarlı tərəfdaş kimi möhkəmləndirir, ölkəmizin iqtisadi potensialını artırır və beynəlxalq səviyyədə nüfuzunu genişləndirir.

### Beynəlxalq missiya: sülhməramlı əməliyyatlarda iştirak

Müsahibədə regional münaqişələr və Azərbaycanın beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakı ilə bağlı suala cavab olaraq bildirildi ki, bizə belə müraciətlər daxil olub. "Təbii, bununla bağlı qərar qəbul etməzdən əvvəl biz aydın şəkildə başa düşməliyik ki, əməliyyatların mandatı necə olacaq və hansı növ əməliyyatlar ola bilər". Ölkəmiz müharibə riskinə qarşı hazırdır, çünki vətəndaşlarımızın həyatını və ərazilərimizin bütövlüyünü qorumağı prioritet hesab edir.

Ümumən ölkəmiz xarici siyasətində beynəlxalq missiyalarda iştirakı diqqətlə seçir və onu strateji məqsədlərə uyğun həyata keçirir. Prezident İlham Əliyev müsahibəsində də xatırlatdığı kimi, ölkəmiz İraqda, Kosovoda və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak təcrübəsinə malikdir. Bu təcrübə Azərbaycanın beynəlxalq hüquq və humanitar prinsiplərə sadiqliyini göstərir. "Bu, sülhməramlı əməliyyatlar, yaxud sülhün bərqərar olması - ingiliscə deyildiyi kimi, "peacekeeping" və ya "peace enforcement" olacaq. Bunlar iki ayrı-ayrı məfhumlardır. Təbii ki, biz ikinciyə hazır deyilik və hətta heç vaxt öz iştirakımızı nəzərdə tutmamışıq. Əfqanıstanda bizim sülhməramlı missiyamıza gəldikdə, xoşbəxtlikdən və o cümlədən mövqeyimiz sayəsində bizim heç bir zərərçəkənimiz olmadı. Yəni bütün bu illər ərzində qurban vermədik, məhz ona görə ki, öz funksiyamızı strateji obyektlərin qorunmasında görürdük. Biz heç vaxt döyüş əməliyyatlarında iştirak etmədik və Azərbaycanın hüdudlarından kənarda döyüşlərdə iştirak etmək mənim tərəfimdən, ümumiyyətlə, nəzərdə tutulmur", - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycanın indiyədək iştirak etdiyi bütün missiyalar əsasən sülhməramlı xarakter daşıyıb. Ölkəmiz heç vaxt döyüş əməliyyatlarına birbaşa qoşulmayıb və bu siyasət strateji olaraq qorunub. Belə yanaşma Azərbaycanın milli maraqlarını və vətəndaşlarının həyatını qorumaq prinsipinə əsaslanır. "…Mənim ölkəm təcavüzdən zərər görüb, Birinci Qarabağ müharibəsində böyük qurbanlar verib. Bununla belə, az olmasına baxmayaraq, İkinci Qarabağ müharibəsində də qurbanlar olub. Azərbaycanın hər bir vətəndaşı bizim üçün qiymətlidir. Biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik. Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi".

Qəzza sektorunda və digər Yaxın Şərq regionlarında mümkün iştirak məsələsinə gəldikdə, Prezident İlham Əliyev açıq şəkildə deyib: "…Mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir. İndiyədək dərindən inanıram ki, qeyri-ərəb müsəlman ölkələr parovozun önündə qaçmamalıdır. Bu, heç bir yaxşı nəticə verməz. Ərəb Liqası var, Ərəb Liqasının mövqeyi mövcuddur, o, yetərincə aydındır və biz buna uyğun hərəkət edirik. İslam Əməkdaşlıq Təşkilatının qərarları var və biz də, o cümlədən bu qərarları qəbul etmişik və buna əməl edirik".

Bəli, Azərbaycan yalnız hüquqi əsaslara malik əməliyyatlarda iştirak edəcək. Bu, ölkəmizin regional proseslərdə məsuliyyətli və strateji mövqedə olduğunu göstərir. Hər hansı lazımsız fəallıq və ya "parovozun önündə qaçmaq" kimi riskli addımlar Azərbaycanın xarici siyasətimizdə yolverilməz hesab olunur. Azərbaycanın mövqeyi aydın və qətiyyətlidir: istənilən əməliyyat və ya missiyada iştirak yalnız milli maraqlar və strateji məqsədlər çərçivəsində mümkün ola bilər.

Bu yanaşma Azərbaycanın xarici siyasətinin əsas prinsiplərindən birini təşkil edir: sülhpərvərlik və regional sabitliyə töhfə vermək. Ölkəmiz BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq platformalarda Fələstinin dəstəklənməsi və digər beynəlxalq məsələlərdə prinsipial mövqeyini qoruyur. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın sülhməramlı fəaliyyəti milli maraqları, strateji təhlükəsizlik və beynəlxalq hüquq prinsipləri ilə uzlaşır.

Azərbaycanın bu siyasəti həm də ölkənin beynəlxalq imicini gücləndirir. Strateji obyektivlər və milli təhlükəsizlik maraqları əsasında hərəkət edən Azərbaycan həm regional, həm də qlobal səviyyədə etibarlı tərəfdaş kimi qəbul olunur və bununla həm diplomatik münasibətlərdə dayanıqlığını artırır, həm də strateji layihələrdə daha fəal rol alır.

"Biz hər zaman həqiqətə sadiq olmuşuq, həmçinin hər zaman ədalətə sadiq olmuşuq. Biz heç vaxt ədalətə uyğun olmayan heç bir şey etməmişik. Gördüyümüz bütün işlər tarixi, hüquqi və insani ədalətə əsaslanıb. Lakin dünya dəyişib. Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də güclü olmalıyıq, biz də bunu etməyə çalışırıq", - deyə Prezident İlham Əliyev müsahibəsində xüsusi vurğulayıb. Ona görə də bu gün Azərbaycanın xarici siyasətində əsas prioritetlər güc və məsuliyyət balansını qorumaqdır. Belə bir mövqe həm regionda sabitliyə, həm də Azərbaycanın beynəlxalq nüfuzunun güclənməsinə xidmət edir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Türkiyə Azərbaycanla birgə Suriyanın bərpasına töhfə verməyə çalışır"

**"Türkiyə enerji resurslarını münaqişə və ziddiyyət mənbəyi kimi deyil, sülhə və qarşılıqlı rifahın artmasına aparan körpü kimi dəyərləndirir".**



AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar ölkənin şimal-şərqində yerləşən Rizə vilayətində keçirilən "Ayder" Beynəlxalq Enerji Forumunda çıxışı zamanı bildirib.

Nazir qonşu Suriya nümunəsini xatırladaraq qeyd edib ki, uzun illər davam edən qanlı münaqişə dövründən sonra bu ölkədə bərpa və normallaşma prosesi başlayıb. "Bu gün Türkiyə Azərbaycanla birgə Suriyanın yenidən inkişafı məqsədilə bu ölkəyə qaz nəql edir. Eyni zamanda suriyalılara elektrik enerjisi veririk, müxtəlif sahələrdə çoxsaylı layihələr həyata keçiririk. Bununla da enerji resurslarından sülh və inkişaf naminə istifadə edirik", - deyə nazir vurğulayıb və "qarşılıqlı fayda" prinsipinə xüsusi diqqət çəkib.

Energetika naziri Türkiyənin xarici mənbələrdən enerji asılılığını minimuma endirməyə çalışdığını, bununla paralel olaraq xaricdə birgə təşəbbüslər reallaşdırdığını bildirib.

"Son 20 il ərzində Türkiyə iqtisadiyyatının elektrik enerjisi və təbii qaza olan tələbatı üç dəfə artıb. Proqnozlara əsasən, qarşıdakı 30 ildə ölkəmizdə elektrik enerjisi istehlakı daha üç dəfə artacaq", - deyə A.Bayraktar bildirib və müəyyən illərdə Ankaranın enerji resurslarının idxalına çəkdiyi xərclərin 60-70 milyard dolları dək çatdığını qeyd edib.

Nazir əlavə edib ki, Türkiyənin enerji şirkətləri Afrikadan və Yaxın Şərqdən Mərkəzi Asiyaya qədər dünyanın müxtəlif bölgələrində layihələr həyata keçirir.

A.Bayraktar atom enerjisinin inkişafının əhəmiyyətinə də toxunaraq, "Akkuyu" Atom Elektrik Stansiyasını "Türkiyə xalqının 70 illik arzusunun təcəssümü" adlandırıb. "Mersin vilayətində yerləşən AES-də elektrik enerjisinin istehsalına bu il artıq başlanılacaq. "Akkuyu"nun dörd reaktorundan birincisi istismara veriləcək. Türkiyənin ilk atom elektrik stansiyası ölkənin ümumi elektrik enerjisi istehsalının 10 faizini təmin edəcək", - deyə nazir bildirib və Sinop və Trakiyada yeni AES-lərin tikintisinə hazır olduqlarını vurğulayıb.

"Bu AES-lər, eləcə də modul tipli atom stansiyaları sayəsində 2050-ci ilə qədər Türkiyə 20 min meqavatadək elektrik enerjisi istehsal edəcək. Biz bu məqsədə çatmaqda qətiyyətliyik", - deyə A.Bayraktar qeyd edib.

Eyni zamanda energetika naziri Ankaranın qonşu ölkələrlə əməkdaşlığın inkişafına, o cümlədən Avropa ölkələrinin enerji tələbatının ödənilməsinə töhfə verməyə hazır olduğunu bildirib.

# Sülh yolunda həlledici mərhələ

**Uzun illər ərzində münaqişə bölgəsi kimi tanınan Cənubi Qafqaz ölkəmizin formalaşdırdığı yeni geosiyasi reallıqlar sayəsində hazırda sülh və əməkdaşlıq ünvanı kimi beynəlxalq səviyyədə diqqət mərkəzindədir. 44 günlük müharibə başa çatdıqdan dərhal sonra Bakının sülh gündəliyinə başlaması və onun irəliyə aparılması üçün praktik müstəvidə atdığı addımlar bölgənin iqtisadi-ticari inkişafı, ümumiyyətlə, regional əməkdaşlıq üçün əhəmiyyətli imkanlar açıb.**

Faktiki olaraq hazırda bölgədə sülh təmin edilib və bu məsələnin de-yure də həllini tapması üçün münbit şərait yetişib.

### Tarixi məqam

Ancaq bu tarixi məqamda İrəvanın hansı siyasi strateji xətti götürəcəyi məsələnin taleyində həlledici rol oynayacaq. Qarşıda bu ölkədə parlament seçkilərinin keçiriləcəyi gözlənilir və nəticələrdən asılı olmayaraq, İrəvan sülh müqaviləsinin imzalanması üçün siyasi iradə nümayiş etdirməlidir. Eyni zamanda parlament seçkilərindən sonra gündəmə gələ biləcək referendum bu mənada vacib əhəmiyyət daşıyır. Bu ölkə ümumxalq səsverməsi ilə konstitusiyasının preambula hissəsindəki Azərbaycana qarşı ərazi iddialarını ləğv etməlidir. Proseslərin bunun əksi yönündə inkişaf edəcəyi təqdirdə sülh müqaviləsinin imzalanması mümkün olmayacaqdır.

Reallıqdır ki, qarşı tərəfin sərgilədiyi qeyri-konstruktiv davranışlar 2024-cü ilə qədər sülh prosesi ilə bağlı demək olar ki, heç bir irəliləyişin əldə olunmamasına gətirib çıxarmışdı. Lakin yenə də Bakının qəti səyləri sayəsində Azərbaycanla Ermənistan arasında normallaşma ilə əlaqədar ötən ilin əvvəlindən etibarən müsbət istiqamətdə müəyyən hadisələr cərəyan etməyə başladı. Birincisi, vasitəçilərə ehtiyac görmədən iki ölkə dialoqlara başladı ki, bu, ən vacib məsələlərdən biri idi. İkitərəfli dialoqlar sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə başlanmasını və bir çox real nəticələri ortaya qoydu. Ardınca Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsinin mətni ətrafında danışıqlar prosesi başladı. Keçən ilin 10 iyul tarixində Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü isə sülh prosesində mühüm əhəmiyyətə malik oldu. Beynəlxalq birlik tərəfindən sülh prosesində vacib məqam kimi qiymətləndirilən Əbu-Dabi görüşü bir növ sülh prosesində dönüş adlandırılacaq tarixi 8 avqust Vaşinqton Zirvəsinə zəmin yaratdı. Ötən il Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin paraflanması bölgəyə de-fakto sülh gətirdi.

Vaşinqton zirvəsinin nəticələrindən biri Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ölkələrimiz arasında münaqişənin nəticələrinin aradan qaldırılması üçün vaxtilə yaradılmış ATƏT-in Minsk prosesi və əlaqədar strukturların bağlanması ilə bağlı birgə müraciəti imzalamaları oldu. Ötən il dekabrın 1-də ATƏT rəsmi olaraq Minsk prosesini başa çatdırdı və onunla bağlı strukturları ləğv etdi.

### Konstruktiv addımlar

Eyni zamanda bölgənin ticari-iqtisadi inkişafı birbaşa kommunikasiyaların açılmasından keçir ki, bu mənada sözügedən tarixdə Ağ Evdə Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı razılaşma əldə edilməsi mühüm əhəmiyyətə malik oldu.

Yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı Prezident İlham Əliyev söylədi ki, Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir: "Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər. Xüsusilə nəzərə alsaq ki, Amerika Prezidenti Tramp bu yola öz adını verib, artıq bu, onun yoludur. Ermənistandan da gələn xəbərlər onu göstərir ki, bu il bu yolun fiziki tikintisi nəzərdə tutulur".

Bu kontekstdə Azərbaycanın sülh prosesi çərçivəsində atdığı konstruktiv addımlar həm də kommunikasiya əlaqələrinə əlavə töhfələr kimi dəyərləndirilməlidir. Ötən il Azərbaycanın Ermənistana tranzit məhdudiyyətlərini aradan qaldırması da buna nümunədir. Qazaxıstan və Rusiyadan Ermənistana qatar vasitəsilə artıq bir neçə dəfə taxıl ixracı edilib. Eyni zamanda dekabrın 19-dan Azərbaycandan Ermənistana neft məhsullarının tədarükünə başlanılıb.

Həmçinin etimad quruculuğu sahəsində irəliləyişlər olub. Belə ki, iki ölkənin vətəndaş cəmiyyətlərinin nümayəndələri İrəvan və Bakıya qarşılıqlı səfərlər ediblər ki, bu, cəmiyyətlərin sülhə hazırlanması üçün vacib prosesdir.

Bu günlər təqsirləndirilən 4 erməniəsilli şəxsin İrəvana təhvil verilməsinin özü də Bakının sülh təşəbbüslərinin real müstəvidə təsdiqini tapmasını göstərən nümunələrdən biridir.

Azərbaycan Xarici İşlər Nazirliyinin 2025-ci ilin yekunlarına dair mətbuat buraxılışında da vurğulanır ki, ərazilərinin 30 ilə yaxın davam edən hərbi işğalına son qoyan Azərbaycan davamlı və qətiyyətli səyləri ilə ötən il Ermənistan ilə de-fakto sülhü beynəlxalq hüquqa uyğun və ədalətli şəkildə təsis edib. Azərbaycanın öz ərazisi üzərində suveren nəzarəti bərpa etməsi reallığı və bunun hər hansı yenidən təftiş mövzusu olmayacağı Ermənistan və bütünlüklə beynəlxalq birlik tərəfindən açıq və birmənalı şəkildə qəbul edilib.

O da qeyd edilir ki, Azərbaycan tərəfi əldə edilmiş bütün razılıqların və götürülmüş bütün öhdəliklərin tam və vaxtında icrasının təmin edilməsini vacib hesab edir: "...Bu kontekstdə, artıq paraflanmış ikitərəfli sazişin imzalanması və ratifikasiyasını təmin etmək üçün Ermənistanın öz konstitusiyasında Azərbaycana qarşı hələ də mövcud olan ərazi iddialarının aradan qaldırılması və TRIPP layihəsi ilə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan MR arasında maneəsiz əlaqənin təmin edilməsi ilə bağlı öhdəliklərin tam icrası xüsusi əhəmiyyət kəsb edir".

Bütün bu nümunələrdən də göründüyü kimi, Bakının öndərliyi ilə regionda real zəmində sülh mühiti formalaşdırılıb. Sadəcə bunu hüquqi çərçivəyə salmaq, sülh müqaviləsini imzalamaq lazımdır. Yəni Prezident İlham Əliyevin təbirincə desək, top artıq Ermənistan tərəfdədir və sülh müqaviləsinin imzalanması İrəvanın qarşıda sərgiləyəcəyi siyasi strategiyadan birbaşa asılıdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Paytaxtın sənaye yükü azalır, bölgələrdə həyat daha da canlanır

## Prezidentin fərmanı ilə yaradılacaq Qərb Sənaye Parkı bu prosesi sürətləndirəcək

**Prezident İlham Əliyev ölkəmizdə daha bir sənaye parkının - Qərb Sənaye Parkının yaradılması haqqında fərman imzalayıb. Yeni sənaye parkı Gəncə şəhərinin və Şəmkir rayonunun ərazisində yerləşəcək.**

Parkın yaradılmasında əsas məqsəd ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara və yerli resurslara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, habelə regionlarda iqtisadi fəallığın və məşğulluğun daha da artırılmasıdır. Qərb Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazi kimi müəyyənləşəcək.

Xatırladaq ki, sənaye parkı sənayenin inkişafı məqsədilə planlaşdırılan və rayonlaşdırılan ərazi kimi nəzərdə tutulmuş məkanlara deyilir. Ölkəmizdə sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Prezidentin 22 yanvar 2021-ci il tarixli fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA) yaradılıb. Agentliyin yaradılmasının əsas məqsədi sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlərin hazırlanması və reallaşdırılması, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsidir.

Ölkəmizdə sənaye parklarının yaradılmasının xronikasına ötəri bir nəzər salmaq da yerinə düşər. Belə ki, 2011-ci il dekabrın 21-də dövlət başçısının müvafiq fərmanı ilə Sumqayıt Sənaye Parkı yaradılıb. Bu parkın ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların (işlərin, xidmətlərin) istehsalı və emalı müəssisələri açılıb. Ölkəmizin və ümumilikdə regionun ən böyük sənaye zonası olan Sumqayıt Sənaye Parkında indiyədək onlarla müəssisəyə rezident statusu verilib.

Elə həmin il yaradılmasına fərman verilmiş Balaxanı Sənaye Parkının fəaliyyətinin isə başlıca hədəfi təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli şəraitin təmin edilməsidir. Balaxanı Sənaye Parkının idarəedici təşkilatı "Təmiz Şəhər" ASC-dir.

Prezident İlham Əliyevin Bakı şəhərinin Qaradağ rayonu ərazisində Qaradağ Sənaye Parkı yaradılması haqqında sərəncamı 2015-ci il iyunun 3-də verilib. "Bakı Gəmiqayırma Zavodu" MMC bu parkın rezidentidir.

Mingəçevir Sənaye Parkı da 2015-ci ildə yaradıldı. Bu barədə dövlət başçısı fevralın 26-da sərəncam imzaladı. Növbəti il sentyabrın 14-də isə ölkəmizdə əsasən əczaçılıq sənayesinin inkişaf etdirilməsi məqsədilə 30 hektar ərazidə Pirallahı Sənaye Parkı yaradılması haqqında sərəncam verildi. Hazırda bu parklarda da rezident kimi qeydiyyatdan keçmiş və fəaliyyətə başlamış müəssisələr var.

Qarabağın dirçəldilməsi, sənaye potensialının inkişaf etdirilməsi məqsədilə dövlət başçısının 28 may 2021-ci il tarixli fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Parkın prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Yeri gəlmişkən, qeyd edək ki, Prezident İlham Əliyev keçən ay Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak etdi.

Bu parkda ümumi investisiyalarının həcmi 312 milyon manatdan çox olan 32 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən sənaye parkına 142 milyon manat sərmayə yatırılıb, 970-ə yaxın daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Sənaye parkının rezidentləri tərəfindən istehsal olunmuş 945 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

Dövlət başçısı Ağdam Sənaye Parkında mebel istehsal edən yeni bir müəssisənin təməlini də qoyub.

Logistik imkanlar baxımından əlverişli ərazidə yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı dövlət başçısının 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə 200 hektar ərazidə yaradılıb. Sənaye Parkında 19 sahibkarlıq subyektinə rezidentlik, 3 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Parkda hazırda 3 müəssisə fəaliyyət göstərir.

Hacıqabul Sənaye Parkının yaradılması haqqında fərman 2024-ci il iyunun 12-də imzalanıb. Park 60 hektar ərazini əhatə edir. Burada 13 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Hazırda parkda 13 müəssisə fəaliyyət göstərir.

2024-cü il dekabrın 5-də Prezident Naxçıvan Muxtar Respublikasında Naxçıvan Sənaye Parkı yaradılması haqqında da fərman imzaladı.

Onu da deyək ki, sənaye parklarının rezidentləri üçün vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlər tətbiq olunur. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanununa uyğun olaraq, onlar qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad edilirlər.

Təbii ki, bunlar yeni yaradılan Qərb Sənaye Parkının rezidentlərinə də aiddir. Bu parkın da fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirəcək.

Parkın fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan İqtisadiyyat Nazirliyinə ilkin olaraq 500 min manat ayrılacaq.

Dövlət başçısının fərmanına əsasən, Nazirlər Kabineti üç ay müddətində parkın fəaliyyəti üçün Gəncə şəhəri Yevlax şosesində yerləşən, Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş "Azəralüminium" MMC-nin istifadəsindəki dövlət mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 81,8 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə agentliyin daimi istifadəsinə verilməsini təmin etməlidir. Şəmkir rayonunun Könüllü kəndi ərazisində yerləşən, bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı 100 hektar torpaq sahəsinin təyinatının dəyişdirilərək normativ hüquqi aktlara uyğun şəkildə Qərb Sənaye Parkının fəaliyyətinə cəlb edilməsi ilə bağlı zəruri tədbirlər görülməsi təmin olunacaq.

İqtisadiyyat Nazirliyinin qarşısında isə parkda istehsal və emal olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən edib Prezidentə məlumat vermək vəzifəsi qoyulub.

Deməli, yaxın zamanlarda daha bir sənaye parkımızda məhsul istehsal olunacaq.

Sənaye paklarımızın sayı artır. Həm də bunların respublikanın ayrı-ayrı rayonlarında açılması təqdirəlayiq haldır. Paytaxtın sənaye yükü azalır, bölgələrdə həyat daha da canlanır, orada yaşayan insanlar üçün yeni iş yerləri açılır. Yeni müəssisələr məhsul istehsal edərək iqtisadiyyatımıza töhfə verir, idxaldan asılılığı azaldır, ixrac potensialını artırırlar.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Heydər Əliyev Mərkəzində Kerol Förmenin sərgisinin açılışı olub








**Heydər Əliyev Mərkəzində amerikalı heykəltaraş-rəssam Kerol Förmenin (Carole Feuerman) "Suda yenidən doğulanlar" ("Reborn into the Water") adlı sərgisinin açılış mərasimi keçirilib.**






AZƏRTAC xəbər verir ki, sərginin açılışında Alena Əliyeva, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, rəsmi qonaqlar, diplomatlar, tanınmış incəsənət xadimləri və digər şəxslər iştirak ediblər.

Mərasimdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, mərkəz bu ili möhtəşəm bir sərgi ilə açır və təqdim olunan layihə ilin ən əlamətdar sərgilərindən olacaq: "Kerol Förmenin yaradıcılığı ilə beynəlxalq sərgilərdə tez-tez rastlaşırdıq və nəhayət, bu əsərləri Azərbaycana gətirə bildik. Eksponatların əksəriyyəti ABŞ-dən, eləcə də Avropanın bir sıra ölkələrindən gətirilib və əsərlərdən biri məhz Bakıda ilk dəfə təqdim olunur", - deyə Anar Ələkbərov bildirib.

Anar Ələkbərov Kerol Förmenin Azərbaycana ilk dəfə səfər etdiyini, artıq ölkəmizin əsl dostuna çevrildiyini və Azərbaycanın dünyada tanıdılmasına mühüm töhfə verdiyini deyərək ona təşəkkürünü bildirib.

Daha sonra çıxış edən heykəltaraş-rəssam Kerol Förmen söyləyib ki, bütün həyatı boyu incəsənət onun əsas ifadə vasitəsi olub, hekayə anlatmaq üçün alətə, ideyaları araşdırmaq üçün yola, duyğuları paylaşmaq üçün isə ən doğma dilə çevrilib.

O vurğulayıb ki, bu möhtəşəm bina və onun memarlığı sərgi üçün ideal məkandır. Heydər Əliyev Mərkəzində hər bir detal sanki suyun ritmini xatırladır, məkanın ümumi forması isə dalğaları andırır. Heykəltaraşın sözlərinə görə, belə bir gözəlliyin qadın memarın ideyası əsasında ərsəyə gəlməsi xüsusilə təsirlidir.

Kerol Förmen qeyd edib ki, sərgidə nümayiş olunan əsərlər su mövzusuna həsr olunub.

"Su insana həyat verir, qidalandırır, təmizləyir və dəyişdirir. Silsilədə suyun çoxşaxəli təbiəti, eləcə də insanın bu vacib ünsürlə qurduğu mürəkkəb münasibətlər müxtəlif bədii yozumlarla təqdim olunub. Xüsusi məna daşıyan əsərlərimdən biri üzgüçü qadın obrazıdır. Bu əsəri həyatımın ən çətin dönəmlərindən birində yaratmışam. Bu obraz mənim üçün yenidən ayağa qalxmağın və dözümlülüyün simvoludur", - deyə o əlavə edib.

Qeyd edək ki, "Suda yenidən doğulanlar" sərgisi həm şəxsi hekayədir, həm də daha geniş sosial düşüncəni əks etdirir.

Heykəltaraş ekspozisiyadakı əsərlər vasitəsilə empatiyanı təşviq etməyi, köhnəlmiş düşüncələri aşmağı hədəfləyir.

Müəllifin "Rut" əsəri isə ictimaiyyətə ilk dəfə məhz Heydər Əliyev Mərkəzində təqdim olunub.

Kerol Förmen güclü realist təsirə malik heykəllər yaratmaqla məşhurdur, üzgüçüləri və rəqqasları təsvir edən fiqurativ heykəlləri ilə tanınır.

Bakıda təqdim olunan "Suda yenidən doğulanlar" ("Reborn into the Water") sərgisi rəssamın 1970-ci illərdəki işlərindən son onilliklərdəki üzgüçü fiqurlarına qədər böyük dövrü əhatə edir.

"Üzgüçülər" seriyası Förmenin incəsənətinin rəmzi ifadəsidir. Qatran, boyanmış bürünc və paslanmayan poladdan hazırlanan heykəllər tamaşaçıları insan bədəninin sarsılmaz gücünü yenidən kəşf etməyə dəvət edir. Rəssam yalnız fiziki gücü nəzərdə tutmur, o, əsərləri ilə həm də şəxsi və ictimai çətinlikləri dəf edən daxili güc barədə düşünməyi vacib bilir.

Kerol Förmenin əsərləri indiyədək dünyanın nüfuzlu məkanlarında sərgilənib. Açıq hava instalyasiyaları Nyu Yorkda "Park Avenue" və "Central Park", Nyu-Orleanda "Poydras Corridor", Parisdə isə "Avenue George V" kimi məkanlarda nümayiş olunub. Bu gün Kerol Förmenin heykəlləri 30-dan çox muzey kolleksiyasını və dünyanın müxtəlif ictimai məkanlarını bəzəyir, özəl kolleksiyalarda saxlanılır.

# Ötən il Azərbaycan üzərindən yüklərin daşınmasında rekord göstərici qeydə alınıb

## Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə daha yüksək göstəricilərin əldə edilməsinə imkan yaranacaq

**Dəfələrlə təkrar olunduğu kimi, Azərbaycan dünyanın mühüm ticarət marşrutlarından olan Orta dəhlizdə açar ölkə statusundadır. Dünya ticarətinin önəmli marşrutunun partnyorlar üçün cəlbedici və səmərəli olmasında ölkəmiz aktiv rol oynayır. Xüsusən marşrutun rəqəmsallaşdırılması və vahid tarifin tətbiqi üçün Azərbaycanın tərəfdaşları ilə apardığı danışıqlar və qəbul etdiyi qərarlar dəhliz üzrə yükdaşımaların həcminin sürətlə artmasını təmin edir.**

Ötən il Orta dəhlizlə Azərbaycan üzərindən aşırılan yüklərin həcmində 2024-cü illə müqayisədə yüksək artım qeydə alınıb. AZCON Holding şirkətlərindən biri olan "Azərbaycan Dəmir Yolları" QSC (ADY) tərəfindən Bakı Beynəlxalq Dəniz Limanında ötən il 100 min TEU konteynerdən çox yük aşırılaraq limanın tarixində rekord göstəriciyə imza atılıb. ADY-dən verilən məlumata görə, 2024-cü illə müqayisədə limanın quruma inteqrasiya edildiyi 2025-ci ildə müvafiq göstəricidə 40 faizə yaxın artım olub.

Ötən il həmçinin Qazaxıstanın "KazMunayQaz" milli şirkətinin (KMQ) törəməsi "Kazmortransflot" Aktau-Bakı-Aktau fider xətti üzrə 20 futluq ekvivalentdə (TEU) 59,4 min konteyner daşınıb. Məlumata görə, daşımaların həcmi 2024-cü illə müqayisədə 15 faizdən çox (51,4 min TEU) artıb. Müsbət dinamika Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzrə daşımalarına tələbin artması ilə şərtlənir.

Ölkəmiz üzərindən daşımaların həcminin ardıcıl şəkildə artması tərəfdaşımız olan "Kazmortransflot" şirkətinin etibarlı dəniz logistikasını təmin etməsi, ixrac-tranzit marşrutlarını şaxələndirməsi və Asiya ilə Avropa arasında multimodal daşımaların inkişafında önəmli rol oynayır.

"Azərbaycan Dəmir Yolları" QSC 2025-ci ildə 392 blok-qatar, o cümlədən 137 tranzit qatar qəbul edib ki, bu da 2024-cü ilin göstəricisi (287 blok-qatar) ilə müqayisədə 37 faiz artım deməkdir. Ötən il ümumilikdə 135300 TEU konteyner yük daşınıb. Bu isə 2024-cü ilin göstəricisindən (114000 TEU) təxminən 19 faiz çoxdur.

Söz düşmüşkən onu da bildirək ki, Azərbaycan ərazisində Orta dəhlizin inşası ilə bağlı əsas hissələrdən biri olan Horadiz-Ağbənd layihəsi artıq 69 faiz icra edilib, avtomobil yolunun icrası isə 95 faizə çatıb. Hər iki yolun bu ilin sonunadək tam istifadəyə verilməsi planlaşdırılıb. Eyni zamanda Naxçıvan Muxtar Respublikasında da nəqliyyat infrastrukturunun modern dəstək edilməsi işlərinə başlanılıb. Xatırladaq ki, Qars-Naxçıvan arasında və Türkiyə ərazisində başlanan işlər, o cümlədən dəmir yolunun inşası Zəngəzur dəhlizinin (TRIPP) imkanlarının tam gücü ilə istifadəsinə şərait yaradacaq.

Ermənistanda da bu məsələyə ciddi yanaşılır və müvafiq addımlar atılır. Xəbər verildiyi kimi, bu günlər Ermənistanla ABŞ arasında Tramp yolu (TRIPP) layihəsinin icrası barədə iki ölkə arasında sənəd imzalanıb. Artıq Ermənistan və Azərbaycan arasında birgə iş görmək üçün mütəxəssislər səviyyəsində görüşlər təşkil olunur. Xəbər verildiyi kimi, yanvarın 15-də Azərbaycan və Ermənistan nümayəndələri tərəfindən Sədərək-Yerasx dəmir yolu sahəsinin cari vəziyyətinə birgə baxış keçirilib. Baxışın məqsədi müvafiq infrastrukturun bərpası tədbirlərinin yerinə yetirilməsi məqsədilə xüsusi dəmir yolu tikintisi texnikasının hərəkəti üçün həmin dəmir yolu sahəsinin texniki cəhətdən yararlığının qiymətləndirilməsi olub. Tərəflər keçirilən baxış çərçivəsində həmin sahədə dəmir yolu infrastrukturunun texniki vəziyyətinin qiymətləndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparıblar.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasəti və postmünaqişə çağırışları

**Azərbaycan Prezidenti İlham Əliyevin bu il yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibə geniş əks-səda doğurub. Siyasətçilər və ekspertlər müsahibədə ifadə olunan fikirləri təhlil edir və müəyyən proqnozlar verirlər.**



Ölkədaxili aktual məsələlər, region üçün mühüm əhəmiyyət kəsb edən geosiyasi problemlər və qlobal miqyasda gedən siyasi proseslərin xüsusiyyətləri ilə bağlı geniş və dərin fikirlər irəli sürən dövlət başçısının konseptual yanaşması böyük maraq doğurur. Dünya mediası Azərbaycan Prezidentinin irəli sürdüyü tezisləri geniş təhlil edir.

Analitiklər bu fikirlər əsasında bütövlükdə Cənubi Qafqazın geosiyasi mənzərəsini yaratmağa çalışırlar. Yeni Azərbaycan liderinin fikirləri regional və qlobal geosiyasi mənzərənin formalaşdırılmasında ciddi nəzəri-konseptual əhəmiyyət daşıyır.

## Yeni geosiyasi kontekst

Hazırda dünyada müşahidə edilən siyasi və geosiyasi proseslərin Azərbaycanın regional lider kimi xarici siyasəti kontekstində qiymətləndirilməsi həm konseptual, həm də praktiki yenilikdir. Azərbaycan Prezidenti, faktiki olaraq, müstəqil Azərbaycanın xarici siyasətinin regional miqyası aşaraq qlobal səviyyədə əhəmiyyət kəsb etməyə başladığını sübut etmiş olur. Vurğulanan mövqedən Prezident İlham Əliyevin müsahibədə ifadə etdiyi aşağıdakı fikirlərə nəzər salaq: "...Təəssüf ki, beynəlxalq hüququn norma və prinsipləri faktiki olaraq işləmir. Azərbaycan isə beynəlxalq hüququn işləməməsinin ilk qurbanlarından biri olmuşdur. Torpaqlarımız işğal edildikdən sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr 27 il ərzində kağız üzərində qaldı və əgər biz öz torpaqlarımızı güc yolu ilə azad etməsəydik, onlar əbədi olaraq icrasız qalacaqdı. Bizim müharibəmiz ədalətli müharibə idi və biz öz ərazimizdə vuruşurduq. Biz heç bir başqa ölkəni işğal etməmişik, heç bir ölkəyə hücum etməmişik. Hərbi əməliyyatları BMT Nizamnaməsinin 51-ci maddəsinə, xüsusilə özünümüdafiə hüququna əsaslanaraq həyata keçirmişik".

Burada ölkə rəhbəri Azərbaycanın xarici siyasətinin mahiyyətini açıb. Birincisi, beynəlxalq hüququn norma və prinsipləri işləmir. İkincisi, beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr bir sıra hallarda həyata keçirilmir. Üçüncüsü, konkret olaraq, Azərbaycan bu cür yanaşmanın ilk qurbanlarından biri olub. Dördüncüsü, bütün bunlara görə Azərbaycan öz torpaqlarını azad etmək, yəni beynəlxalq hüquq normalarını təmin etmək üçün müharibə etməyə məcbur oldu. Beşincisi, Azərbaycanın apardığı müharibə ədalətlidir və ölkəmiz heç kimin ərazisini işğal etməyib.

Deməli, Azərbaycan xarici siyasətin çağırışlarına ədalətli, hüquqi və konstruktiv cavab verib. Onun konkret təzahürü Vətən müharibəsində qələbənin regionda sülhün və əməkdaşlığın bərqərar olmasına istiqamətləndirilməsi ilə bağlıdır.

Prezident İlham Əliyev müsahibədə vurğulayır: "Beynəlxalq hüquq pozulanda güclü olan haqlıdır. Bu, bizim seçimimiz deyil. Biz hər zaman həqiqətə sadiq olmuşuq, həmçinin hər zaman ədalətə sadiq olmuşuq. Biz heç vaxt ədalətə uyğun olmayan heç bir şey etməmişik. Gördüyümüz bütün işlər tarixi, hüquqi və insani ədalətə əsaslanıb. Lakin dünya dəyişib. Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də, güclü olmalıyıq, biz də bunu etməyə çalışırıq. Mən hər bir ölkəyə bunu tövsiyə edirəm".

Buradan belə nəticə çıxır ki, Azərbaycanın xarici siyasətin çağırışlarına reaksiyası kompleks xarakterlidir. Azərbaycan dövləti həm ərazi bütövlüyünü beynəlxalq hüquq normaları çərçivəsində bərpa edib, həm də paralel olaraq, əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu güclü dövlət konseptini XXI əsrin çağırışlarına uyğun şəkildə inkişaf etdirməkdədir.

Azərbaycan Prezidenti müsahibədə irəli sürdüyü tezislərin hər birini məhz güclü dövlətin fəaliyyəti kontekstində təqdim edir. Belə ki, müsahibədə dövlət başçısı güclü Azərbaycanın daxili və xarici siyasətinin mühüm tərəflərini xarakterizə edib və onları dünya siyasətinin başlıca meyilləri fonunda qiymətləndirib. Bununla yanaşı, Azərbaycan lideri çox əhəmiyyətli proqnostik tezislər irəli sürüb. Onların sırasında suverenliyin və təhlükəsizliyin möhkəmləndirilməsinin zəruriliyi xüsusi yer tutur.

## Suverenliyin və təhlükəsizliyin möhkəmləndirilməsi

Azərbaycan Prezidentinin müsahibədə səsləndirdiyi bir neçə mühüm fikrə müraciət edək. Çünki onların hər biri müxtəlif aspektlərdə suverenlik və təhlükəsizliyin təmin olunması ilə birbaşa bağlıdır.

Ölkə rəhbəri müsahibədə vurğulayıb: "İkinci Qarabağ müharibəsindən beş il keçdiyini nəzərə alsaq, aydın şəkildə görürük ki, bütün dünya, beynəlxalq ictimaiyyət, o cümlədən aparıcı ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar yeni reallıqları qəbul edib. Beləliklə, biz yerindəcə reallıq yaratdıq. Mən bunu artıq bir neçə dəfə xatırlatmışam - ovaxtkı ATƏT-in Minsk qrupu ilə çoxsaylı görüşlərim zamanı onlar Azərbaycana reallıqları qəbul etməyi tövsiyə edirdilər. Təhlükəsizlik Şurasının qətnamələri, beynəlxalq hüquq və beynəlxalq hüququn pozulması ilə bağlı bütün arqumentlərim isə yenə də qəti səssizlik ilə qarşılanırdı".

Sitatda Azərbaycan rəhbərinin suverenliyin və təhlükəsizliyin təmini kontekstində gərgin fəaliyyətinin bir istiqaməti qeyd olunub. Müharibədən öncə hansı inadkarlıqla Azərbaycanın təbii haqq və hüquqlarını tanımaq istəmirdilərsə, Vətən müharibəsindəki qələbədən sonra da eyni inadkarlıqla addımlar atmağa cəhd göstərmişlər. Təsəvvür edək: müharibədən əvvəl özlərinin "reallıq" adlandırdıqları işğalı Azərbaycana qəbul etdirmək istəyirdilər. Bunun fonunda isə Azərbaycan Prezidentinin BMT Təhlükəsizlik Şurasının qətnamələri, beynəlxalq hüquq və beynəlxalq hüququn pozulması ilə bağlı bütün arqumentləri "qəti səssizlik ilə qarşılanırdı"

Bütün bu haqsızlıqlara Azərbaycan lideri layiqli cavab verib. Müsahibədə Prezident İlham Əliyev həmin kontekstdə vurğulayıb: "Mən də dedim: yaxşı, onda biz bu reallıqları dəyişəcəyik. Biz bunu etdik və bu gün bütün dünya bunu tanıyır. Qondarma "Dağlıq Qarabağ Respublikası" heç kim tərəfindən tanınmamışdı, bu, qeyri-qanuni bir qurum idi. Lakin bizim qələbəmiz və azad edilmiş ərazilər üzərində suverenliyimiz bütün dünya, eləcə də Ermənistan tərəfindən tanınır".

Bu iqtibasda bütün dünyaya ibrət ola biləcək və müstəqil dövlətlərin nümunə kimi öyrənməli olduğu bir həqiqət aydın ifadə edilib: Azərbaycan azad edilmiş ərazilər üzərində öz suverenliyini tam təmin edib və bu reallığın bütün dünya tərəfindən qəbul edilməsi qaçılmazdır!

## Mürəkkəbləşən qlobal geosiyasət

Təəssüf ki, dünyanın böyük dövlətlərinin yaranmış mürəkkəb və ziddiyyətli geosiyasi mənzərəni sadələşdirmək niyyətində olmadıqları aydın görünür. Bunu indi əksər siyasi liderlər açıq etiraf edirlər. Həmin cəhət xüsusilə Venesuela, Qrenlandiya, İran və başqa hadisələr fonunda daha qabarıq şəkildə özünü göstərməyə başlayıb. Lakin illər öncə ilk olaraq Ulu Öndər Heydər Əliyev, daha sonra isə Prezident İlham Əliyevin vurğuladıqları beynəlxalq hüququn pozulması və ədalətsizliyin baş alıb getməsi halları o zamanlar susanların öz başlarına gəlir. Bununla belə, Azərbaycan Prezidenti yenə də bütün dünya üçün faydalı olan mövqeyindədir və kimsənin haqqına girmir. Bu kontekstdə Prezident İlham Əliyev müsahibəsində əhəmiyyətli fikirlər səsləndirib.

Ölkə rəhbəri müsahibədə xüsusi vurğulayıb: "Amma bir daha deyirəm, bir neçə il əvvəl bəzi düşmənçəsinə hərəkətləri yarım-beynəlxalq hüquq düsturları ilə ört-basdır etməyə cəhdlər olurdusa, indi belə deyil. İndi isə heç kəs kim nə deyir, hansı təşkilat hansı qətnaməni qəbul edir kimi məsələlərə əhəmiyyət vermir. Dünyada baş verən hadisələr - müharibələr, münaqişələr göz önündədir. Bəs guya demokratik Avropada nə deyirlər? "Biz narahatıq, vəziyyəti izləyirik, mövqeyimizi nəzərdən keçiririk".

Başqa sözlə, bu məsələ bütün dünya üçün aktual olaraq qalır. Ona görə də belə neqativ hallara qarşı mübarizə kollektiv formada aparılmalıdır və hər bir müstəqil dövlət buna fayda verməlidir. Azərbaycanın dövlət başçısı bunu bir nümunə üzərində çox böyük ustalıqla izah edib. Prezident İlham Əliyev müsahibədə vurğulayır ki: "... beynəlxalq arenadakı əsas oyunçular, - ən azı zahirən, - beynəlxalq hüquqa sadiq olduqlarını nümayiş etdirməyə çalışırdılar və qeyri-qanuni addımlar atarkən həmişə terminologiya ilə manipulyasiya etməyə can atırdılar, öz müqəddəratını təyinetmə anlayışından istifadə edilirdi, lakin bu prinsipin dövlətlərin ərazi bütövlüyünə xələl gətirməməli olduğu isə ya nəzərə alınmır, ya da bilərəkdən gözardı edilirdi.

Amma hər hansı ərazi iddiası üçün "öz müqəddəratını təyinetmə" bəhanəsi Azərbaycana çox yaxşı tanışdır. Biz haqlı olduğumuzu dünyaya izah etməyə çalışarkən, "öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyünə qarşı qoyula bilməz və təcavüzkar separatizm qınanmalıdır" deyərkən, yenə qəti səssizlik, laqeydlik və bəlkə də bir qədər də təkəbbürlə üzləşirdik, ta ki biz torpaqlarda vuruşub düşməni məğlub edənə qədər. Ondan sonra vəziyyət dəyişdi.

Buradan iki istiqamətdə mühüm qənaətə gəlmək olar. Birincisi, Azərbaycan rəhbərliyi keçən əsrin son onilliyi və XXI əsrin ilk onillikləri müddətində bir sıra böyük dövlətlərin ölkəmizə qarşı tutduğu mövqeni unutmur və onu indiki fəaliyyətində də nəzərə alır.

İkincisi, Azərbaycanın hazırda ən mürəkkəb siyasi-diplomatik manipulyasiyalara, terminoloji spekulyasiyalara qarşı dayanıqlı mübarizə təcrübəsi formalaşıb. Prezident İlham Əliyev bu təcrübəni yaradıcı şəkildə zənginləşdirir və böyük uğurlara imza atır. Bunun təsdiqi əldə edilən siyasi-diplomatik nailiyyətlər və artıq müəyyən edilmiş strateji fəaliyyət kursudur.

## ABŞ-Azərbaycan münasibətləri: Vaşinqton razılaşmasından sonra

Azərbaycan Prezidentinin ABŞ ilə münasibətlərə daha çox önəm verməsi strateji müdriklik və milli maraqlara uyğun siyasətin təzahürüdür. Hazırkı reallıqlar göstərir ki, Amerika qlobal dünya nizamını yenidən formatlaşdıran əsas dövlətdir. Onun Azərbaycanın müstəqil dövlət kimi hüququnu tam qəbul etməsi şərti ilə strateji tərəfdaş olması, əlbəttə, uğurdur. Prezident İlham Əliyev Vaşinqtonda məhz buna nail oldu. Ermənistanla sülh sazişinin paraflanması ilə yanaşı, ABŞ ilə strateji tərəfdaşlığa qədər yüksələ bilən əlaqələrin qurulması istiqamətində işlərin başlaması, sözün əsl mənasında, tarixi hadisədir.

Bu kontekstdə Azərbaycan liderinin aşağıdakı fikirləri tamamilə yerindədir. Prezident İlham Əliyev müsahibəsində vurğulayıb: "...Sirr deyil ki, Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra Amerika-Azərbaycan əlaqələrinin üzərində bir qara bulud kimi mənfur 907-ci düzəliş, necə deyərlər, fırlanırdı və Azərbaycan gənc, müstəqil ölkə olmasına baxmayaraq, Amerika kimi dünya miqyasında birnömrəli dövlətlə lazımi səviyyədə münasibətlər qura bilməmişdi".

Deməli, iki dövlət arasındakı münasibətlərin müasir tarixçəsi heç də sadə mənzərə yaratmır. Arada olan ziddiyyətləri qaldırmağın fəlsəfəsi hər şeyi həll edəcəkdi. Məhz bu baxımından Azərbaycan Prezidentinin fəaliyyəti dövlətçiliyin inkişafı baxımından dahiyanədir. Prezident müsahibəsində ayrıca qeyd edib: "...bu gün çox fəal diplomatik hərəkət var. Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir. Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir. Ona görə bu nöqteyi-nəzərdən 2025-ci ili təbii ki, çox uğurlu və tarixi il saymaq olar".

Eyni yaradıcı və tam müstəqil dövlətçi ruh 2025-ci ildə xarici siyasətin digər istiqamətlərində də özünü göstərib. Bu baxımdan Çin xüsusi yer tutur.

## Çin strateji tərəfdaş kimi

ABŞ ilə münasibətləri dərin təhlil etdikdən sonra ölkə rəhbəri Çin faktorunu xüsusi vurğulayıb. Prezident İlham Əliyev jurnalistin verdiyi suala cavab olaraq ifadə edib: "Mən hesab edirdim ki, böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər".

Siyasi və geosiyasi baxımdan Azərbaycanın ciddi uğuru ondan ibarətdir ki, ölkəmiz hazırda böyük rəqabət aparan və dünyanın iki ən güclü dövləti hesab edilən ABŞ ilə Çin istiqamətlərini milli maraqlara uyğun şəkildə balanslaşdıra bilir! Dövlət başçısı məharətli siyasi-diplomatik fəaliyyəti ilə hər iki istiqamətdə strateji tərəfdaşlığa praktiki məzmun verir. Bu, əlbəttə, müstəqil Azərbaycanın çox əhəmiyyətli nailiyyətlərindən biridir. Onun əhəmiyyəti Azərbaycanın həm Türkiyə, həm də Rusiya ilə strateji müttəfiq olmasından heç də az deyil. Deməli, söhbət Azərbaycan Prezidentinin dərin strateji zəkasından və həyata keçirdiyi kursun müasir tələblərə cavab verməsindən gedir.

Bu tezisin fonunda D-8 təşkilatı ilə əlaqələr də diqqət çəkir. Prezident müsahibəsində bu məqamın üzərində xüsusi dayanıb.

## Azərbaycan: D-8-in yeganə yeni üzvü

Bu təşkilata üzvlüklə bağlı Azərbaycan Prezidenti müsahibəsində aşağıdakıları deyib: "...biz D-8 təşkilatına üzv olduq. Mən bunu da çox böyük nailiyyət kimi qiymətləndirirəm. Çünki bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Nəzərə alsaq ki, bu təşkilatda müsəlman dünyasının ən böyük ölkələri birləşir, Azərbaycanı dəvət etmək və bizi seçmək, əgər belə demək mümkündürsə, əlbəttə ki, böyük uğur sayıla bilər".

Qeyd edək ki, D-8-in ciddi perspektivləri mövcuddur. Dövlət başçısı onun əhalisinin 1 milyarddan çox olmasını, ümumi iqtisadiyyatının həcminin 4 trilyon ABŞ dollarını aşmasını xüsusi qeyd edib. Bu göstərici Azərbaycanın çox mühüm siyasi addım atdığını sübut edir.

Bundan başqa, dövlət başçısı Azərbaycanın bu təşkilatda fəal iştirak edəcəyini söyləyib. Prezident İlham Əliyev deyib: "Bizim təşəbbüsümüzlə Azərbaycanda təşkilatın bir neçə mərkəzi yaradılmışdır - media, iqlim, ekologiya, energetika, nəqliyyat və biz də təbii ki, bu təşkilatda fəal üzv kimi iştirak edəcəyik".

## Mərkəzi Asiya uğuru

Azərbaycan Mərkəzi Asiya regionuna coğrafi baxımdan aid olmayan yeganə dövlətdir ki, siyasi və geosiyasi mənada Mərkəzi Asiyada əməkdaşlığı C5 formatından C6 formatına çevirib. Həmin regionun 5 dövlətindən 4-nün türkdilli olmasına baxmayaraq, son illərə qədər qarşılıqlı əlaqələrdə müəyyən məhdudiyyətlər mövcud idi. Lakin məhz Prezident İlham Əliyevin siyasi-diplomatik fəallığı və liderlik məharəti sayəsində vəziyyət tamamilə dəyişdi. Bu kontekstdə Azərbaycan Prezidentinin müsahibədə səsləndirdiyi aşağıdakı fikirlər reallığı dəqiq əks etdirir. Dövlət başçısı vurğulayıb: "Xarici siyasətlə bağlı digər önəmli nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Hesab edirəm ki, bu da nadir hadisə sayıla bilər. Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik".

Bununla da Azərbaycan Prezidenti geosiyasi aspektdə mühüm nailiyyət əldə edib - birincisi, Azərbaycan dövlət olaraq Xəzəryanı regionda birləşdirici funksiyada aparıcı qüvvəyə çevrilib, ikincisi, "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Orta dəhlizin işlək olması üçün uyğun nəqliyyat-logistika və təhlükəsizlik mühiti yaradıb. Bu yeni vəziyyət sinxron olaraq Zəngəzur dəhlizinin dünya siyasətindəki statusunu daha da yüksəldib.

## TDT: əməkdaşlıq və təhlükəsizliyin yeni mərhələsi

2024-cü ildə andiçmə mərasimində Prezident İlham Əliyev xüsusi vurğulamışdı ki, Türk Dövlətləri Təşkilatını (TDT) gücləndirmək Azərbaycanın xarici siyasətinin prioritetləri sırasındadır. Dövlət başçısı həmin mövqeyini getdikcə inkişaf etdirir və konkret təşəbbüslər irəli sürür. Onlar bütöv halda Azərbaycanın TDT-ni inkişaf etdirmək istiqamətində əməkdaşlıq və təhlükəsizlik platformasını yeni səviyyəyə yüksəltdiyinin ifadəsidir. Müsahibədə bu tezisi təsdiq edən fikirlər kifayət qədərdir. Ölkə rəhbəri deyib: "Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünü də xüsusilə qeyd etməliyəm. Bu, bir daha türk dünyasının birliyini əks etdirən bir Zirvə idi və bildiyiniz kimi, bizim təşəbbüsümüzlə qeyri-rəsmi Zirvə görüşləri də keçirilməyə başlamışdır".

Fikirlərinə davam edərək ölkə rəhbəri ifadə edib: "Qəbələdəki Zirvə görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda praktik nöqteyi-nəzərdən buna ehtiyac var".

Beləliklə, Azərbaycan Prezidenti TDT istiqamətində fəal siyasət həyata keçirir və ciddi uğurlar əldə edib.

Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə məzmun və məqsəd baxımından mükəmməl, sistemli siyasi kursun növbəti təqdimatlarından biridir. Azərbaycan lideri yığcam və dəqiq ifadələrlə 2025-ci ildə həyata keçirilən işləri vurğulamaqla yanaşı, strateji əhəmiyyət kəsb edən istiqamətləri də diqqətə çatdırıb. Bununla Azərbaycan Prezidenti 2026-cı ildə xarici siyasətin başlıca aspektlərini aydınlaşdırmaqla yanaşı, onların təhlilinin aktuallığını da gündəmə gətirib.

Azərbaycan rəhbəri, həmçinin dövləti əhəmiyyəti olan aktual məsələləri və qarşıda duran vəzifələri cəmiyyətlə bölüşmək kimi demokratik ənənəni formalaşdırır. Yerli media nümayəndələrinə verdiyi müsahibələrdə, bir qayda olaraq, Azərbaycan, region və dünya üçün aktual olan məsələləri yüksək konseptual səviyyədə təhlil etməklə kifayətlənmir, həm də dərin proqnozlar irəli sürür. Bununla xalq-iqtidar birliyinin yeni səviyyəyə yüksəlməsi ilə yanaşı, dünya miqyasında Azərbaycanın müstəqil dövlət kimi nüfuzu da dinamik şəkildə artır.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətər üzrə ekspert***

# Etimad quruculuğu

## Barış təkcə masada deyil, həm də cəmiyyətdə formalaşır



**Azərbaycan və Ermənistan arasında qalıcı sülhün bərqərar olması təkcə siyasi müstəvidə aparılan danışıqlardan asılı deyil, bu prosesdə vətəndaş cəmiyyətinin iştirakı və fəallığı həlledici rola malikdir. Diplomatik müstəvidə alınan siyasi qərarlar vacib olsa da, sülhü xalqlar arasında formalaşmış qarşılıqlı anlayış qoruyub saxlayır. Ona görə də sülh təşəbbüsləri yalnız masa arxasında qalmamalı, konkret layihələrlə dəstəklənməlidir.**

Elə bu məqsədlə yanvarın 13-də Bakıda "Sülh Körpüsü: Vətəndaş cəmiyyətinin sülh prosesində rolu" mövzusunda ictimai müzakirə təşkil olunub. Azərbaycan və Ermənistan ictimai sektor nümayəndələri arasında baş tutan dialoqun yekunları geniş ictimaiyyətə təqdim olunub. Tədbirdə sülhün formalaşması və möhkəmləndirilməsində vətəndaş cəmiyyətinin rolu, etimad quruculuğu, ictimai dialoqun inkişafı, həmçinin digər sahələrdə əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb. Bir daha qeyd edilib ki, dayanıqlı barışıq yalnız siyasi sazişlərlə deyil, insanlar arasında qarşılıqlı etimadın yaradılması ilə mümkündür.

Açıq dialoq mühitində keçən görüşdə vətəndaş cəmiyyətinin sülh prosesinə sistemli inteqrasiyası, QHT, media və ekspertlər arasında əməkdaşlıq bağlarının möhkəmləndirilməsi də geniş müzakirə predmeti olub. Sülh prosesinə töhfə verə biləcək mexanizmlər, ictimai dialoqun gücləndirilməsi yolları və əməkdaşlıq perspektivləri ətrafında danışılıb. Vurğulanıb ki, real barışıq cəmiyyətin hər bir üzvünün bu prosesdəki fəal iştirakı ilə mümkündür. Ekspertlərin, ictimai xadimlərin və media təmsilçilərinin iştirak etdiyi dialoq platforması sülhün həm də cəmiyyətin ortaq məsuliyyəti olduğunu bir daha təsdiqləyir.

Azərbaycan və Ermənistan vətəndaş cəmiyyələri arasında ilkin təmaslar artıq gerçəkləşib. Ötən il oktyabrın 21-22-də İrəvanda Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə ikitərəfli "dəyirmi masa" keçirilib. Azərbaycan QHT-lərinin bir qrup təmsilçisi İrəvana gediblər. Noyabrın 21-22-də isə Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri Azərbaycanda səfərdə olublar. Hər iki səfər zamanı iki ölkənin cəmiyyəti arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi perspektivləri müzakirə olunub.

Həm işğal illərində, həm də postmüharibə dövründə ayrı-ayrı dövlətlərin və beynəlxalq təşkilatların vasitəçiliyi ilə Azərbaycan-Ermənistan vətəndaş cəmiyyəti institutları arasında müəyyən təmaslar olub. Ancaq bu görüşlər kənar vasitəçilərin iştirakı ilə üçüncü ölkələrin ərazisində baş tutub. O səbəbdən bu tip görüşlər əvvəllər faydasız olur, nəticə vermirdi. Azərbaycanın bölgədə yaratdığı yeni reallıqlar və ortaya qoyduğu sülh gündəliyi vəziyyəti kökündən dəyişdi. İrəvan hökuməti və vətəndaş cəmiyyəti ritorikanı dəyişərək sülhün əldə edilmədiyi hər günün Ermənistanın əleyhinə işlədiyini dərk etməyə başladılar.

Qarşıda uzun və çətin proses dayanır. Azərbaycan və Ermənistan cəmiyyətlərinin sülh şəraitində birgəyaşayış modelinə uyğunlaşması, illərlə formalaşmış düşmən obrazının dəyişməsi əlbəttə ki, asan olmayacaq. Erməni toplumu uzun müddət revanşistlərin, Apostol Kilsəsinin və erməni diasporunun zəhərini qəbul edib, nifrətlə, kinlə, düşmənçiliklə bəslənib. Məhz bu səbəbdən Azərbaycan xalqı 30 il ərzində Ermənistanın hərbi təcavüzünə, ərazi işğallarına məruz qalıb, əsir və girovlarımızın başına olmazın oyunlar gətirilib, soyqırımlarla, faciələrlə üzləşmişik. Buna görə insanlar anlayırlar ki, iki cəmiyyət arasında barışığın qəbulu kifayət qədər çətin prosesdir. Ona görə də həm Azərbaycan, həm də Ermənistanın vətəndaş cəmiyyətlərinin üzərinə götürdükləri missiya kifayət qədər mürəkkəb, eyni zamanda zəruridir.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri, "Sülh Körpüsü" Təşəbbüsünün üzvü Ramil İskəndərli "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, Vaşinqtonda əldə olunmuş 2025-ci il 8 avqust razılaşmalarının həyata keçirilməsi istiqamətində atılan praktiki addımlardan biri Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında birbaşa dialoqun təşkil olunmasıdır. QHT rəhbəri vurğulayıb ki, bu dialoqun mühüm mərhələləri kimi Azərbaycan vətəndaş cəmiyyəti nümayəndə heyəti Ermənistana səfər edib, eləcə də erməni vətəndaş cəmiyyəti təmsilçiləri Azərbaycanda olub: "Hər iki səfər qarşılıqlı etimadın qurulması və real müzakirə mühitinin yaradılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu cür səfərlər hesab edirəm ki, bu il də davam etdiriləcək".

Ramil İsgəndərli bildirib ki, "Sülh körpüsü" təşəbbüsü dialoq platforması Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında etimadın möhkəmləndirilməsi və davamlı dialoqun qurulması məqsədilə yaradılıb: "Platforma çərçivəsində tərəflər görüşlərdə sülh prosesi, regional təhlükəsizlik, media və vətəndaş cəmiyyətinin rolu kimi məsələləri müzakirə edirlər. Bu dialoqun ən əsas xüsusiyyətləri odur ki, üçüncü tərəflərin iştirakı olmadan, hər iki tərəf ölkələrin hökümətlərinin dəstəyi ilə və hər hansı neytral zonada yox, tərəf ölkələrin özündə həyata keçirilən mexanizmdir. 13 yanvar tarixində keçirilən tədbirin əsas əhəmiyyəti Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri arasında aparılan dialoqun nəticələrini paylaşmaq imkanı, mövcud vəziyyəti açıq və səmimi müzakirə etmək və davamlı sülhün qurulması üçün bir sıra praktik təkliflərin alınması olub. Ümid edirik ki, bu müzakirə hər birimiz üçün faydalı olacaq və ölkəmizdə, regionumuzda sülh və dialoqun möhkəmlənməsinə töhfə verəcək".

Sülh prosesi çərçivəsində cəmiyyətlər arasındakı düşmənçiliyi tədricən arada qaldırmaq üçün mütəmadi təmasların yaradılmasının əhəmiyyəti danılmazdır. Bu cür görüşlər cəmiyyətlərin bir-birini tanıması və qarşılıqlı ünsiyyətin bərqərar olması üçün mühüm baza rolunu oynayır. Önəmlisi odur ki, belə görüşlərdə siyasi məsələlər yox, daha çox humanitar mövzular, normallaşan münasibətlər kontekstində iqtisadi və logistik imkanlar, gələcək etimad quruculuğu tədbirləri və digər məqamlara toxunulur. Ümumən, Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələrinin görüşləri, parlament sədrlərinin dialoqu və rəsmilərin təmasları Vaşinqtonda start verilmiş sülh prosesinin sadəcə kağız üzərində qalmadığını ortaya qoyur.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# REGİONLAR

**Ötən ilin uğurlu yekunları**

## Yeni il yeni hədəflər deməkdir

**Qazaxda 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2026-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilmişdir.**



Yığıncaqda rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov məruzə ilə çıxış etmişdir. Bildirmişdir ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən iqtisadi siyasət bu gün özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişaf müstəqilliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmdə Azərbaycanın rolunu və nüfuzunu daha da artırmışdır. Xüsusən Prezident İlham Əliyevin Ali Baş Komandan kimi rəhbərliyi altında əldə edilən möhtəşəm Zəfər tariximizin ən parlaq səhifələrindən biri olmuş, Azərbaycan xalqının milli ruhunu, özünə inamını və dövlətçiliyimizin sarsılmazlığını bütün dünyaya nümayiş etdirmişdir. Zəfərdən sonra azad edilmiş ərazilərdə başlanan genişmiqyaslı quruculuq və bərpa işləri ölkəmizin gücünü və imkanlarını göstərir.

Məruzəçi onu da qeyd etmişdir ki, ölkə iqtisadiyyatının inkişafı istiqamətində atılan addımlar Qazax rayonunda da bəhrəsini vermişdir. Rayonun abadlıq-quruculuq işləri geniş vüsət almış, yeni iş yerləri açılmışdır.

Hesabat yığıncağında Qazax-Tovuz Regional Məşğulluq filialının müdiri Elçin Nəsibov, Qazax Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elxan Vəkilov çıxış edərək rəhbərlik etdikləri qurumların 2025-ci ildə gördükləri işlər və qarşıda duran vəzifələr barədə məlumat vermişlər.

Vətən müharibəsi şəhidi, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuş gizir Amid Məmmədovun atası Müqabil Məmmədov çıxış edərək dövlət başçısı İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə göstərdikləri diqqət və qayğıdan danışmışdır. Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant İsgəndər Mustafayev də çıxışında şəhid ailələrinə, qazilərə, onların ailələrinə göstərilən qayğıya görə razılığını ifadə etmişdir.

Yığıncaq rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup şəxsə Qazax Rayon İcra Hakimiyyəti başçısının fəxri fərmanlarının təqdim olunması və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə iştirakçılar adından müraciətin qəbul edilməsi ilə yekunlaşmışdır.

## 2025-ci il samuxlular üçün yaddaqalan oldu

**Samuxda rayon icra hakimiyyətinin 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2026-cı ildə qarşıda duran vəzifələrə həsr edilmiş hesabat yığıncağı keçirilmişdir.**




RİH-in başçısı yanında şura üzvlərinin, xidmət sahələri rəhbərlərinin, inzibati ərazi dairələri üzrə nümayəndələrin və bələdiyyə üzvlərinin iştirakı ilə keçirilən yığıncaqdan əvvəl iştirakçılar Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək xatirəsinə ehtiramlarını bildirmişlər.

Heydər Əliyev Mərkəzində keçirilən yığıncaq Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Sonra RİH-in başçısı Firdovsi Əliyev bir il ərzində rayonda görülən işlərə dair məruzə ilə çıxış etmişdir. Qeyd edilmişdir ki, Zəfərin beşinci ilini qürurla qeyd etdiyimiz və artıq yola saldığımız 2025-ci il ölkəmizin həyatında bütün sahələr üzrə qazanılan uğurlarla yadda qaldı: "İstər iqtisadi-siyasi və hərbi sahədə, istərsə də diplomatik müstəvidə çoxsaylı əlamətdar hadisələr yaşandı. Söz yox ki, bütün bunlar-Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərindən tutmuş, Azərbaycanın beynəlxalq platformalarda qazandığı nüfuzacan - təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun uğurla və məqsədyönlü şəkildə davam etdirilən siyasət sayəsində mümkün olmuşdur.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Elvin Azadəliyev çıxış etmişdir. Bildirmişdir ki, müasir Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən şanlı günlərini, yeni inkişaf dövrünü yaşayır. Azərbaycan dünyada ən sürətlə və dinamik inkişaf edən dövlətlərdən biri kimi nüfuz qazanmışdır.

Sonra YAP rayon təşkilatının sədri Gündüz Bayramov, Samux Su Meliorasiya Sistemləri İstismar İdarəsinin rəisi Məmməd Məmmədov, "Azərişıq" ASC-nin Samux rayon Elektrik Şəbəkəsinin rəisi Yadigar Bağırov və rayon Ağsaqqallar Şurasının sədri Fidayıl Əliyev çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində əldə olunmuş uğurlardan, ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, əhalinin sosial rifah halının yüksəldilməsinə yönəlmiş tədbirlərdən söz açmışlar.

Sonda yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Fermerin məsləhətçisi alim olmalıdır

## Yüksək məhsulu yalnız düzgün sort seçimi ilə əldə etmək mümkündür

**Aqrar sektorun ayrı-ayrı sahələrində qazanılan bütün nailiyyətlərin təməlində düzgün sort seçimi durur. Bu baxımdan kənd təsərrüfatında əldə olunan səmərəli elmi yeniliklərin, ixtraların, yaradılan yeni immunitetli sortların istehsalata tətbiqi dövrün tələbidir.**



Azərbaycanda kənd təsərrüfatının inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Ayrı-ayrı ölkələr və beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən tədbirlər məhsuldarlığın artırılması, yeni texnologiyaların tətbiqi, rəqəmsallaşma, subsidiyaların genişləndirilməsi və bölgələrdə aqrar infrastrukturun gücləndirilməsi istiqamətlərini əhatə edir. 2024-cü ildə Azərbaycanda 380704 fermerə ümumilikdə 362,5 milyon manat subsidiya verilib. 2025-ci ildə bu rəqəm bir qədər də artıb.

Aqrar sahədə elmi texnologiyanın tətbiq oluması bu sahədə çalışanlara, o cümlədən fermerlərə, sahibkarlara suvarma, torpaq monitorinqi, xəstəliklər və zərərvericilərlə yoluxmanın izlənilməsi, onlara qarşı mübarizə tədbirlərinin həyata keçirilməsi kimi sahələrdə ətraflı elmi məlumatların verilməsinə və müvafiq qərarlar qəbul etməyə yaxından kömək edir. Hazırda bölgələrdə sürətlə aqroparklar yaradılır, regionlar üçün digər yeni kənd təsərrüfatı modelinin formalaşması həyata keçirilir. Suvarma sistemlərinin müasirləşdirilməsi, iqlim dəyişikliyinə davamlılığı artıran milyonlarla manat sərmayə ilə davamlı infrastruktur qurulur ki, bu da əkin sahələrindən məhsuldarlığı, yəni maddi gəliri artırır.

Beynəlxalq əməkdaşlıq sayəsində kənd təsərrüfatının rəqəmsallaşdırılması layihələri də həyata keçirilir. Müvafiq benəlxalq təşkilatlarla, xüsusilə Türkiyə ilə əməkdaşlıq çərçivəsində dənli-paxlalı və digər kənd təsərrüfatında becərilən bitkilərin xəstəliklərə davamlılığını artırmağa yönəli fitosanitar və seleksiya işləri həyata keçirilir.

Azərbaycanda kənd təsərrüfatı sahəsində aparılan islahatlar və tədbiq olunan yeni layihələr kənd təsərrüfatının modernləşdirilməsi, fermerlərə dövlət dəstəyinin artırılması, rəqəmsal sistemlərin tətbiqi, iqlim dəyişikliyinə uyğunlaşdırılmış yanaşmalar, beynəlxalq əməkdaşlıq və regionlarda yeni aqrar infrastrukturun qurulması istiqamətlərini əhatə edir. Bu təşəbbüslər ölkənin kənd təsərrüfatı sektorunun davamlı inkişafını və kənd yerlərinin sosial-iqtisadi həyatının yaxşılaşdırılmasını hədəfləyir.

Dənli-paxlalı bitkilərlə yanaşı, meyvəçilik, tərəvəzçilik və üzümçülük də ölkəmizin kənd təsərrüfatında önəmli yer tutan sahələrdəndir. Son illər Azərbaycandan meyvə və tərəvəz məhsullarının ixracı həm həcm, həm də dəyər baxımından əhəmiyyətli dərəcədə artıb. Bu artım meyvəçilik məhsullarının rəqabət qabiliyyətinin yüksəldiyini, ixrac bazarlarının genişləndiyini göstərir. Son illər dövlət tərəfindən meyvəçilik sahəsində subsidiyalar və digər dəstək mexanizmləri gücləndirilib. Azərbaycanda meyvəçiliyin inkişafı üçün qəbul edilmiş əsas sənədlərindən biri "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər Dövlət Proqramı"dır. 2025-ci ilin 7 ayında manat yeni meyvə bağlarının salınmasına təxminən 43,7 milyon subsidiya verilib. 2024-cü ildə meyvə bağlarından 1,318 milyon ton meyvə və giləmeyvə məhsulu yığılıb. Ümumiyyətlə, aqrar sahənin meyvəçilik sektorunda son illər strateji sənədlər çərçivəsində uzunmüddətli planların icrası həyata keçirilir. Müasir meyvə bağlarının salınması üçün verilən subsidiyaların həcmi artırılır, elm-tədqiqat və kadr hazırlığı sahəsində beynəlxalq əməkdaşlıq genişləndirilir, regionlara uyğun ixtisaslaşma və lokal potensialdan səmərəli istifadə olunması kimi aqrar siyasət həyata keçirilir.

Azərbaycanda üzümçülük qədim ənənələrə malikdir. Bu sahənin bərpası və inkişafı müstəqillik illərindən etibarən prioritet istiqamət elan edilib. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" və "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı" ölkəmizdə üzümçülüyə dair aqrar siyasəti və strategiyanı formalaşdıran mühüm dövlət sənədləri olmuşdur.

Bu gün də üzümçülük digər aqrar sahələr kimi, dövlət tərəfindən dəstəklənir. Fermerlərə subsidiyalar verilir, elmi kömək və bazar axtarışı kimi tədbirlər həyata keçirilir ki, bu da üzümçülükdə həm xammal, həm də emal məhsulları üzrə potensialı genişləndirir. Hazırda bu sahədə ölkənin müvafiq elmi-tədqiqat müəssisələrində araşdırma işləri aparılır, yeni sortların alınması üzrə seleksiya aparılır və müasir aqrotexnologiyaların tətbiqi üzərində işlər yerinə yetirilir.

Son dövrlər Azərbaycanın üzümçülük bölgələrində, xüsusən işğaldan azad olunmuş ərazilərdə bu sahənin elmi əsaslarla genişləndirilməsi üçün Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunda, Naxçıvan Bioresurslar İnstitutunda və digər tədqiqat müəssisələrində elmi əsaslar işlənilmiş, çox sayda perspektivli yeni sortlar yaradılmışdır. Belə yeni üzüm sortlarından Naxçıvan Dövlət Universiteti Bioresurslar İnstitunda son dövrlər seleksiya yolu ilə əldə edilən, patent və müəlliflik şəhadətnaməsi alınan, xəstəlik və zərərvericilərə dözümlü olan "Qəhvəyi kişmişi", "Süfrə bayanşirə", "Oğuz", "Əlincə", "Bənəniyar", "Milax", "Naxçıvan muskatı", "Nərgizi" və "Uğur" adlı yüksək iqtisadi əhəmiyyətli üzüm sortlarını göstərmək olar. Bu üzüm sortları Azərbaycan ərazisində kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadəsinə icazə verilmiş və mühafizə olunan seleksiya nailiyyətlərinin Dövlət Reyestrinə daxil edilərək rayonlaşdırılmışdır. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanda 600-ə qədər aborigen və introduksiya olunmuş, həmçinin seleksiya nəticəsində alınmış yeni üzüm sortları yayılmışdır.

Bir daha vurğulayaq ki, kənd təsərrüfatında düzgün sort seçimi vacib şərtdir. Odur ki, bu istiqamətdə elmi-tədqiqat işlərində əldə edilən elmi yeniliklər, nəticələr və yeni sortların istehsalata tətbiqi diqqət mərkəzində olmalıdır. Yalnız belə halda elm uğurlu hesab olunur.

***VARİS QULİYEV,***
***aqrar elmləri doktoru,***
***Naxçıvan Dövlət Universiteti***
***Bioresurslar İnstitutunun dosenti***

## Təxtənəkəran camaatı kənddə yaradılan şəraitdən razıdır

**Astaranın Təxtənəkəran kəndi Siyaki kənd inzibati ərazisinə daxildir. Son illər kənddə və bütövlükdə nümayəndəliyin ərazisində xeyli işlər görülmüşdür.**

Avtomobil yolları asfaltlaşdırılmış, elektrik xətt təsərrüfatında 90 faiz kabelləşmə aparılmış, sahilbərkitmə işləri görülərək avtomobil körpüləri tikilmiş, sürətli internet şəbəkəsi yaradılmışdır. Kəndə magistral qaz xətti çəkilsə də, bu işlər hələ tamamlanmamışdır. Amma işlərin yekunlaşdırılması üçün tədbirlər görülür.

Kənd sakinləri əsasən sitrus əkininə üstünlük verməklə ildən-ilə təsərrüfatlarını genişləndirirlər. Özü də bu zaman yeni sitrus meyvə tinglərinin əkilməsinə daha çox üstünlük verirlər. Bununla da daha keyfiyyətli və daha çox məhsul əldə edirlər.

Bu dağ kəndi turizmin inkişafı üçün olduqca əlverişli imkana və şəraitə malikdir. Kəndin yolları asfaltlaşdırılandan sonra burada yeni obyektlər açılmış və nəticədə Təxtənəkərana gələn turistlərin sayı xeyli artmışdır.

Bu günlər Astara Rayon İcra Hakimiyyətinin başçısı Q.Ağayev kənddə səyyar görüş keçirmişdir. RİH başçısı dünyada baş verən qlobal hadisələr barədə əhalini məlumatlandırmış, belə bir dövrdə birlik nümayiş etdirməklə dövlətçiliyimizi qorumaq, ölkə rəhbəri ətrafında daha da sıx birləşməyin vacibliyini vurğulamışdır.




Görüş iştirakçıları ölkəmizdə, o cümlədən Astarada aparılan genişmiqyaslı tikinti-quruculuq və abadlıq işlərindən danışaraq əhalinin rifah halının yaxşılaşdırılması üçün göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər. Onlar həmçinin fürsətdən istifadə edib kənddə yeni elektrik transformatorunun qoyulmasına, evlərə qaz xəttinin çəkilməsi üçün sənədləşmə işlərində olan problemlərin həllinə, Rinə kəndinin yuxarı məhəlləsinə gedən yolun 700 metr hissəsinin asfaltlaşdırılmasına, kəndin elektrik xətt təsərrüfatının SİP kabelləşməsinə, elektrik xəttində ayırıcı açarın qoyulmasına, qəzalı vəziyyətdə olan elektrik dirəyinin dəyişdirilməsinə kömək göstərilməsini xahiş etmişlər. RİH başçısı vətəndaşların irəli sürdükləri məsələlərin həlli ilə əlaqədar aidiyyəti üzrə tapşırıqlar vermişdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



## Kəlbəcərin qış nağılı

**Kəlbəcərin füsunkar təbiəti qışın gəlişi ilə tamamilə fərqli bir gözəlliyə qovuşub. Uca dağlar və sıldırım qayalar ağ örpəyə bürünərək gözoxşayan mənzərələr yaradıb.**

Qar altındakı meşələr və dərələr bölgəyə xüsusi bir sakitlik və əsrarəngizlik bəxş edir. Bu bəyaz mənzərə Kəlbəcərin qədimliyini və vüqarını bir daha gözlər önünə sərir.

Dağların ətəyində ucalan müasir üslublu yeni yaşayış binaları bu qədim diyarda həyatın tam fərqli bir keyfiyyətlə yenidən başladığını göstərir. AZƏRTAC xəbər verir ki, dağların ağ örpəyə büründüyü qarlı mənzərələr Kəlbəcərin həm də əvəzsiz qış turizmi mərkəzinə çevriləcəyindən xəbər verir. Çətin relyefə baxmayaraq, salınan yeni yollar və qurulan infrastruktur dövlətimizin bu bölgəyə verdiyi böyük önəmin bariz nümunəsidir.

## Təzə ilin ilk günlərindən Lənkəran abadlaşmaqda davam edir

**Lənkəranda yeni ilin ilk günlərindən abadlıq və təmir-bərpa işləri başlanılıb. Kompleks şəkildə aparılan bu abadlıq-quruculuq işləri hazırda şəhərin bir sıra küçə və prospektlərində davam edir.**



Vətəndaşların rahat gediş-gəlişini təmin etmək üçün səkilərə yeni tametlər döşənir, deformasiyaya uğrayan səki daşları yeniləri ilə əvəzlənir, təzə bordürlər qoyulur, habelə yolboyu hasarlara mala və yeni üzlüklər vurulur, divarların, eləcə də çoxmərtəbəli binaların girişləri rənglənir. Qeyd edək ki, konkret qrafik üzrə aparılan işlər ilboyu bütün şəhər ərazisini əhatə edəcək.

***"Azərbaycan"***



# Mədəniyyət



● "Azərbaycan mədəniyyəti - 2040"

# Qloballaşan dünyada milli kimlik konsepsiyası

**XXI əsrin ikinci rübünə doğru irəliləyən dünya artıq təkcə iqtisadi və texnoloji inteqrasiya ilə deyil, mədəniyyətlərin sürətli qarşılıqlı təsiri ilə də xarakterizə olunur. Qloballaşma bu prosesin əsas aparıcı qüvvəsi kimi çıxış etsə də, onun yaratdığı imkanlarla yanaşı, milli kimliklər üçün ciddi çağırışlar da formalaşdırır. Məhz bu kontekstdə "Azərbaycan mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası milli-mənəvi dəyərlərin qorunması və müasir dünyaya inteqrasiyanın uzlaşdırılması baxımından strateji əhəmiyyət daşıyır.**

Azərbaycan mədəniyyəti minilliklər boyu formalaşmış zəngin irsi, çoxşaxəli folkloru, klassik və müasir ədəbiyyatı, musiqisi, memarlığı və tolerantlıq ənənələri ilə fərqlənir. Qloballaşma şəraitində bu dəyərlərin yalnız qorunması deyil, eyni zamanda yeni dövrün tələblərinə uyğun təqdim edilməsi əsas hədəf kimi götürülür. Çünki müasir dünyada mədəniyyət passiv şəkildə saxlanılan miras deyil, dinamik şəkildə yaşadılan və inkişaf etdirilən canlı orqanizmdir.



Əslində bu günlərdə qəbul edilən "Azərbaycan mədəniyyəti - 2040" sənədi birdən-birə meydana çıxmış təşəbbüs deyil. Azərbaycan dövlətinin uzun illər ərzində ardıcıl, düşünülmüş və məqsədyönlü şəkildə həyata keçirdiyi mədəniyyət siyasətinin məntiqi davamıdır. Bu siyasətin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu Öndərin xarici səfərlərə gedərkən mədəniyyət xadimlərini, şair və yazıçıları özü ilə aparması heç də protokol xarakterli addım deyildi. Bu, Azərbaycan mədəniyyətinin dövlət diplomatiyasının ayrılmaz tərkib hissəsinə çevrilməsi demək idi.

Klassik ədəbiyyatımızın yaradıcılarının, incəsənət xadimlərinin yubileylərinin beynəlxalq miqyasda qeyd olunması, onların xatirəsinə abidələrin ucaldılması, adlarının təkcə ölkə daxilində deyil, digər respublikalarda küçə və prospektlərə verilməsi də təsadüf yox, strateji yanaşmanın nəticəsi idi. Bununla Ulu Öndər Azərbaycanın zəngin mədəni irsini yalnız qorumaqla kifayətlənmir, onu geniş planda dünyaya təqdim edir, milli kimliyimizi qlobal mədəni xəritədə görünən və tanınan bir dəyərə çevirirdi.

Heydər Əliyevin həyata keçirdiyi bu mədəniyyət siyasəti Azərbaycan dövlətçiliyinin ideoloji dayaqlarından birinə çevrildi. Mədəniyyət Ulu Öndər üçün keçmişin xatirəsi deyil, gələcəyin qurulmasında əsas vasitə idi. Bu xətt Prezident İlham Əliyevin hakimiyyətə gəlməsi ilə daha da inkişaf etdirilərək dünyaya yeni məzmunda təqdim edildi. Bu sahədə xüsusilə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın mədəniyyətimizin dünyaya təqdim olunması sahəsində gördüyü işlər olduqca qürurvericidir. Mehriban xanım Əliyevanın birbaşa fəal iştirakı ilə Azərbaycan mədəni irsi yalnız ölkə daxilində deyil, beynəlxalq məkanda da geniş şəkildə tanıdıldı və UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına çoxlu nümunələrin daxil olması ilə nəticələndi.

Son 20 ildə UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Təmsilçi Siyahısına daxil edilmiş Azərbaycan muğamı, aşıq, xalçaçılıq sənəti, tar və kamança ifaçılığı, çovqan atüstü oyunu, qadın ipək baş örtüyü kəlağayı, lazımi sənətkarlıq növləri, lavaş və digər çörək ənənələri, dolma mətbəxi, Dədə Qorqud dastan irsi, yallı rəqsləri, nar bayramı, pəhləvanlıq mədəniyyəti, Nəsrəddin Hoca lətifələri, çay mədəniyyəti Azərbaycan mədəniyyətinin zənginliyini dünyaya nümayiş etdirir.

Bu, adi bir siyahı deyil - bu, Azərbaycanın milli kimliyinin, tarixi yaddaşının və mədəni kodlarının dünya miqyasında tanınmasının parlaq göstəricisidir. Artıq Azərbaycan yalnız nefti və strateji mövqeyi ilə deyil, eyni zamanda zəngin mədəni irsi ilə də dünyada dəyər qazanır. Hər bir qeyri-maddi mədəni nümunənin UNESCO-nun siyahısına salınması milli dəyərlərimizin qlobal məkanda yer alması deməkdir. Bu, həm də gənc nəslin öz mədəni köklərini qürurla yaşaması üçün qüvvətli zəmin yaradan vacib amildir.

Məhz bu baxış bucağından yanaşdıqda aydın olur ki, "Azərbaycan mədəniyyəti - 2040" Konsepsiyası yeni bir başlanğıcdan daha çox zamanın tələblərinə uyğun şəkildə yenilənmiş və müasir çağırışlara cavab verən davamlı dövlət xəttidir.

2040-cı ilə doğru mədəni inkişafın əsas xətti milli kimliyin məzmunlu şəkildə yaşadılmasıdır. Dilin qorunması və zənginləşdirilməsi, milli musiqi irsinin - muğamın, aşıq sənətinin, xalq rəqslərinin müasir texnologiyalar vasitəsilə beynəlxalq auditoriyaya çıxarılması bu baxımdan prioritet istiqamətlərdir. Rəqəmsal platformalar, süni intellekt və virtual mədəniyyət mühitləri Azərbaycan mədəniyyətinin yeni təqdimat formalarına çevrilməlidir.

Qloballaşmanın təsir göstərdiyi ən həssas sahələrdən biri gənclərin dünyagörüşüdür. "Azərbaycan mədəniyyəti - 2040" baxışı gənclərin milli kimliyi yalnız tarix kitablarında deyil, gündəlik həyat tərzində hiss etməsini hədəfləməsidir. Təhsil sistemində mədəniyyətin yalnız fənn kimi deyil, dəyər kimi təbliği, milli-mənəvi irsin yaradıcı formada öyrədilməsi gələcəyin mədəni dayaqlarını formalaşdıracaq.

Sözsüz ki, bu prosesdə dövlət siyasəti həlledici rol oynayır. Son illər mədəni irsin qorunması, işğaldan azad edilmiş ərazilərdə tarixi-mədəni abidələrin bərpası, milli mədəniyyətin beynəlxalq səviyyədə tanıdılması istiqamətində atılan addımlar 2040 vizyonunun real əsaslara söykəndiyini göstərir. Mədəniyyət artıq yalnız estetik sahə deyil, həm də milli təhlükəsizlik və ideoloji davamlılıq məsələsidir.

Eyni zamanda milli-mənəvi dəyərlərin qorunması özünəvurğunluq, qapanma anlamına gəlməməlidir. Azərbaycan mədəniyyəti tarix boyu fərqli sivilizasiyaların kəsişmə nöqtəsində formalaşıb və bu xüsusiyyət onu gücləndirib. "Azərbaycan mədəniyyəti - 2040" perspektivində də məqsəd milli özünəməxsusluğu qorumaqla qlobal mədəni dialoqda fəal iştirak etmək, Azərbaycan modelini dünyaya çatdırmaqdır.

Bu gün Azərbaycan beynəlxalq aləmdə artıq təkcə siyasi və iqtisadi təşəbbüslərlə deyil, fərqli mədəniyyətlərin dialoq və müzakirə məkanı kimi də tanınır. 2008-ci ildə əsası qoyulan və dünyada geniş rezonans doğuran "Bakı Prosesi", eləcə də mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq, Bakı Beynəlxalq Humanitar forumları Azərbaycanın multikultural dəyərlərə verdiyi önəmin praktik təzahürüdür. Bu mötəbər platformalarda müxtəlif dinlərin, mədəniyyətlərin, sivilizasiyaların nümayəndələri bir araya gələrək qlobal çağırışları məhz Bakıda - Azərbaycanda müzakirə edirlər. Bütün bunlar sübut edir ki, Azərbaycan artıq regional deyil, qlobal mədəni dialoqun mərkəzlərindən biri kimi qəbul olunur.

Nəticə etibarilə "Azərbaycan mədəniyyəti - 2040" yalnız gələcək üçün proqnoz deyil, bu gündən atılmalı olan addımların yol xəritəsidir. Qloballaşan dünyada milli kimliyi qorumağın yeganə yolu onu inkişaf etdirmək, yaşatmaq və gələcək nəsillərə çağdaş dildə ötürməkdir. Azərbaycan mədəniyyəti bu gücə, bu potensiala və bu tarixi missiyaya sahibdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● İncəsənət xadimləri

# Rəssamın uğurlu bədii yaradıcılıq yolu

**Xalça, miniatür və muğam sənəti xalqımızın minilliklər boyu yaradıb formalaşdırdığı mədəniyyətin əsas sahələridir. Xovsuz xalçaların hələ lap qədimlərdən xalqımızın məişətində geniş intişar tapdığı məlumdur. El müdrikliyindən süzülən naxışlar, ilmələr əsrlər boyu inkişafını davam etdirərək bu günümüzə gəlib çatmışdır. Elmi-texniki tərəqqinin inkişafı ilə xalça öz funksiyasını zəiflətsə də, bəzək əşyası kimi hər zaman qiymətli və əvəzolunmaz bir əşya olaraq qalmışdır. Toy-düyünlərdə qız-gəlinlərin ən əziz cehizi olmuşdur. XX əsrdə bir sıra tanınmış xalçaçı rəssamlarımız və tədqiqatçılarımız yetişmiş və özlərindən sonra məktəb yaratmışdılar. Burada Lətif Kərimov, Kamil Əliyev, Cəfər Müciri kimi sənət ustalarının adlarını xüsusilə vurğulamaq yerinə düşər. Bu məktəbin layiqli davamçılarından biri, Xalq rəssamı, məşhur xalçaçı rəssam Eldar Mikayılzadənin (1956) bu il 70 illik yubileyi tamam olur.**



Ata yurdu Naxçıvan torpağı olan Eldar Hidayət oğlu Mikayılzadə Bakının Əmircan qəsəbəsində anadan olub. O, lap kiçik yaşlarından rəssamlığa maraq göstərib. Əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda (1971-1975), sonra isə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (1978-1983) təhsil alıb. Rəssamlığa gəlişinə Xalq rəssamı Səttar Bəhlulzadənin böyük dəstəyi olub. Onun xalçaçılıq sahəsində fəaliyyət göstərməsi və bu istiqamətdə yaradıcılığını davam etdirməsini isə məşhur xalçaçı rəssam Lətif Kərimov təşviq edib. Rəssam həmçinin yaradıcılığının formalaşmasında xalçaçı rəssam Cəfər Mücirinin də xüsusi rolunun olduğunu vurğulayır. E.Mikayılzadə 1984-cü ildən peşəkar bədii yaradıcılıq fəaliyyətinə qədəm qoyub. O, AMEA-nın Memarlıq və İncəsənət İnstititunun xalçaçılıq şöbəsində elmi işçi (1983-1986), "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyində baş rəssam (1986-1990) vəzifələrində işləyib. Birlikdə baş direktorun müavini, baş direktor vəzifələrini yerinə yetirib. Xalçaçı rəssam Eldar Mikayılzadə özünün "Xalı" şirkətini yaradıb. Bu şirkət ölkəmizin qədim xalçaçılıq ənənələrinin təbliği, inkişafı və yaşadılması işində uğurlu fəaliyyət göstərib. Eldar Mikayılzadə həmçinin uzun illər Qafqaz Müsəlmanları İdarəsinin Mədəniyyət işləri üzrə sədr müavini (1993-2018) vəzifəsində çalışıb. Rəssam 2005-ci ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında uğurlu pedaqoji fəaliyyətlə məşğul olur. Eldar Mikayılzadənin xalçaçılıq sənəti sahəsində bir çox yetirməsi var.

Eldar Mikayılzadə 1984-cü ildən Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunub. Onun indiyədək ölkəmizdə və xaricdə dəfələrlə fərdi sərgiləri təşkil edilib: London (1991), Moskva (1992), Paris (1993), İstanbul (1995), Brüssel (1996), Bakı (2010, 2022)). Xalçaçı rəssamın Brüsseldə təşkil olunan fərdi sərgisinin açılışını Ulu Öndər Heydər Əliyev etmişdi və sənət ustasının yaradıcılığına yüksək qiymət vermişdi. Rəssamın əsərləri ölkəmizdə və xaricdə muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılır. Eldar Mikayılzadənin müəllifi olduğu ornamental və süjetli xalça əsərləri nəinki ölkəmizdə, eləcə də dünyada geniş şöhrət qazanıb, tanınmış xalça mütəxəssisləri və kolleksionerlər tərəfindən yüksək qiymətləndirilib. Xalçaçı rəssamın xalça əsərlərinə nümunə olaraq "Yeni Xilə" (1977), "Bütöv Azərbaycan" (1981), "Şəbu-hicran" (1981, 2006), "Əfşan" (1983, 1995, 1996), "Nağıllar aləmi" (1983), "Azərbaycanın musiqi korifeyləri" (1985), "Azərbaycanın poeziya korifeyləri" (1985), "Lətif Kərimov" (1986), "Şam (M.Füzuli)" (1989), "Xətai" (1990), "Bürclər" (1991, 2000), "Suliddin" (1991), "Xəmsə" (1990), "Sirlər xəzinəsi" (1992), "İslam" (1992), "Təbriznamə" (1993), "Namazlıq" (1993), "İthaf" (1995-1997), "Xilaskar" (1995-1997), "Üç din" (1998), "Peyğəmbərlərin şəcərəsi" (1998), "Tövrat" (1999), "İsanın zühuru" (2000), "Bismillahir-rəhmanir-rəhim" (2003), "Üç peyğəmbər" (2004), "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev" (2003, 2008), "Pirəbədil" (2009), "Yaranış" (2010), "Kəhkəşan" (2012), "Şəki xalçaları" silsiləsindən - "İlin fəsilləri", "Ləçək-turunc", "Adəm və Həvva", "Şəbəkə", "Bəndi-Rumi", "Göllü", "Xan ovu", "Ovçuluq", "Döyüş" və başqa xalçaları göstərə bilərik. Müəllimi Səttar Bəhlulzadəyə 4 xalça həsr edib: "Səttar dünyası" (1979), "Səttar Bəhlulzadə və dostları" (1982), "Səttar" (1999) və "Səttarın arzusu" (2012). Sonuncu xalçanın kompozisiyasında dahi rəssamın 36 rəngkarlıq əsərindən istifadə olunub. Xalçaçılıq sənətimizin yaşayan canlı korifeyi Eldar Mikayılzadənin əsərləri çeşni, kompozisiya quruluşu, kolorit həllinin ahəngi, ümumiyyətlə, mükəmməl bədii və texniki işlənilmə ustalığı ilə diqqətimizi cəlb edir. Adları sadalanan xalça nümunələrinin hər biri ayrı-ayrılıqda bədii təhlil və təsvir olunmağa layiq sənət əsərləridir.









Eldar Mikayılzadə həm də rəngkarlıq sahəsində bır sıra əsərlər ərsəyə gətirib. Rəssamın diqqəti cəlb edən, bədii estetik təsir qüvvəsi ilə fərqlənən belə işlərindən "12 imam" (2000), "Şam" (2001), "Yeddi alim" (2002), "İsa peyğəmbər" (2003), "Heydər Əliyev və Zərifə xanım Əliyevanın portreti" (2004), "Məryəm və Zəkəriyyə" (2006), "Meyvələrin söhbəti" (2006), "İki zirvə" (2006), "Məcnun" (2007), "Fələstinli Zeynəb" (2012) və başqa əsərlərinin adlarını qeyd etmək olar.

Eldar Mikayılzadə monumental dekorativ tətbiqi sənət sahəsində də uğurlu bədii yaradıcılıq fəaliyyəti göstərmişdir. Onun bədii ornamental dekorativ kompozisiyaları əsasında ölkəmizdə Təzəpir, İçərişəhərdəki Cümə məscidlərinin daxili və xarici tərtibatları kökündən yenilənmiş, insanın mənəvi dünyasını zənginləşdirən yeni görkəm almışdır. 1992-ci ildə tədavülə buraxılmış milli valyutanın eskizlərinin müəllifi də məhz Eldar Mikayılzadədir. Rəssam gerb layihəsində də müəyyən dəyişikliklər edib, alovun yerinə alov dilləri ilə "Allah" kəlməsini yazıb.

Xalçaçı rəssam Eldar Mikayılzadə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Xalq rəssamı" fəxri adına layiq görülmüşdür. Xalçaçı rəssamın həyat və yaradıcılığı haqqında Əməkdar incəsənət xadimi, professor Ziyadxan Əliyevin nəşr olunmuş "Eldar Mikayılzadə" adlı albom-kitabı işıq üzü görmüşdür. Z.Əliyev rəssam haqqında yazır: Hər dəfə onun növbəti yeni xalçası ilə üz-üzə dayananda və tapdığı kifayət qədər yeni ifadə vasitələrini görəndə əmin olursan ki, o, dünya xalçaçılığında yeniliklərdən xəbərdardır və özünün də nə etmək istədiyini yaxşı bilir. Yəqin elə bu səbəbdən də yaratdığı əsərləri sənət biliciləri maraqla gözləyir və hər dəfə hanadan "ayrılan" hər xalça böyük heyrətə səbəb olur.

Məşhur xalçaçı rəssam öz bədii və pedaqoji yaradıcılıq fəaliyyətini bu gün də uğurla davam etdirir.

*Əsəd QULİYEV,*
*sənətşünas, Azərbaycan Rəssamlar İttifaqının üzvü*

## Heydər Əliyev Sarayında Rəşid Behbudovun 110 illiyi qeyd edilib

**Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə dünyaşöhrətli sənətkar, Xalq artisti Rəşid Behbudovun anadan olmasının 110 illiyinə həsr edilmiş yaradıcılıq gecəsi keçirilib.**



Tədbirdə rəsmi şəxslər, ziyalılar və sənət nümayəndələri iştirak ediblər. Əvvəlcə Rəşid Behbudovun zəngin yaradıcılıq irsini əks etdirən arxiv görüntüləri qonaqlara təqdim olunub.

Gecənin bədii hissəsində Xalq artistləri Yusif Eyvazov, Salman Qəmbərov, Aygün Bayramova, Azər Zeynalov, Samir Cəfərov, Fidan Hacıyeva, Əməkdar artistlər Ramil Qasımov, Abbas Bağırov, solistlər Sevda Ələkbərzadə, Fərid Əliyev, Zamiq Hüseynov, İlhamə Qasımova, Rövşən Qəhrəmanov, Fəxri Kazım-Nicat, Leyla Rəhimova, Azad Şabanov, Anar Şuşalı və Taleh Yahyayev Rəşid Behbudovun xatirəsinə həsr olunmuş musiqi nömrələri ilə çıxış ediblər.

## Qusar İncəsənət Məktəbinin önündə görkəmli bəstəkar Elza İbrahimovanın büstü açılıb

**Qusar İncəsənət Məktəbinin önündə görkəmli bəstəkar, Xalq artisti Elza İbrahimovanın büstünün açılışı olub. Tədbirdə çıxış edənlər bənzərsiz sənətkara olan ümumxalq sevgisindən, onun ölməz əsərlərindən minnətdarlıqla söz açıblar.**



Tədbirin bədii hissəsində rayon incəsənət məktəbinin şagirdlərinin iştirakı ilə bəstəkarın mahnılarından ibarət konsert keçirilib.

AZƏRTAC-a öz təəssüratlarını bölüşən bəstəkarın qardaşı Çingiz İbrahimov deyib: "Elza İbrahimova haqqında ən çox yazan müəlliflərdən biri olsam da, hələ onun haqqında deyiləsi sözlər çoxdur. Bu yaxınlarda nəşr olunacaq növbəti kitabımın ən böyük bölməsi "Elza" adlanır. Təəssüf ki, bacımın yaradıcılığının miqyasını, fundamental əsərlərinin qiymətini, ümumən musiqi irsinin zənginliyini hələ tam dərk etməmişik. Bir gün gələcək, onun operaları nəhayət, öz səhnə təcəssümünü tapacaq, dünyanın müxtəlif ölkələrindəki milyonlarla pərəstişkarı bu hadisəni sevinc və qürur hissi ilə qarşılayacaq. Abidəyə baxanda uşaq kimi saf və saya, təbiətən həssas və kövrək Elza gözlərimin önündə canlanır.

Azərbaycan musiqi mədəniyyətinin parlaq ulduzlarından biri, Azərbaycan musiqisinin inkişafına böyük töhfələr vermiş görkəmli bəstəkar Elza İbrahimova bu gün də dillər əzbəri olan əsərlərin müəllifidir. Vətən sevgisi, insanlara olan dərin məhəbbəti və incə zövqü onun musiqisində özünü açıq-aydın göstərir".

Qeyd edək ki, yanvarın 10-da bəstəkarın anadan olmasının 88-ci ildönümü tamam olub. Duyğumuza hakim kəsilən "Bilməzdim", "Gecələr bulaq başı", "Ey Vətən", "Qurban verərdim", "Gəl barışaq", "Mehribanım", "Yoxluğunu bilə-bilə", "Mən sənin yanına qışda gəlirdim", "Sən yadıma düşəndə" və digər bu kimi əvəzsiz bəstələr Xalq artisti Elza İbrahimovanı heç vaxt unutdurmağa qoymayacaq.

# Azərbaycanın Milli Qəhrəmanı Şahin Tağıyev Hərbi Memorial Məzarlıqda torpağa tapşırılıb

**Yanvarın 16-da Azərbaycanın Milli Qəhrəmanı Şahin Tağıyev Hərbi Memorial Məzarlıqda dəfn edilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Milli Qəhrəmanı ilə vida mərasimi keçirilib. Mərasimdə dövlət və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



Daha sonra Şahin Tağıyevin nəşi Azərbaycan Respublikasının Dövlət Himninin sədaları və yaylım atəşi altında torpağa tapşırılıb.

Azərbaycanın Milli Qəhrəmanının ruhuna dualar oxunub, məzarı üzərinə tər güllər düzülüb, əklil qoyulub.



Xatırladaq ki, əslən Şuşadan olan Şahin Talıb oğlu Tağıyev 1949-cu il fevralın 3-də Tərtər şəhərində anadan olub. 1969-cu ildə Energetika Texnikumunu bitirib və təyinatla Rusiyanın Udmurt vilayətinə göndərilib. Gənc yaşlarından Rusiya və Azərbaycanda energetika, ticarət sahələrində fəaliyyət göstərən Şahin Tağıyev 1988-ci ildə Milli Azadlıq Hərəkatına qoşulub. 1991-ci ildə könüllü olaraq Qarabağ müharibəsinə qatılan qəhrəman leytenant rütbəsində bölük komandiri kimi döyüşlərə rəhbərlik edib. 1992-ci ildə həmin bölüyün bazasında yaradılan "Qurtuluş" batalyonunun komandiri təyin edilərək Ağdərə istiqamətində düşmən cəbhəsinin yarılmasında, eləcə də Tərtər, Seysulan, Yarımca və Levonarx istiqamətlərində aparılan döyüşlərdə xüsusi igidlik nümayiş etdirib. Dekabrın 29-da İsveç Krallığının Malmö şəhərində uzun sürən xəstəlikdən sonra vəfat edib.

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## BİLDİRİŞ

Zərdab rayon Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi bildirir ki, Zərdab rayon Körpükənd, Məlikli, Yarməmmədbağı-Ləleağacı, Pərvanlı, Dəliquşçu-Dəkkəoba, Alıcanlı və Dəkkəoba Sudan İstifadəedənlər birlikləri ləğv olunaraq digər Sudan İstifadəedənlər birliklərinə birləşdiriləcəkdir. Alıcanlı və Məlikli SİB-lərinin Qeydiyyat şəhadətnaməsi və birliyin Nizamnaməsi itdiyi üçün etibarsız sayılır.

17 Yanvar Dünya İxtiraçı Uşaqlar Günüdür

# Uşaqlar cəmiyyətin sabahıdır

**Uşaqların cəmiyyət həyatındakı rolu yalnız bu günlə məhdudlaşmır, onlar ölkənin sabahını formalaşdıran əsas qüvvədir. Gələcəyin elm adamları, mühəndisləri, müəllimləri, sahibkarları məhz bu gün məktəb partası arxasında əyləşən şagirdlər olacaqlar. Buna görə də uşaqların sağlam, bilikli, yaradıcı və məsuliyyətli vətəndaş kimi yetişdirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir.**

Azərbaycanda uşaq və gənclərə göstərilən diqqət və qayğı, onların potensialının üzə çıxarılması üçün yaradılan imkanlar uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Prezident İlham Əliyevin "Uşaqlar cəmiyyətin sabahıdır. Bizim üzərimizə düşən əsas vəzifə onlara aydın səma altında etibarlı gələcək bəxş etməkdir. Ölkəmizdə uşaqlara hərtərəfli qayğının dövlət siyasətinin tərkib hissəsi olması Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bu istiqamətdə bir sıra mühüm işlər görülmüş və görülməkdədir. Uşaqlarımız yüksək təhsil almaq, bacarıqlarını inkişaf etdirmək və istedadlarını üzə çıxara bilmək üçün hər cür imkana malikdirlər" fikirləri dövlətin bu sahəyə yanaşmasını aydın şəkildə ifadə edir.

Ölkəmizdə uşaqların təhsili, sağlamlığı, sosial müdafiəsi və mənəvi inkişafı ilə bağlı həyata keçirilən proqramlar onların təhlükəsiz və dayanıqlı gələcəyinə xidmət edir. Bu siyasətin təməlində Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji xətt dayanır. Uşaq hüquqlarının qorunması, keyfiyyətli təhsil və müasir dünyaya uyğun bacarıqların formalaşdırılması istiqamətində atılan addımlar ardıcıl şəkildə davam etdirilir. Müasir dövrdə uşaqların yalnız biliklərlə deyil, eyni zamanda praktik bacarıqlar, yaradıcı düşüncə və texnologiyaya adaptasiya qabiliyyəti ilə yetişdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Məhz bu zərurətdən irəli gələrək Azərbaycanda innovativ təhsil modelləri tətbiq olunur və STEAM yanaşması bu sahədə aparıcı rol oynayır.

Azərbaycanda uşaqların bilikli, təşəbbüskar və texnoloji savadlı böyüməsi üçün yaradılan imkanlardan biri də 2019-cu ildən etibarən həyata keçirilən STEAM layihəsidir. Layihə təhsilalanlarda XXI əsrin əsas bacarıqlarını - tənqidi və yaradıcı düşünmə, problemin həlli, əməkdaşlıq, ünsiyyət və innovativ yanaşma qabiliyyətlərini inkişaf etdirməyi hədəfləyir. STEAM tədrisi şagirdlərin elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat sahələrini inteqrativ şəkildə mənimsəməsinə şərait yaradır. Bu model ənənəvi tədrisdən fərqli olaraq, nəzəri biliklərin praktik tətbiqinə əsaslanır. Şagirdlər real həyat problemlərinə yönəlmiş layihələr üzərində işləyir, araşdırır, sınaqdan keçirir və nəticə əldə edirlər. Beləliklə, təhsilalanlar yalnız



mövzunu öyrənmir, eyni zamanda düşünməyi, qərar verməyi və komanda şəklində işləməyi öyrənirlər. Layihə çərçivəsində şagirdlərin müasir texnologiyalara uyğunlaşması, İKT avadanlıqlarından, robototexnika və 3D modelləşdirmə imkanlarından istifadə bacarıqlarının artırılması əsas məqsədlərdən biridir. Bu yanaşma uşaqlarda erkən yaşlardan innovasiya mədəniyyətinin formalaşmasına, gələcək peşə seçimlərində daha hazırlıqlı olmalarına şərait yaradır.

Hazırda STEAM layihəsi ölkə üzrə 4-9-cu sinifləri əhatə etməklə 398 ümumtəhsil məktəbində tətbiq olunur və 252 min 711 şagirdi əhatə edir. Eyni zamanda respublika üzrə 21 STEAM Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə şagirdlər müntəzəm olaraq müxtəlif modullar üzrə təlimlərə cəlb olunur, layihə əsaslı öyrənmə mühiti yaradılır və istedadlı uşaqların üzə çıxarılması üçün məqsədyönlü iş aparılır.

Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə hər il keçirilən Beynəlxalq STEAM Azərbaycan Festivalı (SAF) bu sahədə mühüm platforma rolunu oynayır. Festivalın əsas məqsədi STEAM əsaslı tədrisin təşviqi, şagirdlərdə XXI əsr bacarıqlarının inkişafı, yaradıcı və innovativ gənclərin üzə çıxarılmasıdır.

Ötən ilin noyabrında keçirilən "SAF 2025" festivalına maraq xüsusilə böyük olub. Yarışmada iştirak üçün 5 mindən çox namizəd qeydiyyatdan keçib, seçim mərhələsindən keçən 1415 iştirakçı isə final mərhələsində öz layihələrini təqdim etmək hüququ qazanıb. Festivalın İnnovasiya və Sahibkarlıq kateqoriyası üzrə qalibləri "SpaarkUp" komandasının üzvləri Rəsmiyyə Aslanzadə və Rza Rəfiyev olublar.

Qaliblərin mentoru, 11 nömrəli Xırdalan STEAM mərkəzinin koordinatoru və təlimçisi Sevil Pənahova bildirir ki, gələcəyin ixtiraçıları məhz bu mərkəzlərdə keçirilən təlimlər zamanı üzə çıxır. Onun sözlərinə görə, layihə seçilərkən əsas diqqət innovativlik, səmərəlilik və real problemlərin həllinə yönəlmiş texnoloji yanaşmaya verilir. Rəsmiyyə və Rza tərəfindən təqdim edilən yağış suları ilə çalışan "ağıllı istixana" modeli də bu tələblərə tam cavab verib.

"Layihə çərçivəsində hazırlanmış sistem yalnız təqdimat üçün nəzərdə tutulmayıb, tam funksional və işlək model kimi qurulub. "Ağıllı istixana" su və enerji israfının qarşısını almaq, kənd təsərrüfatında məhsuldarlığı artırmaq və ekoloji davamlılığı təmin etmək məqsədi daşıyır. Yağış suyunun toplanaraq suvarmada istifadə edilməsi, günəş panelləri vasitəsilə enerji sərfiyyatının azaldılması layihənin əsas üstünlüklərindəndir", - deyə mentor qeyd edib.

13 yaşlı Rəsmiyyə Aslanzadə 11 nömrəli Xırdalan şəhər məktəbinin 8b sinfində oxuyur. STEAM-lə 6-cı sinifdən məşğul olduğunu və texnologiyaya xüsusi maraq göstərdiyini deyən Rəsmiyyənin sözlərinə görə, bu uğur gələcək fəaliyyətində böyük motivasiya rolunu oynayıb: "Qoşulduğum ilk müsabiqədə qalib olduğum üçün özümü çox şanslı hesab edirəm. Rza ilə birlikdə bir neçə həftə araşdırma apardıq. Seçdiyimiz layihənin kənd təsərrüfatının inkişafında faydalı olacağını düşündük. İdeyamız müəllimimizin də xoşuna gəldi. Şəkil çəkməyi xoşlamağımın bu sahədə faydasını gördüm. Bu uğur mənim üçün çox böyük motivasiya oldu. Amma uğursuzluqla qarşılaşsaydım belə, həvəsdən düşməyib öz üzərimdə çalışacaqdım".

Komandanın digər üzvü Rza Rəfiyev isə həmin məktəbin 10-cu sinif şagirdidir. İnnovativ və qlobal problemlərə texnologiya vasitəsilə həll yolları tapmağı sevdiyini bildirən Rza layihənin ən çətin mərhələsinin kodlaşdırma olduğunu vurğulayır və komanda işinin əhəmiyyətini xüsusi qeyd edir: "Məqsədimiz kənd təsərrüfatında "ağıllı idarəetmə" texnologiyalarını yerli bazara çatdırmaq, resurs qənaətli, ekoloji və funksional həllər təqdim etmək idi. Layihəni daha da genişləndirərək müxtəlif iqlim şəraitlərinə uyğun modellər yaratmaq gələcək planlarımız arasındadır. Yeni biliklər öyrənmək, səhvlərdən, uğursuzluqlardan nəticə çıxarıb onları düzəltmək mənimçün əsl motivasiyadır. Ən böyük xəyalım universitetə qəbul olub, maliyyə sahəsi üzrə ali təhsil almaq və gələcəkdə öz şirkətimi qurmaqdır".

Bu kimi layihə və festivallar bir daha sübut edir ki, düzgün istiqamətləndirilmiş təhsil siyasəti uşaqların potensialını üzə çıxarmağa qadirdir. Onlar şagirdlərə yalnız bilik deyil, həm də özünə inam, təşəbbüskarlıq və məsuliyyət hissi aşılayır. Dövlətimizin uşaqlara və təhsilə göstərdiyi diqqət isə bu uğurların davamlı olacağına əminlik yaradır.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Bilmək istəyirəm

*- İşçinin səhvi ucbatından texniki avadanlıq sıradan çıxıb, böyük zərər yaranıb. İşçi isə məsuliyyəti boynuna almır. Ziyanın məhz onun günahı olduğunu necə sübut etmək olar və dəymiş ziyanın məbləği ondan tutula bilərmi?*

***Mehri Əlizadə, Xırdalan şəhəri***

✓ - Sualınızla bağlı bildiririk ki, zərərin məhz işçinin səhvi (günahı) səbəbindən yaranması faktını sübut etmək üçün ilkin mərhələdə hadisənin mövcudluğu və bu mövcudluqda işçinin təqsiri üzrə sübutlar toplamaq lazımdır. Belə ki, avadanlığın sıradan çıxması ilə bağlı texniki ekspertiza və ya qüsur aktı tərtib olunmalı, hadisənin baş verməsini özündə əks etdirən videogörüntü götürülməli (əgər mövcuddursa), hadisə ilə bağlı şahid ifadələri alınmalı (əgər şahid varsa), həmçinin işçinin hərəkətini (hərəkətsizliyini) təsdiq edən sənədlər və materiallar əldə edilməlidir. Bu sübutlardan gələcəkdə zərər tələbi ilə bağlı məhkəməyə müraciət edilərkən istifadə olunur.

Zərərin tələb edilmə hissəsinə gəlincə, Əmək Məcəlləsinin 10-cu maddəsinin ç bəndinə görə, işəgötürənə vurduğu maddi ziyana görə məsuliyyət daşımaq əmək müqaviləsi üzrə işçinin əsas vəzifələrindən biridir. Bundan başqa, əmək müqaviləsi bağlanarkən və ya sonra tərəflər arasında yazılı şəkildə tam maddi məsuliyyət müqaviləsi varsa bu halda işçidən zərərin məbləği tələb oluna bilər. Həmçinin, Mülki Məcəllənin 1099.1-ci maddəsinə əsasən, hüquqi və ya fiziki şəxs öz işçisinin törətdiyi mülki hüquq pozuntusu (delikt) üçün məsuliyyət daşıyır və əmək (qulluq, mənsəb) vəzifələrinin icrası zamanı işçisinin vurduğu zərərin əvəzini ödəməlidir.

Odur ki, Siz ziyanın mövcudluğu və onun işçinin təqsiri ucbatından baş verməsi, eləcə də ziyan məbləği ilə bağlı sübutlar toplamaqla məhkəməyə müraciət edə bilərsiniz.

*- Sizə miras hüququ ilə bağlı məsləhət almaq üçün müraciət edirəm. Məlumat üçün bildirim ki, ailəmiz uzun müddət baba mülkündə yaşayıb. Atam erkən vəfat edib, bir müddət sonra isə anam dünyasını dəyişib. Babamın vəfatından sonra sözügedən mülk nənəmin adına keçib. Nənəmin vəfatından sonra isə həmin mülkdə yalnız bibim və ailəsi yaşayıb. Bibim vəfat etdikdən sonra onun qızı digər potensial vərəsələrin razılığı və məlumatı olmadan mülkü satıb. Mülkün satışı, eləcə də əvvəlki vərəsəlik bölgüsü ilə bağlı rəsmi sənədlər barədə hazırda əlimdə hər hansı məlumat yoxdur.*

*Bu vəziyyətlə əlaqədar olaraq aşağıdakı məsələlərlə bağlı bilmək istəyirəm: baba mülkündən atama düşməli olan pay üzrə mənim vərəsəlik hüququm mövcuddurmu?*

*Əgər belə bir hüquq mövcuddursa, onun bərpa edilməsi və ya tələb olunması üçün hansı hüquqi addımların atılması mümkündür?*

*Mülkün artıq üçüncü şəxsə satılması vərəsəlik hüququnun həyata keçirilməsinə maneə yaradırmı?*

*Mövcud vəziyyət üzrə hüquqi yolları ətraflı izah etməyinizi xahiş edirəm.*

***Yeganə Xudiyeva, Bakı şəhəri***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, mövcud çətinliyiniz miras hüququ baxımından kifayət qədər mürəkkəb bir vəziyyətdədir, lakin bu ümidsiz olmağınız anlamına gəlmir. Öncə baba mülkindən ataya payın düşməsi ilə bağlı qeyd edirik ki, Mülki Məcəllənin 1159-cu maddəsinə əsasən, ata mirasqoyana münasibətdə birinci dərəcə vərəsədir və onun mirasdan məcburi pay hüququ vardır. Atanızın vəfat etməsi ilə bağlı nəzərə alınmalıdır ki, ona öz atasından qalacaq miras pay hüququ itmir və bu hüququ atanızın vərəsələrinə keçir. Mülkün babanın ölümündən sonra nənənin adına keçməsi məsələsinə gəlincə, burada nənənin mülkiyyət hüququnun yaranmasına əsas verən hadisəni dəqiqləşdimək çox önəmlidir. Əgər mülk bağışlama, yaxud alqı-satqı yolu ilə babadan nənəyə ötürülmüşsə, o zaman mülk miras əmlak kütləsindən çıxır. Yox, əgər mülk babanın ölümündən sonra nənə tərəfindən vərəsəlik yolu ilə qəbul edilmişsə, o zaman mülki miras əmlak hesab edilir. Belə olan halda sizin atanıza, eləcə də atanızdan sizə çatmalı olan pay itmiş sayılmır. Çünki miras əmlak nənənizin mülkiyyətinə keçən zaman mütləq qaydada siz vərəsəliyə çağırılmalıydınız.

Bibiniz qızının mülkü digər vərəsələrin razılığı olmadan başqa şəxsə satması qanuni deyildir. Bibiniz qızının yalnız ona miras əmlakdan çatası payla bağlı hüququ vardır. Mülkün digər şəxsə satılması sizin vərəsəlik hüququnuzu aradan qaldırmır. Odur ki, siz babanızdan sizə çatası miras əmlak tələbi ilə bağlı, həmçinin mülkün başqa şəxsə satılmasını mübahisələndirməklə məhkəməyə müraciət edə bilərsiniz.

**Sualları cavablandırdı:
Paşa SƏFƏROV,
Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Hava bəzi yerlərdə yağıntılı olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə çiskinli, axşam isə arabir yağıntılı olacağı gözlənilir. Gecəyə doğru yarımadanın ayrı-ayrı yerlərində yağıntının intensivləşəcəyi, bəzi şəhərətrafı ərazilərdə yağışın sulu qarla qarışıq yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 0-3, gündüz 4-7 dərəcə isti olacaq. Atmosfer təzyiqi



normadan yüksək - 768 millimetr civə sütunu, nisbi rütubət isə 75-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağıntının intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 4 dərəcə şaxtadan 1 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti, dağlarda gecə 5-10, yüksək dağlıq ərazilərdə 15-20, gündüz 0-5 dərəcə şaxta olacaq.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3222
Sifariş 64

Qiyməti 60 qəpik